# Musiqi

## METODİK VƏSAİT




6

OQTAY RƏCƏBOV
NAZİM KAZIMOV
LALƏ HÜSEYNOVA

Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün

# Musiqi fənni üzrə dərsliyin

# METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi tahsil_az@yahoo.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

Təhsil

## MÜNDƏRİCAT


Giriş...3
İzahat vərəqi...4
6-cı sinif "Musiqi" fənni üzrə illik planlaşdırma...5
Musiqi fənnindən diaqnostik qiymətləndirmə (nümunə)...8
Musiqi fənnindən KSQ – 1 (nümunə)...9

**I. MUSİQİNİN TƏSİR GÜCÜ**
1. Musiqidə təzadlılıq...12
2. Musiqidə emosionallıq...14
3. Musiqidə millilik və ümumbəşərilik...16
4. Bəstəkarların yaradıcılığında milli xüsusiyyətlər...18
5. Musiqidə müharibə mövzusu...20
6. Musiqidə polifoniya...22
7. Musiqidə homofoniya...24

**II. MUSİQİ VƏ HƏYAT**
8. Musiqidə Qarabağ mövzusu...26
9. Musiqidə mübarizə mövzusu...28
10. Musiqidə gərginlik...30
11. Musiqidə milli qəhrəman obrazı...32
12. Klassik Azərbaycan muğamı – "Segah"...34
13. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və musiqi...36

**III. MUSİQİDƏ ƏHVALİ-RUHİYYƏ**
14. Musiqinin obyektiv reallığı...38
15. Musiqidə yumoreska...40
16. 20 Yanvar və musiqi...42
17. Musiqidə axşam əhvali-ruhiyyəsi...44
18. Musiqidə təbiət təsviri...46
19. Musiqidə real və qeyri-real obrazlar...48
20. Fransız bəstəkarının yaradıcılığında Xocalı mövzusu...50
21. Müxtəlif dövrlərdə mahnılarımızda qadın obrazları...52
22. Novruz bayramı və musiqi...54

**IV. AZƏRBAYCAN XALQ VƏ PROFESSİONAL MUSİQİSİ VƏHDƏTDƏ**
23. "Şüştər" muğamı...56
24. Azərbaycan muğamları və xor...58
25. Azərbaycan muğamları və simfonik orkestr...60
26. Muğamlar və milli Azərbaycan operası...62
27. Azərbaycan xalq rəqsləri və balet...64
28. Azərbaycan xalq musiqisi və operetta...66
29. 28 May – Respublika Günü və musiqi...68
Mahnı repertuarı...70

# GİRİŞ

Müstəqil ölkəmizdə təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi, fərdiləşdirilməsi, diferensiallaşdırılması prinsipləri əsasında uşaq hüquqlarının təcrübədə tətbiqi yeni pedaqoji təfəkkürün inkişafına təkan vermiş, təhsilin keyfiyyətcə yüksəldilməsini zərurətə çevirmişdir.

Bu baxımdan musiqi təlimi milli musiqi və mədəniyyət tariximizin, incəsənət sahəsində qədim köklərə malik ənənələrimizin öyrənilməsi, böyüyən nəsildə estetik hissi – emosional tərbiyənin gücləndirilməsi, ümumi intellektual səviyyənin inkişafı, istedadlı şagirdlərin aşkara çıxarılması kimi tələblərin yerinə yetirilməsində mühüm rol oynayır.

Musiqi kurikulumunun tələblərinə əsasən musiqi müəllimi istiqamətverici, əlaqələndirici, məsləhətçi rolunda çıxış edir. Məktəblilər isə tədqiqat aparır, biliklərini tətbiq və təqdim etmək bacarıqlarını göstərirlər.

Milli və dünya təcrübəsinin öyrənilməsi nəticəsində musiqi təliminin musiqi aləmi, emosional dəyərləndirmə, musiqi fəaliyyəti kimi məzmun xətləri müəyyənləşdirilmişdir.

Musiqi aləmi məzmun xətti bilavasitə ifası və dinlənilməsi zəruri sayılan musiqi nümunələrini, musiqi savadı, bəstəkar yaradıcılıqları, geniş yayılmış milli və bəşəri musiqi əsərləri, müxtəlif musiqi alətləri və musiqi kollektivləri, görkəmli musiqi ifaçıları haqqında bilik və bunlarla bağlı bacarıqları əhatə edir.

Emosional dəyərləndirmə məzmun xətti ilə əlaqədar məktəblilərin musiqi dünyagörüşünün genişləndirilməsi nəzərdə tutulur. Onun üçün lap birinci dərsdən başlayaraq musiqi incəsənətinin emosional məzmunu və musiqi ifadə vasitələri arasında əlaqə yaratmaq lazımdır. Bununla əlaqədar, "əsas biliklər"ə yiyələnməyin böyük əhəmiyyəti vardır. "Əsas biliklər"ə temp, dinamika, registr, melodiya, ritm, musiqi janrları və quruluşları, əsərlərin və musiqi alətlərinin, xor və orkestrin tembri, ədəbiyyat – musiqi – təsviri incəsənət arasında əlaqələr haqqında məlumatlar daxildir.

Musiqi fəaliyyəti məzmun xətti şagirdlərdə yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılmasını təmin edir. Mahnı oxuma, musiqi dinləmə, musiqili-ritmik hərəkət, sadə musiqi alətlərində çalmaq, improvizə etmək, musiqi əsərlərinin məzmununu səhnələşdirmək bu məzmun xəttinin əsasıdır.

Xorla oxumaq məktəblilərin musiqi tərbiyəsində ən fəal musiqi fəaliyyəti növüdür. Mahnı oxuma məktəblinin hərtərəfli inkişafına, düzgün, savadlı danışığının formalaşmasına səbəb olur.

Musiqili-ritmik hərəkətlər zamanı musiqiyə emosional münasibət inkişaf edir, uşaqlar hərəkətlərlə əsərdə əks olunan emosiya və hissləri göstərə bilirlər.

Musiqi alətlərində çalmaq əvvəlki illərdə olduğu kimi, musiqi inkişafının effektinin artmasına səbəb olur.

Musiqi improvizasiyası uşaqların yaradıcılığının inkişafına təsir göstərir və dərsdə əldə edilmiş biliklərin şüurlu mənimsənilməsinə kömək edir.

Musiqi fəaliyyəti məzmun xətti üzrə mənimsənilmiş bacarıqlar praktik əhəmiyyəti baxımından şagirdlərdə musiqi mədəniyyətinin formalaşmasında həlledici rol oynayır.

Yeni "Musiqi" kurikulumunun tələblərinə görə, təlim prosesi əvvəlcədən müəyyən olunmuş nəticələrə əsaslanmışdır və müəllim əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdlər isə öyrənmək üçün tədqiqat aparan, öyrəndiklərini tətbiq və təqdim etməyi bacaran yaradıcı subyektlər rolunda iştirak edirlər.

Müasir dövrdə musiqi təlimi aşağıdakı prinsiplərə əsaslanır: pedaqoji prosesin tamlığı; təlimdə bərabər imkanların yaradılması; şagirdyönümlülük, inkişafyönümlülük; fəaliyyətin stimullaşdırılması; dəstəkləyici mühitin yaradılması.

VI sinif "Musiqi" dərslərində konfrans, seminar, müzakirə-diskussiya, ekskursiya dərs formalarından istifadə etmək olar. Eyni zamanda insert, BİBÖ, beyin həmləsi, klaster, ziqzaq, dəyirmi masa, Venn diaqramı və başqa müasir təlim üsullarından istifadə etmək məqsədəuyğundur.

Metodik vəsaitdə VI sinif "Musiqi" fənni üzrə hər bir dərsin məzmun xətti və məzmun standartı, məqsədi, təlim üsulu (təxmini), dərsin təchizi və gedişi (məzmun xətləri üzrə) və dərsin qısa planı açıqlanmış və yeni təlim üsullarından istifadə etməklə dərs nümunələri, eyni zamanda dərs prosesində istifadə olunacaq musiqi materiallarının notları verilmişdir.

# İZAHAT VƏRƏQİ

"Musiqi" fənni üzrə dərslik komplekti dərslik və müəllim üçün metodik vəsaitdən ibarətdir.

**Müəllim üçün metodik vəsait.** Bu vəsaitdə V sinifdə olduğu kimi, hər bir dərsin mövzusu, məzmun standartları, inteqrasiya, iş üsulları, gündəlik planlaşdırma nümunələri, qiymətləndirmə cədvəli, eyni zamanda musiqi repertuarı öz əksini tapmışdır. Dərsə hazırlaşan müəllim məktəblilərin biliyini, qavrama qabiliyyətini və yaş xüsusiyyətlərini nəzərə almalı, yeni mövzunun yaxşı mənimsənilməsi üçün müxtəlif əyani, texniki və köməkçi vəsaitlərdən istifadə etməyi bacarmalıdır.

Şagirdlərin biliyinin qiymətləndirilməsi "5" ballıq qiymət sisteminə əsaslanır. Bu zaman aşağıda göstərilən meyarları nəzərə almaq məsləhətdir:

1. Musiqinin ifası (mahnının ifası, sadə musiqi alətlərində çalma);
2. Sual-cavabla mövzunun əhatə olunması;
3. Yeni ideya və təkliflərin irəli sürülməsi;
4. Əməkdaşlıq, qrup işində fəallıq və təşəbbüs göstərilməsi;
5. Problemin həllinə yaradıcı yanaşma, ümumiləşdirmə bacarığı, təqdimetmə və s.

Hər bir məzmun vahidinin sonunda məktəblinin əldə etdiyi nailiyyətləri yoxlamaq üçün yazılı, şifahi və musiqili testlərdən istifadə etmək məsləhət görülür.

Dərslikdə mövzuların məzmununa uyğun məlumatlar, illüstrasiyalar, bəstəkarların portretləri, mahnıların mətni, tapşırıqlar, suallar və "Musiqi lüğəti" öz əksini tapmışdır.

Dərslik hazırlanarkən aşağıdakı pedaqoji prinsiplərə riayət olunmuşdur: şagirdlərin yaş xüsusiyyətlərinə uyğun gəlməsi, dərslərin məzmununun gender, etnik irq və din məsələlərinə həssaslıqla yanaşmaqla seçilməsi, biliklərin dəqiq olaraq elmə əsaslanması, dərs mövzularının sadə, lakin maraqlı, cəlbedici olması, dərslikdəki şəkil və illüstrasiyaların mövzulara uyğun olması, bütün dərslik boyu vahid dizayn üslubunun və dərslərin məzmununa uyğunluğunun gözlənilməsi, mövzu baxımından digər fənlərlə əlaqələrin yaradılması, nəhayət, qəbul olunmuş "Musiqi" üzrə məzmun standartlarına əsaslanması. Hər bir dərsdə aşağıda verilmiş (yaxud müəllimin şəxsi təşəbbüsü ilə məsləhət görülən) qiymətləndirmə cədvəlindən istifadə etmək olar:

## QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ

| № | Meyarlar / Qrup | I (zəif) | II (orta) | III (yaxşı) | IV (əla) |
|---|---|---|---|---|---|
| 1 | Öz fikrini ifadə edir | | | | |
| 2 | Musiqi nümunələrini fərqləndirir | | | | |
| 3 | Mövzu ilə əlaqədar nəticə çıxarır | | | | |
| 4 | Təqdimat edir | | | | |
| 5 | Mahnı melodiyalarını təmiz oxuyur | | | | |
| 6 | Musiqiyə uyğun rəqs edir, ritm tutur | | | | |
| 7 | Mahnının xanə ölçülərini, tonallığını müəyyən edir | | | | |

**Dərsin təchizi.** "Musiqi" fənni üzrə dərs prosesində şagirdlərin mənimsədikləri bilik, bacarıq və vərdişlərdən, dərslikdən, musiqi aləti kimi fortepianodan, not materialından, portret və şəkillərdən, sxem və plakatlardan, texniki vasitə kimi kompüterdən, maqnitofon və diskdən, DVD-pleyerdən və digər əlavə köməkçi vasitələrdən istifadə olunmalıdır.

# 6-cı sinif "Musiqi" fənni üzrə illik planlaşdırma

| Saat | Tədris vahidi | Dərsin mövzusu | Standart | İnteqrasiya | Xorla ifa ediləcək mahnıların müəllifləri | Dinləniləcək musiqi nümunələrinin və müəlliflərinin adları | Resurslar |
|---|---|---|---|---|---|---|---|
| 1 | | **Diaqnostik qiymətləndirmə** | | | | | |
| 1 | Musiqinin təsir gücü | Musiqidə təzadlılıq | 1.1.1.; 2.3.1.; 3.1.1. | Əd.: 1.1.5. T.i.: 3.1.1. | "Azərbaycan" – A.Səmədzadə, K.Abıyeva | 1. Q.Qarayev. "Yeddi gözəl" baletindən "Vals"<br>2. F.Əmirov "Sevil" operasından "Sevilin ariyası" | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Musiqidə emosionallıq | 1.1.1.; 2.3.1.; 3.1.1. | Əd. 1.1.5. T.i. 1.3.1. | "İstiqlal bayramı" – R.Şəfəq, V.Mirzə | 1. P.İ.Çaykovskinin "6-cı simfoniyası"nın I hissəsindən köməkçi mövzu<br>2. "Heyratı" zərbi-muğamından bir parça | Dərslik, iş vərəqi, kompüter, bəstəkarın portreti |
| 1 | | Musiqidə millilik və ümumbəşərilik | 1.1.1.; 1.1.2.; 3.1.1. | Əd. 1.2.2. H.b. 1.2.1. T.i. 3.1.1. | "Azərbaycan əsgəri" – O.Zülfüqarov, P.Əliyev | 1. F.Şopen. "Mi minor valsı"<br>2. Q.Qarayev. "Fikirli" fortepiano pyesi | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Bəstəkarların yaradıcılığında milli xüsusiyyətlər | 1.1.1.; 1.1.2.; 2.2.2.; 3.1.1. | Əd. 1.2.2. T.i. 3.1.1. | "Sarı gəlin" Azərbaycan xalq mahnısı | 1. Ü.Hacıbəyli. "Leyli və Məcnun" operasından "Nofəlin ariyası"<br>2. "Heyratı" Azərbaycan zərbi-muğamı | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Musiqidə müharibə mövzusu | 1.1.1.; 2.3.1.; 3.1.1. | Əd. 1.2.4. | "Azadlıq marşı", "Heyratı" zərbi-muğamı – E.Mirzəbəyli | 1. O.Rəcəbov. "Zəfər himni" kantatasının III hissəsi<br>2. M.Cəfərov və "Cəngi" etnocaz qrupu. "Xudayar təsnifi" | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | **KSQ** | | | | | |
| 1 | | Musiqidə polifoniya | 1.1.1.; 1.2.2.; 3.1.1. | T.i. 3.1.1. | "Təmiz səma altında" – O.Rəcəbov, H.Abbas | 1. İ.S.Bax. "Orqan üçün re minor Tokkata və Fuqa" əsərindən "Fuqa"<br>2. Niyazi. "Rast" simfonik muğamından II hissə | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Musiqidə homofoniya | 1.1.1.; 1.2.2.; 3.1.1. | Əd. 1.2.4. | "İçərişəhər" – O.Rəcəbov, S.Nuruqızı | 1. F.Şubert. "Ave Mariya"<br>2. İ.S.Bax. "Lya minor prelüdü"<br>3. L.V.Bethoven. "Sol major menueti"<br>4. F.Əmirov. "Şur" simfonik muğamının "Simayi-Şəms" şöbəsindən bir parça | Dərslik, iş vərəqi, kompüter |
| | Musiqi və həyat | Musiqidə Qarabağ mövzusu | 1.1.1.; 1.2.2.; 3.2.1. | Əd. 1.2.4. | "Qarabağ" – Bəhram Nəsibov | V.Adıgözəlov "Qarabağ şikəstəsi" oratoriyasından "Qarabağ şikəstəsi" | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Musiqidə mübarizə mövzusu | 1.1.1. 3.1.1. | Əd. 1.2.4. T.i. 1.3.1. | "Sülh məşəli" – E.Dadaşova, R.Yusifoğlu | Q.Qarayevin "İldırımlı yollarla" baletindən "Gitaralı qızların rəqsi" | Dərslik, iş vərəqi, kompüter |
| | | Musiqidə gərginlik | 1.1.1.; 2.3.1. | Əd. 1.2.4. | "Yaxşı yol" – Ü.Hacıbəyli, S.Rüstəm | 1. S.Raxmaninovun "2 №li konsert"inin I hissəsindən giriş<br>2. "Oxuma, gözəl" romansından bir parça | Dərslik, iş vərəqi, kompüter |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1 | Musiqi və həyat | Musiqidə milli qəhrəman obrazı | 1.1.1.; 1.2.2.; 3.2.2. | T.i. 3.1.1. | "İgid əsgər, möhkəm dayan" – Şahin Musaoğlu | "Çingiz" simfoniya-rekviyem əsərindən bir hissə. "Ümumxalq hüznü" | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Klassik Azərbaycan muğamı – "Segah" | 1.2.1.; 2.2.2.; 2.3.1. | Əd. 1.1.2. T.i. 3.1.1. H.b. 1.2.1. | "Sarıbülbül" Azərbaycan xalq mahnısı | 1. "Segah" muğamı 2. "Mirzəyi" rəqsi | Dərslik, iş vərəqi, kompüter |
| | | **KSQ** | | | | | |
| 1 | | Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və musiqi | 1.2.1.; 2.1.2.; 2.3.1. | Əd. 1.1.5. H.b. 3.2.1. | "Qurban olum" – Ə.Cavanşirov, R.Kərimli | Ü.Hacıbəyli. "Koroğlu" operasının "Uvertüra"sından bir hissə | Dərslik, iş vərəqi, kompüter |
| 1 | Musiqidə əhvali-ruhiyyə | Musiqinin obyektiv reallığı | 1.1.1.; 2.3.1.; 3.2.2. | Əd. 1.1.5. | "Bakı haqqında" mahnı – V.Adıgözəlov, R.Rza | 1. Ü.Hacıbəyli. "Koroğlu" operasının II pərdəsindən "Koroğlunun ariyası" 2. Ü.Hacıbəyli. "Koroğlu" operasının II pərdəsindən "Final xoru" | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Musiqidə yumoreska | 1.1.1.; 3.1.1. | Əd. 2.1.2. | "Oxutmuram, əl çəkin!" – Z.Bağırov, M.Ə.Sabir | 1. İ.S.Bax. "2№-li süita"dan "Yumoreska" 2. M.Mirzəyev. "Yumoreska" fortepiano pyesindən melodiya | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | 20 Yanvar və musiqi | 1.1.1.; 1.2.1.; 3.1.1. | Əd. 2.2.1. | "Səni adım qorusun" – O.Rəcəbov, R.Rövşən | 1. A.Dadaşov. Solistlər, xor və simfonik orkestr üçün 9 saylı simfoniya. "20 Yanvar" 2. "Şur" muğamının "Zəminxarə" guşəsi | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Musiqidə axşam əhvali-ruhiyyəsi | 1.1.1.; 3.1.1. | H.b. 4.3.1. | "Ay nəğməsi" – A.Rzayeva, H.Ziya | 1. F.Şubert. "Serenada" 2. T.Quliyev. "Axşam mahnısı" | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Musiqidə təbiət təsviri | 1.1.1.; 3.1.1. | Əd. 2.2.1. | "Təbiət mahnısı" – M.Mirzəyev, G.Fəzli | 1. T.Quliyev. "Gözəlliklər məskəni" 2. N.Rimski-Korsakovun "Qar qız" operasından "Qar qızın ariyası" | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | **KSQ** | | | | | |
| 1 | | Musiqidə real və qeyri-real obrazlar | 1.1.1.; 1.1.2.; 3.1.1. | Əd. 2.2.1. H.b. 1.2.1. | "Ana laylası" – O.Zülfüqarov, R.Zəka | 1. M.Qlinka. "Ruslan və Lyudmila" operasından "Çernomorun marşı" 2. M.Qlinka. "İran qızlarının xoru" | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Fransız bəstəkarının yaradıcılığında Xocalı mövzusu | 1.1.1.; 1.2.1.; 3.1.1. | Əd. 1.1.2. H.b. 1.2.1. | "Laçın" Azərbaycan xalq mahnısı | "Xocalı 613" musiqi pyesindən I və II hissələr | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Müxtəlif dövrlərdə mahnılarımızda qadın obrazları | 1.1.1.; 1.2.1.; 2.3.1. | Əd. 2.1.1. | "Azərbaycan ulduzu" – O.Rəcəbov, Ə.Ağayev | "Sevil" operasının II pərdəsindən "Sevilin etiraz ariyası" | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Novruz bayramı və musiqi | 1.1.1.; 1.2.1.; 3.1.1. | Əd. 2.1.1. | "Novruz gəlib" – C.Quliyev, R.Rövşən | 1. "Bayram olsun" – O.Kazımi, R.Heydər 2. M.Əhmədova. "Bayram mahnısı"ndan bir parça | Dərslik, iş vərəqi, kompüter |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1 | Azərbaycan xalq və professional musiqisi vəhdətdə | "Şüştər" muğamı | 1.1.1.; 1.2.2.; 2.2.2. | Əd. 1.1.2. H.b. 1.2.1. | "Ana Kür" – T.Quliyev, T.Elçin | 1. "Şüştər" muğamından "Mayeyi-Şüştər"<br>2. Ü.Hacıbəyli "Arşın mal alan". IV pərdə "Gülçöhrənin ariyası" (naləsi) | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Azərbaycan muğamları və xor | 1.1.1.; 1.2.2.; 3.1.1. | H.b. 1.2.1. T.i. 3.1.1. | "Bahar nəğməsi" – Ü.Hacıbəyli | 1. N.Əliverdibəyov. "Bayatı-Şiraz" (a kapella üçün) "Bayatı-Şiraz" (orqan aləti üçün)<br>2. İ.S.Bax. "Orqan üçün re minor Tokkata və Fuqa" əsərindən bir parça | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | **KSQ** | | | | | |
| 1 | | Azərbaycan muğamları və simfonik orkestr | 1.1.1.; 1.2.2.; 2.2.1. | H.b. 1.2.1. | "Şənlik mahnısı" – M.Mirzəyev, H.Ziya | 1. F.Əmirov. "Kürd-Ovşarı" simfonik muğamından bir parça<br>2. "Şur" simfonik muğamının girişindən bir parça | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Muğamlar və milli Azərbaycan operası | 1.1.1.; 1.2.2.; 3.2.2. | Əd. 1.1.5. | "Vətənimsən" – R.Mirişli, F.Qoca | 1. Ü.Hacıbəyli. "Leyli və Məcnun" operasının I pərdəsindən Qeyslə (Məcnunla) atasının muğam üstündə ifasından bir parça<br>2. Ş.Axundova. "Gəlin qayası" operasından "Gülbaharın mahnısı" | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Azərbaycan xalq rəqsləri və balet | 1.1.1.; 1.2.2.; 3.1.1. | Əd. 1.2.4. H.b. 3.2.1. T.i. 3.1.1. | "Ay bəri bax" Azərbaycan xalq mahnısı | 1. "Tərəkəmə" Azərbaycan xalq rəqsindən bir parça<br>2. Ə.Bədəlbəyli. "Qız qalası" baleti. "Şalaxo" rəqsindən bir parça | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Azərbaycan xalq musiqisi və operetta | 1.1.1.; 2.1.1.; 3.2.1. | Əd. 1.2.2. | "Uşaqlar sevinsin həmişə" – O.Rəcəbov, M.İsmayılov | 1. Ü.Hacıbəyli. "O olmasın, bu olsun". "Məşədi İbad və Gülnazla Sənəmin triosu"<br>2. Ü.Hacıbəyli. "O olmasın, bu olsun". Məşədi İbadla Rüstəm bəyin dueti | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | 28 May – Respublika Günü və musiqi | 1.1.1.; 2.1.1.; 3.2.2. | Əd. 1.2.4. | "Azərbaycan" – E.Sabitoğlu, S.Əhmədova | 1. "Şənlən, mənim xalqım" – O.Zülfüqarov<br>2. Ü.Hacıbəyli. "Milli marş" mahnısından bir parça | Dərslik, iş vərəqi, kompüter |
| 1 | | Mahnı repertuarı | | | | | |
| 1 | | **KSQ** | | | | | |

**P.S.** İllik planlaşdırma cədvəlindəki musiqi materiallarını müəllim mövzuya uyğun olaraq dəyişə bilər. Bu zaman seçilmiş yeni musiqi nümunələri 6-cı sinif şagirdlərinin yaş xüsusiyyətlərinə uyğun olmalıdır.

## Musiqi fənnindən diaqnostik qiymətləndirmə (nümunə)

Fənn – Musiqi

Sinif – 6
Şagirdin adı və soyadı ____________________
Tarix ____________________

**1. Bu mahnılardan hansı Xan Şuşinskiyə aiddir?**

a) Vətən oğlu b) Şuşanın dağları c) Qarabağ

**2. Vokaliz nədir?**

a) səslə və sözsüz ifa olunan melodiya b) musiqi alətlərinin ifası üçün yazılmış musiqi əsəri
c) fransız xalq rəqsi

**3. Dünyada ilk dəfə sözsüz mahnı janrını kim yaratmışdır?**

a) Süleyman Ələsgərov b) Mixail Qlinka c) Feliks Mendelson

**4. Kantata nədir?**

a) komik məzmunlu musiqili səhnə əsəri b) çoxhissəli, vokal-simfonik əsər
c) simfonik orkestrin ifası üçün yazılmış əsər

**5. Operada əsərin məzmunu necə izah olunur?**

a) xoreoqrafik hərəkətlərlə b) danışıq epizodları ilə c) vokal musiqinin köməkliyi ilə

**6. Libretto nədir?**

a) musiqi-vokal əsərinin yazılı mətni b) səslə və sözlə ifa olunan əsər c) mətni olmayan mahnı

**7. Azərbaycanda opera janrının banisi kimdir?**

a) Qara Qarayev b) Üzeyir Hacıbəyli c) Müslüm Maqomayev

**8. Azərbaycanda yaranmış ilk balet hansıdır?**

a) "Qız qalası" b) "Leyli və Məcnun" c) "Məhəbbət əfsanəsi"

**9. Balet janrı ilk dəfə harada yaranmışdır?**

a) Fransa b) İtaliya c) Rusiya

**10. Üzeyir Hacıbəylinin ən məşhur operettası hansıdır?**

a) "O olmasın, bu olsun" b) "Arşın mal alan" c) "Ulduz"

**11. "Nəğmələr" mahnısının bəstəkarı kimdir?**

a) Ramiz Mirişli b) Ramiz Quliyev c) Oqtay Rəcəbov

**12. Ardıcıllığı davam etdirin. Rast, Şur, Segah, Çahargah...**

a) Bayatı-Şiraz, Hümayun, Şüştər b) Şüştər, Mani, Heyratı c) Bayatı-Şiraz, Hümayun, Heyratı

**13. "Arazbarı" instrumental əsərinin müəllifi kimdir?**

a) Firəngiz Əlizadə b) Seyid Şuşinski c) Üzeyir Hacıbəyli

**14. "Sənsiz" və "Sevgili canan" əsərləri ilə Ü.Hacıbəyli hansı janrın əsasını qoydu?**

a) romans-qəzəl b) opera c) operetta

## Musiqi fənnindən KSQ – 1 (nümunə)

Fənn – Musiqi

Sinif – 6
Şagirdin adı və soyadı ______________________
Tarix ______________________

**1. Fikrət Əmirov "Sevil" operasında "Sevilin ariyası"nda hansı xalq mahnısının intonasiyasından istifadə etmişdir?**

a) Sarı gəlin b) Onu demə, zalım yar c) Tərəkəmə

**2. Aşağıdakılarla təzad təşkil edənləri qeyd edin.**

Alleqro (tez) ___________________ Forte (ucadan) __________________

**3. "Heyratı" zərbi-muğamı necə xarakterlidir?**

a) sakit, həzin b) təntənəli, mübariz c) şən, oynaq

**4. Bu bəstəkarlardan hansı "Bayatı-Şiraz" muğamının intonasiyalarından istifadə etmişdir?**

a) Mixail Qlinka b) İohann Sebastyan Bax c) Bela Bartok

**5. Ü.Hacıbəyli "Leyli və Məcnun" operasında "Nofəlin ariyası"nda hansı zərbi-muğamdan istifadə etmişdir?**

a) Heyratı b) Şur c) Mani

**6. "İstiqlal bayramı" mahnısı hansı muğamın intonasiyalarına əsaslanır?**

a) Rast b) Bayatı-Şiraz c) Şur

**7. H.Hacıbəyli "Leyli və Məcnun" operasında hansı zərbi-muğamdan istifadə edib?**

a) Heyratı b) Bayatı-Şiraz c) Şüştər

**8. "Təmiz səma altında" mahnısı hansı mövzuda yazılıb?**

a) qəhrəmanlıq b) əmək c) vətənpərvərlik

**9. F.Şopenin "Mi minor valsı" ilə Q.Qarayevin "Fikirli" əsərini birləşdirən nədir?**

______________________________________________________________________________

**10. Musiqi insanın əhvali-ruhiyyəsinə necə təsir edir?**

______________________________________________________________________________

## Musiqi fənnindən KSQ – 2 (nümunə)

Fənn – Musiqi

Sinif – 6
Şagirdin adı və soyadı ______________________
Tarix ______________________

**1. "Zəfər himni"nin bəstəkarı kimdir?**

a) C.Cahangirov b) O.Rəcəbov c) S.Ələsgərov

**2. Polifoniya nədir?**

a) çoxsəslilik b) təksəslilik c) musiqili səhnə əsəri

**3. “Xosrov və Şirin” operası, “Çitra” baleti, “Rast” simfonik muğamı – bu əsərlər kimə məxsusdur?**

a) Soltan Hacıbəyov b) Niyazi c) Vasif Adıgözəlov

**4. Simfonik muğam janrının yaradıcısı kimdir?**

a) Fikrət Əmirov b) Üzeyir Hacıbəyli c) Qara Qarayev

**5. Qara Qarayevin “İldırımlı yollarla” baleti hansı yazıçının əsəri əsasında yazılmışdır?**

a) A.Ostrovski b) M.S.Ordubadi c) P.Abrahams

**6. A.Puşkinin “Oxuma, gözəl” şeirinə hansı bəstəkarlar romans yazmışlar?**

a) A.Rzayeva, M.Qlinka b) S.Raxmaninov, A.Rzayeva c) Ş.Axundova, Niyazi

**7. Ü.Hacıbəylinin “Yaxşı yol” mahnısı kimlərə həsr olunub?**

______________________________________________

**8. 44 günlük Vətən müharibəsinə həsr olunmuş hansı musiqi əsərlərini tanıyırsınız?**

______________________________________________

**9. İfa etdiyimiz mahnılar polifonik, yoxsa homofonik əsərlərdir?**

______________________________________________

**10. Vətənpərvərlik ruhunda yazılmış hansı Azərbaycan xalq mahnılarını tanıyırsınız?**

______________________________________________

## Musiqi fənnindən KSQ – 3 (nümunə)

Fənn – Musiqi

Sinif – 6
Şagirdin adı və soyadı ____________________
Tarix ____________________

**1. “Çingiz” simfoniya-rekviyeminin bəstəkarı kimdir?**

a) Oqtay Rəcəbov b) Oqtay Zülfüqarov c) Fikrət Əmirov

**2. “Çingiz” simfonik-rekviyemi neçə hissədən ibarətdir?**

a) 7 hissədən b) 8 hissədən c) 10 hissədən

**3. “Ağlama, xalqım, ağlama” mahnısı “Çingiz” simfonik-rekviyeminin neçənci hissəsidir?**

a) 6-cı hissə b) 1-ci hissə c) 4-cü hissə

**4. “Segah” muğamı insanda hansı hissləri oyadır?**

a) qəhrəmanlıq, mübarizlik b) həyəcan c) sevgi, məhəbbət

**5. “Segah” muğamının ilk şöbəsi necə adlanır?**

a) Bərdaşt b) Zil segah c) Segaha ayaq

**6. Dünya Azərbaycanlılarının Həmrəylik Günü nə vaxt qeyd olunur?**

a) 9 noyabr b) 18 oktyabr c) 31 dekabr

**7. “Sarı bülbül” mahnısının bəstəkarı kimdir?**

a) Ü.Hacıbəyli b) Azərbaycan xalq mahnısı c) M.Maqomayev

**8. Oqtay Rəcəbov “Səni adım qorusun” mahnısını hansı bədii film üçün yazmışdır?**

a) “Dolu” b) “Fəryad” c) “Ağ atlı oğlan”

**9. “Segah” sözünün mənasını izah edin.**

______________________________________________________________________

**10. Hansı milli qəhrəmanlarımızı tanıyırsınız?**

______________________________________________________________________

## Musiqi fənnindən KSQ – 4 (nümunə)

Fənn – Musiqi

Sinif – 6
Şagirdin adı və soyadı ____________________
Tarix ____________________

**1. İ.S.Baxın “Yumoreska” əsəri hansı kollektiv ifa üçün yazılmışdır?**

a) simli orkestr və fleyta b) simfonik orkestr c) simli orkestr

**2. A.Dadaşovun “20 Yanvar” simfoniyasının səslənməsində hansı kollektivlər iştirak edir?**

a) solistlər, xor və simfonik orkestr b) vokalist və simfonik orkestr c) xor kollektivi

**3. F.Şubertin “Serenada” əsəri necə xarakterlidir?**

a) lirik, həzin b) şən, oyaq c) təntənəli

**4. T.Quliyevin “Axşam mahnısı” hansı bədii film üçün yazılmışdır?**

a) “Böyük dayaq” b) “Qayınana” c) “Görüş”

**5. “Qar qız” operasının bəstəkarı kimdir?**

a) M.Qlinka b) N.Rimski-Korsakov c) R.Qliyer

**6. Rus milli opera sənətinin yaradıcısı hansı bəstəkardır?**

a) N.A.Rimski-Korsakov b) P.İ.Çaykovski c) M.Qlinka

**7. A kapella nədir?**
a) xor və kollektivin müşayiətsiz oxuması b) orqan musiqi aləti üçün yazılmış əsər
c) instrumental musiqi

**8. N.Əliverdibəyov hansı muğamı həm A kapella, həm də orqan musiqi aləti üçün işləmişdir?**

a) Segah b) Çahargah c) Bayatı-Şiraz

**9. “Kürd-Ovşarı” və “Şur” simfonik muğamlarının bəstəkarı kimdir?**

a) Niyazi b) F.Əmirov c) S.Ələsgərov

**10. “Şənlik” mahnısında hansı muğamın intonasiyalarından istifadə edilib?**

a) Şüştər b) Bayatı-Şiraz c) Hümayun

**11. İlk muğam-opera kim tərəfindən yazılmışdır?**

a) R.Mirişli b) M.Maqomayev c) Ü.Hacıbəyli

# 1. MUSİQİDƏ TƏZADLILIQ

**MƏQSƏD: 1. Azərbaycanın musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların geniş yayılmış əsərləri haqqında bilik və bacarıqlar nümayiş etdirir; 2. Musiqi əsərlərində emosional əhvali-ruhiyyənin yaranmasında melodiya, ritm və tempin rolunu izah edir.**

**Bu mövzunun mənimsənilməsində Venn diaqramı, beyin həmləsi, müzakirə, müqayisə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**



## 1. MUSİQİDƏ TƏZADLILIQ

Musiqidə təzadlılıq ifadə vasitələri, templər, dinamik nüanslarda özünü göstərir.

Musiqi əsərlərində cəld və ağır templər var. Cəld və ağır tempin sxemini belə göstərmək olar:

*Alleqro (cəld)* ← *Temp* → *Adajio (ağır)*

Cəld və ağır templər bir-biri ilə təzadlıdır.

Musiqi ifadə vasitəsi olan dinamik nüanslar arasında da təzadlılıq mövcuddur. Məsələn, güclü səslənmə işarəsi olan ***forte (f)*** və zəif səslənmə işarəsi olan ***piano (p)*** arasında təzadlılıq var.

*Forte (f)* ← *Dinamik nüanslar* → *Piano (p)*

*Musiqi dinləyək*

**Fikrət Əmirov.
"Sevil" operasından "Sevilin ariyası"**

*Fikrət Əmirov* *"Sevil" operasından*

Fikrət Əmirovun "Sevil" operasında "Sevilin ariyası"nda "Onu demə, zalım yar" Azərbaycan xalq mahnısının intonasiyaları duyulur. "Sevil" operasında Sevil rolunun ən yaxşı ifaçısı Xalq artisti Firəngiz Əhmədova olub.

*Musiqi dinləyək*

**Qara Qarayev. "Yeddi gözəl" baletindən "Vals"**

*Qara Qarayev* *"Yeddi gözəl" baletindən*

Valsın xanə ölçüsü, əsasən, 3/4 olur.

6

**1**

Q.Qarayevin "Yeddi gözəl" baletindən "Vals" və F.Əmirovun "Sevil" operasından kədərli, dramatik xarakterli "Sevilin ariyası" səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***"Dinlənilən bu iki əsərin oxşar və fərqli cəhətləri haqqında nə deyə bilərsiniz?"*** – verilə bilər.

Tədqiqatın aparılması üçün sinif 3 qrupa bölünür. Lövhədə Venn diaqramı çəkilən qrafik vəsait asılır və qruplara bu vəsaitin variantları paylanır. I qrupda olan şagirdlər hər iki əsərin oxşar cəhətləri, II qrup "Sevilin ariyası"nın xüsusiyyətləri, III qrup isə Q.Qarayevin "Vals"ının xüsusiyyətləri haqqındakı biliklərini Venn diaqramında yazır. Şagirdlərə məlum olur ki, hər iki əsər vals janrında yazılmış və səhnə üçün yaradılmışdır. Eyni zamanda hər iki əsərin fərqli cəhətləri, yəni templərinin təzadlı olduğu, birinin simfonik orkestr, digərinin vokal səs və simfonik orkestr üçün istifadə olunduğu, xaraktercə birinin qəmli, digərinin şən olduğu, birində xalq musiqisinin intonasiyalarından istifadə edildiyi, digərinin isə orijinal musiqi olduğu aydınlaşdırılır.

## DİFERENSİAL TƏLİM

Mövzuya uyğun televiziya və radioda eşitdiyi eyni janrlı, lakin vals xarakterli musiqi nümunələrini yada salır.

1. Musiqinin ritmini əl ilə tutur;
2. Musiqinin xarakterinə uyğun şəkil çəkir.

Musiqidə təzadlılıq, cəld və ağır templər, alleqro və adajio, forte və piano arasında fərq mövzusunda informasiya mübadiləsi aparılır.



**İki musiqi əsərinin oxşar və fərqli cəhətləri:**



*Mahnını yada salaq və oxuyaq*

**AZƏRBAYCAN**

*Musiqisi Aygün Səmədzadənin,*
*sözləri Kəmalə Abıyevanındır.*

**I**

Azərbaycan, gözlərimin qarası,
Azərbaycan, həyatımın mənası.
Nə deyim ki, layiq olsun vəsfinə?
Ey Vətənim, anaların anası!
Azərbaycan, anaların anası!

Bir ağacsan, mən də sənə budağam,
Bir budaqsan, sənə yarpağam.
Bir nəğməsən, mən də hər an, hər zaman
O nəğməyə möhtac dodağam.

***Nəqərat:***
Torpağını geyinərəm əynimə,
Kür, Arazı axıdaram könlümə.
Xəzərimi məlhəm edib gələrəm, gələrəm,
Ey vətənim, dəyən olsa könlünə.

**II**

Məğrur səsin azadlığın sədası,
Şəhidlərin, ölməzliyin nidası.
Azərbaycan qalibiyyət dünyası,
İgidliyin sarsılmayan qalası!
Azərbaycan, anaların anası!

***Nəqərat:***

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. "Sevil" operasında "Sevilin ariyası"nda hansı Azərbaycan xalq mahnısının intonasiyaları duyulur?***
***2. Qara Qarayevin dinlədiyiniz "Vals"ı hansı balet üçün yazılıb?***
***3. Aygün Səmədzadənin Kəmalə Abıyevanın sözlərinə bəstələdiyi "Azərbaycan" mahnısında şair Azərbaycanı hansı sözlərlə təsvir edib? Yurda sevgisini necə bildirib? Siz hansı sözləri əlavə edərdiniz? Bu haqda danışın.***

7

Belə nəticəyə gəlinir ki, eyni bir musiqi janrında müxtəlif xarakterli əsərlər yaratmaq mümkündür.

## YARADICI TƏTBİQETMƏ

**3**

Aygün Səmədzadənin Kəmalə Abıyevanın sözlərinə bəstələdiyi "Azərbaycan" mahnısı öyrədilir. Mahnının xarakteri müəyyən edilir, musiqi ilə məzmun arasındakı qarşılıqlı əlaqə öyrənilir.

***Tapşırıq 1.*** "Azərbaycan" mahnısının mətni ilə musiqisinin xarakterləri arasında uyğunluğu təyin edin və notlardan istifadə etməklə oxuyun.

***Tapşırıq 2.*** "Azərbaycan" mahnısının məzmununa uyğun şəkil çəkin.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) "Sevilin ariyası"nın xanə ölçüsü neçədir?***

a. 2/4 ☐ b. 3/8 ☐ c. 3/4 ☐

***2) "Yeddi gözəl" baletinin bəstəkarı kimdir?***

a. F.Əmirov ☐ b. A.Məlikov ☐ c. Q.Qarayev ☐

# 2. MUSİQİDƏ EMOSİONALLIQ

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların geniş yayılmış əsərləri haqqında bilik və bacarıqlar nümayiş etdirir; 2. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şərh edir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

P.İ.Çaykovskinin “6-cı simfoniya”sının I hissəsindən köməkçi mövzu səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***“Nəyə görə yuxarıda adları çəkilən məşhur rus və Azərbaycan cərrahları əməliyyat aparmamışdan öncə musiqiyə qulaq asırdılar?”*** – verilə bilər.

Bu əsəri çox sevən məşhur rus cərrahı S.Yudin haqqında məlumat verilir. Bundan sonra məşhur Azərbaycan cərrahı M.Topçubaşovun cərrahiyyə əməliyyatı aparmamışdan əvvəl “Heyratı” Azərbaycan zərbi-muğamını, yaxud F.Əmirovun “Şur”, “Kürd-Ovşarı” simfonik muğamlarından bir parça dinlədiyi haqqında məlumat verilir.

Bundan sonra “Heyratı” zərbi-muğamından bir parça notla ifa olunur və dirijorluq edilir.

Müzakirə aparılır. Qoyulmuş suallara uşaqlar belə cavablar verirlər:

a) Musiqi insanları sakitləşdirir;

b) Musiqi insanda mübarizə hissləri yaradır.

Bundan sonra sinif 3 qrupa bölünür:

I qrup – “Heyratı” zərbi-muğamını notla oxuyur;

**2. MUSİQİDƏ EMOSİONALLIQ**



*Mustafa Topçubaşov*

Müxtəlif xarakterli musiqi əsərləri insanda müxtəlif əhvali-ruhiyyə yaradır. Əsər şən, rəqs xarakterlidirsə, onu dinləyəndə insanda şən, qəmlidirsə – qəmli, mübariz ruhludursa – mübariz emosional əhvali-ruhiyyə yaranır. Musiqi insanda yaşamaq, qurub-yaratmaq, sevmək hissləri oyadır. Bəzən insanlar müəyyən bir işi görməmişdən əvvəl çox sevdiyi musiqiyə qulaq asırlar.

Azərbaycanın məşhur cərrahı, professor Mustafa Topçubaşov cərrahiyyə əməliyyatından əvvəl Fikrət Əmirovun “Şur”, “Kürd-Ovşarı” simfonik muğamlarından və “Heyratı” Azərbaycan zərbi-muğamından parçaları dinləyirdi. Professorun ən çox xoşladığı əsərlərdən biri Üzeyir Hacıbəylinin “Koroğlu” operası idi.

*Notla oxuyaq*

**“Heyratı” zərbi-muğamından bir parça**

**Marş tempində**



XX əsrin məşhur rus cərrahı Sergey Yudin ən ağır cərrahiyyə əməliyyatından əvvəl dahi rus bəstəkarı Pyotr Çaykovskinin “6-cı simfoniya”sını dinləyirmiş.

*Musiqi dinləyək*



*Pyotr Çaykovski*

**P.Çaykovskinin “6-cı simfoniya”sının I hissəsindən köməkçi mövzu**

Pyotr Çaykovskinin “6-cı simfoniya”sının I hissəsindən köməkçi mövzu lirik, həzin xarakterli və insanı düşündürən bir musiqi parçasıdır. Xanə ölçüsü 4/4, yəni dörd çərəkdir.

8

II qrup – muğamın ritmini əl çalmaqla tutur;

III qrup – dirijorluq edir.

## DİFERENSİAL TƏLİM

“Heyratı” zərbi-muğamını notla və notsuz ifa edir.

↓

1. “Heyratı”nın məzmununa uyğun şəkil çəkir;
2. Bədən və əl hərəkəti ilə obraz yaradır.

Musiqi əsərlərinin xarakteri, onların insanda yaratdığı əhvali-ruhiyyə mövzusunda informasiya mübadiləsi aparılır.



**Bunu da bilin**

***"Heyratı" zərbi-muğamı təntənəli və mübariz xarakterli birhissəli əsərdir. Bu zərbi-muğam insanda xoş və mübariz əhvali-ruhiyyə yaradır.***

***"Heyratı"nın marş xarakterli olması imkan verir ki, ondan bayram günlərində keçirilən hərbi baxışlarda istifadə olunsun. Bu zərbi-muğamın xanə ölçüsü 2/4-dir və "Rast" ladında səslənir.***

*Yeni mahnı öyrənək*

**İSTİQLAL BAYRAMI**

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Valeh Mirzənindir.*



| II | *Nəqərat:* | III |
|---|---|---|
| Bizi sevməyənləri | Düz niyyətlisən | Böyük tarixi olan |
| Yandırdıq odumuzla. | Bu dünyada sən, | Bir millətin oğluyuq! |
| Adınla bir səslənən | Ey mənim ana | İstiqlalı yaradan |
| Müqəddəs adımızla. | Vətənim! | Xalqın mətin oğluyuq! |

"İstiqlal bayramı" mahnısı "Rast" muğamına əsaslanır, xanə ölçüsü 2/4-dir, marş tempində səslənir, xaraktercə "Heyratı" zərbi-muğamına yaxındır.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. P.Çaykovskinin "6-cı simfoniya"sının köməkçi mövzusunun xarakteri necədir?***
***2. "Heyratı" necə xarakterə malik bir zərbi-muğamdır?***
***3. Kədərli olduğunuz anlarda hansı musiqi nümunəsini dinləyirsiniz və bu sizin əhvalınıza necə təsir edir? Bu haqda danışın.***

9

## YARADICI TƏTBİQETMƏ

**3** Əməkdar incəsənət xadimi, bəstəkar Rəşid Şəfəqin şair Valeh Mirzənin sözlərinə bəstələdiyi "İstiqlal bayramı" mahnısının bəndi birsəsli, nəqəratı isə ikisəsli şəklində öyrədilir.

***Tapşırıq 1.*** Mahnının melodiyası və mətninin xarakteri və onlar arasında uyğunluğun olması haqqında fikir söyləyin.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) "İstiqlal bayramı" mahnısı hansı muğama əsaslanır?***

*a. Rast* ☐ *b. Segah* ☐ *c. Şur* ☐

***2) S.Yudinin sevdiyi "6-cı simfoniya"nın müəllifi kimdir?***

*a. S.Raxmaninov* ☐ *b. P.Çaykovski* ☐ *c. J.Bize* ☐

# 3. MUSİQİDƏ MİLLİLİK VƏ ÜMUMBƏŞƏRİLİK

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Musiqi əsərlərindəki hissi-emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şərh edir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə, müzakirə üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

1. Polyak bəstəkarı F.Şopenin "Mi minor valsı" və Q.Qarayevin "Fikirli" fortepiano pyesi fortepianoda səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz bu iki fortepiano pyesində oxşar cəhətlər nədən ibarətdir?"*** – verilə bilər.

Tədqiqatın aparılması üçün müqayisə üsulundan istifadə etməklə hər iki musiqi nümunəsinin fortepiano aləti üçün yazıldığı və vals tempində səsləndiyi müəyyənləşdirilir. Müəllim qeyd edir ki, hər iki əsəri dünyanın məşhur pianoçuları ifa edirlər. Hər iki əsər milli əhvali-ruhiyyədə olması ilə bərabər, həm də dünya xalqları tərəfindən qəbul edilir.

**3**

"Heyratı" zərbi-muğamından bir parça mi major tonallığında notla ifa olunur, həm də şagirdlərin diqqətinə çatdırılır ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bu musiqi nümunəsini, eyni zamanda "Azadlıq marşı" adlandırmağa başladılar.

### 3. MUSİQİDƏ MİLLİLİK VƏ ÜMUMBƏŞƏRİLİK

Qara Qarayev (1918–1982) Azərbaycan Dövlət Konservatoriyasını bitirəndən sonra təhsilini Moskva Dövlət Konservatoriyasında, dünyaşöhrətli bəstəkar Dmitri Şostakoviçin sinfində davam etdirmişdir. Qara Qarayev opera, operetta, balet, simfoniya janrlarında möhtəşəm musiqi əsərləri yaratmışdır. Bəstəkar skripka və fortepiano üçün bir çox əsərlərin və romansların müəllifidir. O, "Dənizi fəth edənlər", "Onun böyük ürəyi", "İnsan məskən salır" "Don Kixot", "Xəzər neftçiləri haqqında dastan", "Uzaq sahillərdə" və s. filmlərə musiqi bəstələmişdir.



*Frederik Şopen*

Polyak bəstəkarı Frederik Şopen (1810–1849) Varşava Ali Musiqi Məktəbini bitirmişdir. Bəstəkar, əsasən, fortepiano aləti üçün müxtəlif janrlı əsərlər: etüdlər, mazurkalar, polonezlər, valslar, konsertlər, prelüdlər, sonatalar və s. yaratmışdır. Varşavada anadan olan F.Şopen Parisdə vəfat etmişdir. Vətənini çox sevən bəstəkarın vəsiyyətinə görə ölümündən sonra onun ürəyi Varşavaya gətirilmişdir.

*Musiqi dinləyək*

**F.Şopen."Mi minor valsı", Q.Qarayev. "Fikirli" fortepiano pyesi**



*Səttar Bəhlulzadə. "Torpağın arzusu"*

Səttar Bəhlulzadənin "Torpağın arzusu" əsərində olduğu kimi, F.Şopenin də "Mi minor valsı"nda təbiətin gözəllikləri əks etdirilir. Səttar Bəhlulzadə bu gözəllikləri rənglərin, F.Şopen isə notların dili ilə təsvir edir.

***Bunu da bilin***

***Q.Qarayevin "Fikirli" fortepiano pyesi də F.Şopenin "Mi minor valsı" kimi vals tempindədir. Əsərin melodiyası lirik, axıcı və mahnı xarakterlidir, elə bu səbəbdən insanda gözəl hisslər yaradır. Həm F.Şopenin "Mi minor valsı"nda, həm də Q.Qarayevin "Fikirli" fortepiano pyesində xalq musiqisinin koloritlərindən istifadə olunub. Hər iki əsər vals janrındadır. Bu iki əsərin hər biri milli olmaqla bərabər, həm də ümumbəşəridir.***

**10**

## DİFERENSİAL TƏLİM

"Heyratı" zərbi-muğamını notla oxuyur, F.Şopenin və Q.Qarayevin fortepiano üçün yazdıqları əsərlərlə əlaqədar fikir söyləyir.

1. Melodiyanın ritminə uyğun əl çalır;
2. Ayaq tappıltısı ilə ritm tutur.

F.Şopenin və Q.Qarayevin dinlənilmiş fortepiano musiqisi ətrafında informasiya mübadiləsi və müzakirələr aparılır.



*Notla oxuyaq*

**“Heyratı” zərbi-muğamından bir parça**

*Marş tempində*

*Yeni mahnı öyrənək*

**AZƏRBAYCAN ƏSGƏRİ**

*Musiqisi Oqtay Zülfüqarovun, sözləri Pənah Əliyevindir.*

**I**

Sabahların zəfəri,
Azərbaycan əsgəri.
Qov Vətəndən düşməni,
Azərbaycan əsgəri.

***Nəqərat:***
Qəm libası geyməsin
Bizim çiçəkli dağlar.
Güllə səsi, top səsi
Eşitməsin uşaqlar.

**II**

Mərd ordumuz yaşasın,
Bu torpaqdan güc alsın.
Üçrəngli bayrağımız
Yüksəklərə ucalsın.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. “Q.Qarayev və kino musiqisi” dedikdə ən çox hansı film haqqında düşünürsünüz?***
***2. Q.Qarayevin “Fikirli” fortepiano pyesinin F.Şopenin “Mi minor valsı” ilə oxşar cəhətləri hansılardır?***
***3. S.Bəhlulzadənin “Torpağın arzusu” əsəri ilə F.Şopenin “Mi minor valsı”nı nə birləşdirir? İncəsənətdə və musiqidə milli çalarların istifadəsi özünü necə göstərir? Bu haqda danışın.***

11

Nəticə olaraq belə bir ümumi fikrə gəlinir ki, hər iki bəstəkar öz xalq musiqisindən bəhrələnmişdir. Buna baxmayaraq, əsərlərin hər biri milli olmaqla bərabər, dünya musiqiçilərinin repertuarlarında özlərinə uzun müddət yer tapdıqları üçün həm də bəşəridir.

## YARADICI TƏTBİQETMƏ

**4**

Bəstəkar Oqtay Zülfüqarovun şair Pənah Əliyevin sözlərinə bəstələdiyi marş tempində olan “Azərbaycan əsgəri” mahnısı öyrədilir.

***Tapşırıq 1.*** “Azərbaycan əsgəri” mahnısının ritmini əl çalmaqla tutmaqla, melodiyasını notla oxuyun.

***Tapşırıq 2.*** Mahnının mətninin məzmununa uyğun şəkillər çəkin.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***

1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Heyratı” zərbi-muğamı hansı tempdədir?***

*a. Vals* ☐ *b. Marş* ☐

***2) F.Şopen hansı ölkənin bəstəkarıdır?***

*a. Fransa* ☐ *b. Almaniya* ☐ *c. Polşa* ☐

# 4. BƏSTƏKARLARIN YARADICILIĞINDA MİLLİ XÜSUSİYYƏTLƏR

**MƏQSƏD: 1. Muğam və aşıq musiqisini fərqləndirir; 2. Dinlədiyi xalq mahnıları haqqında təəssüratlarını ifadə edir; 3. Mahnını qrup və xor kollektivi tərkibində notla oxuyur.**

**Bu mövzu ilə əlaqədar beyin həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operasından “Nofəlin ariyası” səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***“Ü.Hacıbəyli özünün “Leyli və Məcnun” operasında hansı zərbi-muğamdan istifadə etmişdir?” və yaxud “Nəyə görə “Leyli və Məcnun” operası muğam operası adlanır?”*** – verilə bilər.

Sinif qruplara bölünür: I qrup “Heyratı” zərbi-muğamı ilə “Nofəlin ariyası”nın oxşar cəhətlərini, II qrup isə fərqli cəhətlərini Venn diaqramı vasitəsilə aydınlaşdırır. Şagirdlər oxşar cəhətin “Heyratı” zərbi-muğamının melodiyasından istifadə, fərqli cəhətin isə bu əsərlərin ifa tərzlərinin müxtəlif olması olduğunu müəyyənləşdirirlər.

**3**

Müəllim Ü.Hacıbəylinin və digər xalqlara məxsus bəstəkarların yaradıcılığında xalq musiqisindən istifadə ilə əlaqədar məlumat verir. M.İ.Qlinkanın, P.Çaykovskinin yaradıcılığında uyğun olaraq “Qalanın dibində bir quş olaydım” Azərbaycan xalq mahnısından istifadə haqqında fikir mübadiləsi aparılır. Eyni zamanda dahi macar bəstəkarı B.Bartokun “3-cü kvartet”ində və alman bəstəkarı İ.S.Baxın “Re minor Tokkata və Fuqa” əsərlərində Şərq musiqisi intonasiyalarının duyulması barədə məlumat verilir.

**4. BƏSTƏKARLARIN YARADICILIĞINDA MİLLİ XÜSUSİYYƏTLƏR**



*Üzeyir Hacıbəyli*

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli bir sıra musiqili səhnə əsərlərində Azərbaycan xalq musiqi nümunələrindən yararlanmışdır. Bəstəkar “Leyli və Məcnun” muğam-operasında sərkərdə “Nofəlin ariyası” üçün “Heyratı” Azərbaycan zərbi-muğamından istifadə etmişdir.

Dünya musiqisi tarixində də bəstəkarlar zaman-zaman həm öz xalqının, həm də digər xalqların musiqisinə müraciət etmişlər. Məsələn, dahi rus bəstəkarı Mixail Qlinkanın “Ruslan və Lyudmila” operasında “Qalanın dibində” Azərbaycan xalq mahnısının, macar bəstəkarı Bela Bartokun “3-cü kvartet”ində “Tərəkəmə” Azərbaycan xalq rəqsinin, dahi alman bəstəkarı İohann Sebastyan Baxın “Orqan üçün re minor Tokkata və Fuqa” əsərində “Bayatı-Şiraz” klassik Azərbaycan muğamının intonasiyaları duyulur.





*“Leyli və Məcnun” operasından*

*Musiqi dinləyək*

**Ü.Hacıbəyli. “Leyli və Məcnun” operasından “Nofəlin ariyası”**

12

## DİFERENSİAL TƏLİM

“Nofəlin ariyası”nı və “Heyratı” zərbi-muğamının melodiyasını notla oxuyur.

1. Venn diaqramında bu iki musiqi əsərinin oxşar və fərqli cəhətləri haqqında fikir söyləyir;
2. “Heyratı” zərbi-muğamına ritm tutur. Bu musiqiyə uyğun addımlayır.

Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operasından dinlənilmiş “Nofəlin ariyası” və digər xalqlara məxsus xalq mahnıları ətrafında fikir mübadiləsi və müzakirəsi aparılır.

**Bunu da bilin**

***Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” muğam-operası 1908-ci il yanvarın 25-də Bakı şəhərində, indiki Azərbaycan Dövlət Musiqili Teatrının binasında tamaşaya qoyulmuşdur. O bu əsərlə bütün Şərq aləmində opera janrının əsasını qoymuşdur.***

“Heyratı” zərbi-muğamının “Nofəlin ariyası” ilə oxşar və fərqli cəhətlərini müqayisə edək.




*Yeni mahnı öyrənək*

**SARI GƏLİN**
***(Azərbaycan xalq mahnısı)***

**I**
Saçın ucun hörməzlər,
Gülü sulu dərməzlər,
Bu sevda nə sevdadı?
Səni mənə verməzlər,
Neynim, aman, aman, sarı gəlin.

**II**
Bu dərənin uzunu,
Çoban, qaytar quzunu, quzunu,
Nə ola, bir gün görəm
Nazlı yarın üzünü,
Neynim, aman, aman, sarı gəlin.

**III**
Aşıq ellər ayrısı,
Şana tellər ayrısı.
Bir gününə dözməzdim,
Oldum illər ayrısı.
Neynim, aman, aman, sarı gəlin.

Bəstəkar Oqtay Rəcəbov “Soprano və Kamera orkestri üçün Konsert”ində “Sarı gəlin” Azərbaycan xalq mahnısından istifadə edib.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Hansı dünya bəstəkarlarının yaradıcılığında Azərbaycan xalq musiqisindən istifadə edilib?***
***2. Ü.Hacıbəyli “Leyli və Məcnun” operasında hansı zərbi-muğamdan istifadə edib?***
***3. YouTube üzərindən Akif İslamzadənin ifasında “Sarı gəlin” mahnısını dinləyin və mahnıdakı milli çalarlar haqqında danışın. Axtarış üçün açar sözlər: Akif İslamzadə, “Sarı gəlin”.***

13

Belə nəticəyə gəlinir ki, Azərbaycan və digər xalqların professional musiqisində xalq musiqi nümunələrindən yeri gəldikcə istifadə olunur.

## YARADICI TƏTBİQETMƏ

**4**

Şagirdlərə “Sarı gəlin” xalq mahnısı öyrədilir. Mahnının sözlərinin daşıdığı məna araşdırılır.

***Tapşırıq 1.*** “Sarı gəlin” mahnısını notları ilə oxuyun.
***Tapşırıq 2.*** Mahnının məzmununu şərh edin.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Leyli və Məcnun” operasında hansı zərbi-muğamdan istifadə olunub?***

a. “Qarabağ şikəstəsi” ☐ b. “Simayi-Şəms” ☐ c. “Heyratı” ☐

***2) “Qalanın dibində bir quş olaydım” Azərbaycan xalq mahnısından hansı rus bəstəkarı öz əsərində istifadə etmişdir?***

a. S.Raxmaninov ☐ b. P.Çaykovski ☐ c. M.Qlinka ☐

# 5. MUSİQİDƏ MÜHARİBƏ MÖVZUSU

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Eyni xarakterli muğamları fərqləndirir.**

**Mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

Bəstəkar Oqtay Rəcəbovun "Zəfər himni" kantatasının III hissəsi səsləndirilir.

**2**

Tədqiqat sualı kimi "***Dinlədiyiniz bu musiqi epizodunda sizi daha çox cəlb edən hansı musiqi ifadə vasitəsi oldu?"*** – verilə bilər.

Azərbaycan professional və xalq musiqisində müharibə mövzusundan danışılır.

Şagirdlərə Oqtay Rəcəbovun "Zəfər himni" kantatası haqqında məlumat verilir. Aydınlaşdırılır ki, bu kantata 44 günlük müharibədə zəfər qazanmış Azərbaycan ordusunun sərkərdəsi, Ali Baş Komandan İlham Əliyevə həsr edilib.

Sonra dinlənilən əsər müzakirə olunur:

– Uşaqlar, hansı əsas musiqi ifadə vasitələrini tanıyırsınız? (melodiya, temp, ritm və s.)

– Ritm bu əsərdə özünü necə göstərir?

– Bu musiqi parçasında melodiya özünü necə göstərir?

5. MUSİQİDƏ MÜHARİBƏ MÖVZUSU



Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir texnika ilə təchiz edilmiş ordusu II Qarabağ müharibəsində əldə etdiyimiz qələbənin ən mühüm amilləri oldu. 44 gün davam edən müharibə nəticəsində işğal altında olan torpaqlarımız düşməndən azad edildi. Ana Vətən illərdir əsarətdə olan sevimli yurd yerlərinə, səfalı Qarabağına qovuşdu. Qədim Şuşa şəhərinin azad edildiyi gün, yəni noyabr ayının 8-i Azərbaycanın tarixinə Zəfər Günü kimi yazıldı.

Bəstəkar Oqtay Rəcəbovun "Zəfər himni" kantatası səfərbər Azərbaycan Ordusunun sərkərdəsi, Ali Baş Komandan İlham Əliyevə həsr edilib. Kantatanın sözləri Baba Vəziroğlunundur.

*Musiqi dinləyək*

**Oqtay Rəcəbov. "Zəfər himni" kantatasınm III hissəsi**

*Bunu da bilin*

***Kantata – simfonik orkestr, xor və solistlər üçün nəzərdə tutulmuş təntənəli xarakterli əsərdir.***



***Əlibaba Məmmədov***



***Əliağa Vahid***

Nəğmələr də bəzən insanlar kimi qəribə taleli ola bilir. Əlibaba Məmmədovun Əliağa Vahidin sözlərinə bəstələdiyi "Vətən yaxşıdır" mahnısı Azərbaycanın əzəli torpağı olan Qarabağ uğrunda gedən Vətən müharibəsində şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin giziri Xudayar Yusifzadənin ifasında ikinci həyat qazandı. Əlibaba Məmmədov bu təsnifi şəhid Xudayarın xatirəsinə ehtiram əlaməti olaraq "Xudayar təsnifi" adlandırdı.

*Musiqi dinləyək*

**Mircavad Cəfərov və "Cəngi" etnocaz qrupu. "Xudayar təsnifi"**

14

## DİFERENSİAL TƏLİM

Kantata haqqında fikir söylənilir. "Zəfər himni" kantatasında ritmin və digər musiqi ifadə vasitələrinin rolu aydınlaşdırılır.

↓

"Zəfər himni" kantatasının xarakterinə uyğun əl çalır və müharibə mövzusunda yazılmış digər musiqi əsərlərinin adını söyləyir.

Musiqidə obrazların yaradılmasında ritm, melodiya və tempin rolu haqqında informasiya mübadiləsi aparılır və bu mövzuda müzakirə təşkil olunur.


*Bunu da bilin*

***Azərbaycan klassik muğamları arasında xüsusi yeri olan "Çahargah" mübarizə, qəhrəmanlıq əhvali-ruhiyyəsini ifadə edir. Böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadə "Muğam" poemasında bu əhvali-ruhiyyəni belə göstərir:***

***Təlatümlər, həyəcanlar***
***Bərdaştıdır – ön sözüdür***
***Çahargahın.***

***Mir Möhsün Nəvvab***

***Azərbaycanın Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam, xəttat və musiqişünas alim Mir Möhsün Nəvvab "Çahargah" muğamını göy gurultusuna, görkəmli tarzən Əhməd Bakıxanov isə müharibəyə, döyüş meydanına bənzədirdi.***

***Musiqi dinləyək***

**"Çahargah" muğamından bir hissə**

***Yeni mahnı öyrənək***

**AZADLIQ MARŞI**

*Musiqisi "Heyratı" zərbi-muğamı,*
*sözləri Elçin Mirzəbəylinindir.*

**I**

Ey ulu Vətənim, doğma torpağım,
Var tükənməz odun, sönməz ocağın.
Azadlığa çıxmaq üçün qalxsın bayrağın.

***Nəqərat:***
Qalx ayağa, millət, boğmasınlar səsimizi, ] 2
Bir bayraq altında birləşdir bizi.

**II**

Biz ki vətən oğlu, millət oğlu, Odlar oğluyuq,
Biz ki xalqa bağlı, yurda bağlı, elə bağlıyıq,
Biz ki haqq yolunda andımızdan dönmərik heç vaxt,
Vuruş zülmə qarşı, ey ulu torpaq!
***Nəqərat:***

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. 44 günlük müharibənin qəhrəmanlıq tarixi haqqında nə bilirsiniz?***
***2. "Çahargah" muğamının xarakteri necədir?***
***3. O.Rəcəbovun "Zəfər himni" kantatası kimə həsr olunub?***
***4. YouTube üzərindən "Xudayar təsnifi" adlandırılan "Vətən yaxşıdır" mahnısını dinləyin. Şəhid Xudayar Yusifzadənin ifasında mahnı necə səslənir? Bu haqda danışın.***
***Axtarış üçün açar sözlər: "Xudayar təsnifi", "Vətən yaxşıdır".***

**15**

Mübarizə ruhlu "Çahargah" muğamı haqqında, onda olan əhvali-ruhiyyə, insana göstərdiyi emosional təsir haqqında fikir mübadiləsi aparılır və bu muğamın "Mənsuriyyə" şöbəsi dinlənilir.

Belə bir nəticəyə gəlinir ki, professional musiqidə olduğu kimi, Azərbaycan xalq musiqi yaradıcılığında da mübarizə, müharibə obrazları öz əksini tapmışdır.

## YARADICI TƏTBİQETMƏ

**3**

Mübarizə ruhlu və müharibə mövzusunda olan "Heyratı" zərbi-muğamı üzərində səslənən "Azadlıq marşı" (sözləri Elçin Mirzəbəylinindir) mahnısı öyrədilir. Məktəblilər bu mahnının xarakterini müəyyənləşdirirlər.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) O.Rəcəbovun "Zəfər kantatası" kimə həsr olunub?***

a. Ali Baş Komandana ☐ b. Azərbaycan ordusuna ☐
c. Əmək qəhrəmanlarına ☐

***2) "Mənsuriyyə" hansı muğama aiddir?***

a. Rast ☐ b. Segah ☐ c. Çahargah ☐

# 6. MUSİQİDƏ POLİFONİYA

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Muğam haqqında öz fikrini söyləyir.**

**Mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

Bəstəkar-dirijor maestro Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyovun "Rast" simfonik muğamından ikinci hissə dinlənilir.

**2**

Tədqiqat sualı kimi ***"Muğamla Zikkurat məbədlərinin quruluşları arasında hansı oxşar cəhətlər var?"*** – verilə bilər.

Şagirdlərə üzərində muğamın pilləvari quruluşu və Zikkuratın pilləvari quruluşu çəkilmiş vərəqlər paylanılır. Şagirdlər bu vərəqlərdə hər iki (musiqi və Zikkurat məbədinin) quruluşun yuxarıya doğru hərəkət etdiyini müəyyənləşdirirlər.

Müəllim əsərin müəllifi haqqında məlumat verir və dinlənilən I və II hissənin melodiyalarının bir-birindən bir pillə yuxarı olmasını aydınlaşdırır, həm də Zikkurat məbədlərinin pilləvari quruluşu ilə müqayisə olunur.

**3**

İlk dəfə Misirdə yaranmış, sonradan Avropada təkmilləşdirilərək inkişaf etdirilmiş orqan musiqi aləti haqqında məlumat verilir və İ.S.Baxın "Re minor Tokkata və Fuqa" əsərindən "Fuqa" səsləndirilir.

**6. MUSİQİDƏ POLİFONİYA**

Polifoniya çoxsəslilik deməkdir. Polifonik musiqi janrlarından biri də "Fuqa" adlanır. "Fuqa" latın sözü olub, "qaçmaq", "yüyürmək" mənasını verir. "Fuqa" xüsusi ciddi qanunlar əsasında yaradılmış çoxsəsli polifonik əsərdir. Bu janrı yüksək zirvələrə qaldıran İohan Sebastyan Bax olmuşdur. Azərbaycan bəstəkarı Qara Qarayev də fuqa yazmışdır. Fuqa sərbəst janr olmaqla bərabər, həm də simfoniya, kantata, oratoriya, rekviyem və s. janrlı əsərlərin tərkib hissəsi də ola bilər.

*Musiqi dinləyək*

**İ.S.Bax. "Orqan üçün re minor "Tokkata və Fuqa" əsərindən "Fuqa"**



*Niyazi*

Dirijor, bəstəkar Niyazi (1912–1984) ilk musiqi təhsilini Bakı Musiqi Texnikumunda almış, sonradan təhsilini Moskva və Leninqradda (indiki Sankt-Peterburq) davam etdirmişdir.

"Zaqatala simfonik süitası", "Xosrov və Şirin" operası, "Rast" simfonik muğamı, "Çitra" baleti kimi məşhur əsərlərin müəllifidir. Bəstəkar "Çitra" baletinə görə "Cavahirləl Nehru" adına beynəlxalq mükafata layiq görülmüşdür. Niyazi "Təbrizim", "Dağlar qızı", "Arzu" və "Vətən haqqında mahnı" kimi bir sıra mahnıların və həmçinin "Almaz", "Kəndlilər", "Fətəli xan" və s. kinofilmlərə yazılmış musiqilərin müəllifidir. Bəstəkarın "1920-ci ildə" opera-kantatası, simfonik orkestr üçün "Rəqs süitası", "Qaytağı" əsərləri də dünya mədəniyyəti inciləri sırasına daxil edilmişdir.

*Musiqi dinləyək*

**Niyazi. "Rast" simfonik muğamından II hissə**

*Bunu da bilin*



***Qədim şumer memarlığına xas olan 3, 5, 7 pilləli məbədlər Zikkurat adlanırdı.***

***Zikkuratın yuxarı qalxdıqca ensizləşən son pilləsində ibadətgah yerləşirdi.***

***Qədim şumerlər Zikkuratdan səma cisimlərini müşahidə etmək üçün rəsədxana kimi istifadə edirdilər.***

***Azərbaycan muğamlarının quruluşu da Zikkurata bənzəyir. Belə ki hər yeni hissə o birindən bir pillə yuxarıdır.***

**16**

## DİFERENSİAL TƏLİM

1. Çoxsəsliliyin polifonik musiqiyə aid olduğunu müəyyənləşdirir.
2. İ.S.Baxın əvvəlki illərdə tanış olduğu əsərləri haqqında fikir söyləyir.

1. Zikkuratın şəklini çəkir;
2. Muğamın pilləvari inkişaf sxemini çəkir.

Musiqidə polifoniya mövzusunda informasiya mübadiləsi aparılır və bu mövzuda müzakirə təşkil olunur.



**Bunu da bilin**

***İ.S.Baxın "Tokkata və Fuqa" əsəri orqan aləti üçün yazıhb. Orqan çox qədim musiqi alətlərindən biridir. O ən böyük musiqi alətidir. Bu alətin səslənməsi insanda böyük əhvali-ruhiyyə yaradır. Orqan bir orkestr qədər səslənmə yaradır. Orqan üçün ən gözəl əsərləri İ.S.Bax bəstələyib.***

*Yeni mahnı öyrənək*

**TƏMİZ SƏMA ALTINDA**

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Həmid Abbasındır.*

**I**
Biz hər səhər günəşlə
Qoşa duraq, uşaqlar.
Təmiz səma altında
Yaşa dolaq, uşaqlar.

***Nəqərat:***
Çıxaq doğma ellərə, ellərə,
Çəmənlərə, çöllərə, çöllərə.
Mahnı qoşaq dillərə, dillərə,
Gülək, çalaq, uşaqlar, uşaqlar

**II**
Sevək işi, zəhməti,
Bilik adlı sərvəti.
Biz vüqarı, qüdrəti
Eldən alaq, uşaqlar.
***Nəqərat:***

**III**
Hər birimiz tər çiçək,
Həm ətirli, həm qəşəng.
Əbədi bir nəğmətək
Təzə qalaq, uşaqlar.
***Nəqərat:***

"Təmiz səma altında" mahnısı oynaq, şən xarakterə malikdir. Onun bəndi birsəsli, nəqəratı isə ikisəslidir.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Polifoniya nə deməkdir?***
***2. Hansı polifonik janrları tanıyırsınız?***
***3. Fuqaya hansı janr əsərlərin tərkibində rast gəlinir?***

17

Belə nəticəyə gəlinir ki, polifoniya çoxsəslilik deməkdir. Bu cür çoxsəslilikdə hər gələn sonrakı melodiya əvvəlki melodiyaya bənzəsə də, ondan yerləşdiyi məkana və yüksəkliyinə görə fərqlənir.

## YARADICI TƏTBİQETMƏ

**4**

Bəstəkar Oqtay Rəcəbovun şair Həmid Abbasın sözlərinə yazdığı "Təmiz səma altında" mahnısı öyrədilir. Mahnının xarakteri müəyyənləşdirilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) İ.S.Bax hansı ölkənin bəstəkarıdır?***

a. Azərbaycan ☐ b. Rusiya ☐ c. Almaniya ☐

***2) "Rast" simfonik muğamını kim yazmışdır?***

a. F.Əmirov ☐ b. Ü.Hacıbəyli ☐ c. Niyazi ☐

# 7. MUSİQİDƏ HOMOFONİYA

**MƏQSƏD: 1. Azərbaycan və dünya mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şərh edir.**

**Mövzunun öyrədilməsində beyin həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

7. MUSİQİDƏ HOMOFONİYA

*Musiqi dinləyək*

**İ.S.Bax. "Lya minor" prelüdü**
**L.V.Bethoven. "Sol major" menueti**



*Lüdviq Van Bethoven*

Homofoniya təksəslilik deməkdir.

L.V.Bethovenin "Sol major" menuetində əsas melodiya sağ, yaxud sol əldə fərdi olaraq səslənir. Akkordlar, yaxud hansısa səslər onu müşayiət edir. Belə əsərlər, o cümlədən L.V.Bethovenin indi dinlədiyimiz menueti homofonik əsər adlanır. Yəni İ.S.Baxın "Lya minor" prelüdü polifonik, L.V.Bethovenin "Sol major" menueti isə homofonik əsər hesab olunur.

*Musiqi dinləyək*

**F.Şubert. "Ave Mariya"**

Bəstəkar Fikrət Əmirov (1922–1984) dünya musiqi mədəniyyəti üçün yeni bir janrın – simfonik muğam janrının yaradıcısıdır. Onun "Şur" və "Kürd-Ovşarı" simfonik muğamları məşhur musiqi salonlarında səslənmiş və böyük tamaşaçı rəğbəti qazanmışdır.

Bəstəkar musiqinin, demək olar ki, bütün janrlarında gözəl sənət inciləri yaratmışdır. Janrından asılı olmayaraq, onun yaratdığı əsərlərin melodiyaları xalqımızın və digər xalqların dilinin əzbəri olmuşdur

*Musiqi dinləyək*

**F.Əmirov. "Şur" simfonik muğamının "Simayi-Şəms" şöbəsindən bir hissə**

Dinlənilən "Şur" simfonik muğamından görünür ki, bəstəkar bu əsəri yazarkən həm polifonik, həm də homofonik üslublardan istifadə etmişdir.

*Notla oxuyaq*

**"Şur" muğamının "Simayi-Şəms" şöbəsindən bir parça**




18

**1**

İ.S.Baxın "Lya minor prelüdü", L.V.Bethovenin "Sol minor menueti" və F.Şubertin "Ave Mariya" vokal əsərləri səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***"Səslənən bu üç əsərdən hansı homofonik əsərdir?"*** – verilə bilər.

Tədqiqatın aparılması üçün müəllim sinfi iki qrupa bölür. I qrup hansı əsərin polifonik, II qrup hansının homofonik olduğunu müəyyənləşdirir.

**3**

F.Əmirovun "Şur" simfonik muğamının giriş hissəsi dinlənilir və onun melodiyası notla oxunur. Müəllim bəstəkarın yaradıcılığı haqqında məlumat verir və "Şur" simfonik muğamında F.Əmirovun həm polifonik, həm də homofonik üslublardan istifadə etdiyini aydınlaşdırır.

## DİFERENSİAL TƏLİM

Homofonik musiqini polifonik musiqidən fərqləndirir, hər iki üslubda yazılmış əsərlərin adını söyləyir.

1. Dinlənilən musiqi əsərlərinin ritminə uyğun əl çalır, bədən hərəkətləri edir;
2. Bəstəkarları şəklindən tanıyır.

Bəstəkarların musiqi əsərləri üzərində işlədikdə homofonik və polifonik üslublardan istifadə etməsilə əlaqədar fikir mübadiləsi aparılır. Məlum olur ki, bu üslubları bilməyən musiqiçi əsər yarada bilməz.



*Yeni mahnı öyrənək*

**İÇƏRİŞƏHƏR**

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Sevinc Nuruqızınındır.*

**I**

Daşlarında gəzişsin
Gilavarın sığalı.
Bakımın min illərdən
Gələn şirin nağılı.
Səni çox sevirəm, çox,
Həyatımın, qəlbimin,
Ruhumun iç şəhəri,
Qədim İçərişəhər!

***Nəqərat:***
Susuzluqdan yananda
Dodağın, iç Xəzəri.
Xəzri, əs, al qoynuna,
Mənimlə keç şəhəri.
Çək məni nəfəs kimi
Köksünə, ey qəlbimin,
Ruhumun iç şəhəri,
Qədim İçərişəhər!

**II**

Əsrlər naxış salıb
Torpağına, daşına.
Qız qalası tac kimi
Qoyulubdur başına.
Kim inanar, soruşsa,
Sənin bunca yaşına?
Qəlbimin iç şəhəri,
Qədim İçərişəhər!

***Nəqərat:***
Susuzluqdan yananda
Dodağın, iç Xəzəri.
Xəzri, əs, al qoynuna,
Mənimlə keç şəhəri.
Çək məni nəfəs kimi
Köksünə, ey qəlbimin,
Ruhumun iç şəhəri,
Qədim İçərişəhər!

***Bunu da bilin***

***Dərslikdə verilən bütün mahnılar homofonik əsərlərdir. Ona görə ki, burada əsas melodiyanı məktəblilər oxuyur, fortepiano isə onu müşayiət edir.***

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Hansı əsərlərə homofonik əsərlər deyilir?***
***2. Polifonik və homofonik əsərlərin fərqi nədir?***
***3. İndiyədək oxuduğunuz mahnılar polifonik, yoxsa homofonik janra aiddir?***
***4. O.Rəcəbov və S.Nuruqızının "İçərişəhər" mahnısında bəstəkar və şair xalqın qədim yurd yerinə sevgilərini hansı ifadə vasitələri ilə veriblər?***

19

Nəticədə şagirdlərə aydın olur ki, ayrıca homofonik, polifonik və hər iki üslubun tətbiq olunduğu əsərlər vardır.

## YARADICI TƏTBİQETMƏ

**4**

Bəstəkar Oqtay Rəcəbovun Sevinc Nuruqızının sözlərinə bəstələdiyi "İçərişəhər" mahnısı öyrədilir, onun hansı janra aid olduğu müəyyənləşdirilir. Mahnının xanə ölçüsü təyin edilir, tonallığı aydınlaşdırılır və şagirdlər onu qamma şəklində oxuyurlar.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) Simfonik muğam janrını kim yaratmışdır?***

a. Niyazi ☐ b. S.Ələsgərov ☐ c. F.Əmirov ☐

***2) "İçərişəhər" mahnısının müəllifləri kimlərdir?***

a. O.Rəcəbov, S.Nuruqızı ☐ b. E.Sabitoğlu, R.Rövşən ☐

c. V.Adıgözəlov, R.Rza ☐

# 8. MUSİQİDƏ QARABAĞ MÖVZUSU

**MƏQSƏD: 1. Azərbaycan bəstəkarlarının Qarabağ müharibəsinə həsr olunan əsərləri haqqında bilikləri izah edir.**

**Mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

### 8. MUSİQİDƏ QARABAĞ MÖVZUSU

Vətəni tərənnüm edən, doğma yurd uğrunda mübarizəyə səsləyən musiqi əsərləri Qarabağ zəfərinin qazanılmasında mühüm rol oynadı. Qarabağın işğal altında olduğu dövr ən müxtəlif janrlarda musiqi nümunələrinin yazılması ilə nəticələndi. Bu əsərlər xalqı birləşdirdi, gənc nəslə döyüş əzmi aşıladı, Vətəni sevdirdi. Belə musiqi əsərlərindən biri də bəstəkar Vasif Adıgözəlovun “Qarabağ şikəstəsi” oratoriyası oldu. “Qarabağ şikəstəsi” oratoriyası yüksək professional və bədii səviyyədə yazılmış möhtəşəm, monumental əsərdir.

Respublika Dövlət Mükafatına layiq görülmüş bu əsərdə bəstəkar Azərbaycan ənənəvi şifahi klassik musiqisində xüsusi yer tutan zərbi-muğam vokal instrumental janrından istifadə etmişdir. Oratoriya qələbəyə inam və qətiyyət aşılayan musiqi əsəridir.

*Musiqi dinləyək*

**Vasif Adıgözəlov. “Qarabağ şikəstəsi” oratoriyasından “Qarabağ şikəstəsi”**

*Notla oxuyaq*

**V.Adıgözəlov. “Qarabağ şikəstəsi” oratoriyasının VII hissəsindən bir parça**




22

**1**

Bəstəkar Vasif Adıgözəlovun “Qarabağ şikəstəsi” oratoriyasından “Qarabağ şikəstəsi” adlanan hissə dinlənilir.

Tədqiqat sualı kimi ***“Dinlədiyiniz musiqidə bəstəkar hansı zərbi-muğamdan istifadə etmişdir?”*** – sualı verilə bilər.

Tədqiqatın aparılması ilə əlaqədar belə sualla şagirdlərə müraciət etmək olar:

– Uşaqlar, dinlədiyiniz musiqinin xarakteri necədir?

**2**

Bundan sonra sözləri və musiqisi Bəhram Nəsibova aid “Qarabağ” mahnısı dinlənilir və dinlənilmiş “Qarabağ şikəstəsi” musiqi nümunəsi ilə müqayisə olunur.

1. Bu mövzu ətrafında informasiya mübadiləsi aparılır və müzakirə təşkil olunur.

2. Belə bir nəticəyə gəlinir ki, Azərbaycan xalq və bəstəkar musiqilərində Qarabağ mövzusu həmişə öz əksini tapmışdır.

## DİFERENSİAL TƏLİM

Dinlənilən musiqi əsərlərinin ifa tərzi haqqında fikir söyləyir. Simfonik əsərlə mahnının ifaları arasında oxşar və fərqli cəhətlər aydınlaşdırılır.

↓

1. Dinlənilən musiqi nümunələrinin ritminə uyğun ritmik hərəkətlər edir.
2. Bəstəkarları şəkillərindən tanıyır.

Bundan sonra dinlənilmiş musiqi nümunələrinin xarakterilə əlaqədar müqayisəli şəkildə müzakirələr aparılır.

*Notla oxuyaq*

**QARABAĞ**

*Sözləri və musiqisi Bəhram Nəsibovundur.*

I

Sevgilim, seyrə çıxaq burda gəl ilk baharı,
Dil açır qəlbimizin ən şirin arzuları.
Anadır arzulara hər zaman Qarabağ,
Danışan dil-dodağım, tar-kaman Qarabağ.
Qarabağ, can Qarabağ, ana yurdum!

II

Tarlalarında neçə qəhrəman övladı var,
Əməyi güllər açan Xanları, Bünyadı var.
Anadır arzulara hər zaman Qarabağ,
Danışan dil-dodağım, tar-kaman Qarabağ.
Qarabağ, can Qarabağ, ana yurdum!

***Nəqərat:***

Bu çəmənlərdə gəzir Vaqifin şux gözəli,
Ruhunu burdan alır Natəvanın qəzəli.
Anadır arzulara hər zaman Qarabağ,
Danışan dil-dodağım, tar-kaman Qarabağ.
Qarabağ, can Qarabağ, ana yurdum!



***Səttar Bəhlulzadə. "Cıdır düzü"***

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyasını dinləyərkən xəyalınızda Qarabağ obrazı hansı ştrixlərlə canlanır?***
***2. Qarabağ zəfərinin qazanılmasında musiqinin rolu haqqında danışın.***
***3. YouTube üzərindən Tərlan Məmmədhüseynovun Sabir Rüstəmxanlının sözlərinə yazdığı "Zəfər mahnısı"nı dinləyin. Mahnıda Azərbaycan Ordusunun zəfəri necə təsvir olunub? Bu haqda danışın. Axtarış üçün açar sözlər: Tərlan Məmmədhüseynov, Sabir Rüstəmxanlı, "Zəfər mahnısı".***

**23**

"Qarabağ şikəstəsi" zərbi-muğamının melodiyasından bir parçanı uşaqlar notla oxuyurlar və ritminə uyğun əl çalınır.

## YARADICI TƏTBİQETMƏ

**3**

Musiqisi və sözləri Bəhram Nəsibova aid olan "Qarabağ" mahnısı öyrədilir. Şagirdlərə məlum olur ki, mahnı oynaq tempə malikdir, 6/8 xanə ölçüsündə səslənir və insanlarda xoş əhvali-ruhiyyə yaradır.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllimin təqdimatı şəklində
2. Şagirdlərlə fərdi şəkildə

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1. "Qarabağ şikəstəsi" oratoriyasının müəllifi kimdir?***

a. O.Rəcəbov ☐  b. V.Adıgözəlov ☐  c. A.Dadaşov ☐

***2. "Qarabağ şikəstəsi" zərbi-muğamı bəstəkara, yoxsa xalqa məxsusdur?***

a. xalqa ☐  b. bəstəkara ☐

# 9. MUSİQİDƏ MÜBARİZƏ MÖVZUSU

**MƏQSƏD: 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Azərbaycan bəstəkarlarının xaraktercə eyni olan əsərlərini fərqləndirir.**

**Mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

1. Q.Qarayevin "İldırımlı yollarla" baletindən "Gitaralı qızların rəqsi" səsləndirilir.

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz Q.Qarayevin "İldırımlı yollarla" baletindən "Gitaralı qızların rəqsi" xaraktercə necə musiqidir?"*** – verilə bilər.

Tədqiqatın aparılması üçün şagirdlərə belə sualla müraciət olunur:

– Uşaqlar, dinlədiyimiz musiqi şən, yoxsa qəmli xarakterə malikdir?

Bundan sonra müəllim fortepianonun ifasında bu musiqini səsləndirir və şagirdlərə ikinci sualı verir:

– Dinlədiyiniz ikinci əsərlə birinci arasında nə fərq vardır?

Şagirdlər suallara cavab verirlər.

**9. MUSİQİDƏ MÜBARİZƏ MÖVZUSU**



*Piter Abrahams*

Azərbaycan xalqı tarix boyu Vətənin azadlığı uğrunda mübarizə aparmış və bu mübarizə ideyası bəstəkarlarımızın müxtəlif janrlı əsərlərində və xalq musiqimizdə öz əksini tapmışdır.

Məsələn, dahi Ü.Hacıbəylinin "Koroğlu" operası, C.Cahangirovun "Arazın o tayında" vokal-simfonik poemasında, F.Əlizadənin "İntizar" operasında, V.Adıgözəlovun "Çanaqqala" oratoriyasında, O.Rəcəbovun "Çingiz" simfoniya-rekviyemində və digər əsərlərdə Vətən uğrunda mübarizə mövzusu öz əksini tapmışdır.

Vətən uğrunda mübarizə mövzusuna xalq mahnılarımızda da rast gəlirik. Əfsanəvi xalq qəhrəmanı Koroğlu və onun dəliləri haqqında olan "Dağlar qoynunda", "Meydan başında", "Qoç Koroğludur", "Qırat, gəl" və s. kimi mahnılar məhz bu mübarizəyə həsr olunub.

Qara Qarayevin "İldırımlı yollarla" baletinin mövzusu Cənubi Afrika yazıçısı Piter Abrahamsın eyniadlı romanından götürülmüşdür.

"İldırımlı yollarla" baletində irqi ayrı-seçkilik, müstəmləkəçiliyə qarşı mübarizə musiqi və xoreoqrafiya vasitəsilə öz əksini tapır.

Universiteti bitirmiş qaradərili Lenni öz kəndinə gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmaq üçün qayıdır. Valideynləri və dostları onun gəlişinə sevinir, bu münasibətlə şənlik edirlər. Sevinməyən yalnız ağdərili cənab müstəmləkəçi Gert Vilyerdir. Lenni dərs keçdiyi zaman qonşu kənddən uşaqlar müəllimləri Mako ilə onun yanına gəlirlər. Onlar bir yerdə rəqs etməyə başlayırlar. Bu, Gertin xoşuna gəlmir və ona görə də məktəbi bağlamağı əmr edir.

Qara Qarayevin "İldırımlı yollarla" baleti mübarizəyə çağırışla bitir.



*"İldırımlı yollarla" baletindən*

24

## DİFERENSİAL TƏLİM

Musiqinin iki ifa tərzində səslənməsi haqqında fikir söyləyir. Simfonik və fortepiano ifasında səslənən musiqinin oxşar və fərqli cəhətlərini müəyyənləşdirir. Əsas melodiya və ona yardımçı olan səslərin müşayiət xarakterli olduğunu, yəni əsərin homofonik olduğunu qeyd edir.

1. Dinlənilən musiqi əsərlərinin ritminə uyğun əl çalır, bədən hərəkətləri edir;
2. Bəstəkarları şəklindən tanıyır.

**2**

Onlar qeyd edir ki, dinlənilən əsərlərin melodiyası və xarakterləri eyni olsa da, birinci əsər simfonik orkestrin ifasında, ikincisi isə fortepiano alətində səsləndi. Qızlara məxsus bu əsərdə şənlik əhvali-ruhiyyəsi olsa da, bir qədər də kədərlilik hiss olunur.

Bundan sonra “Gitaralı qızların rəqsi”nin əsas melodiyası notla birsəsli ifa olunur. Daha sonra dinlənilən əsərdən xaraktercə və səslənməsinə görə fərqlənən baletdən son epizod səsləndirilir. “İldırımlı yollarla” baletindən səslənən bu musiqi nümunəsi birinci ilə müqayisə olunur və müəllim bu əsər haqqında, Afrikada yaşayan zəncilərin öz müstəqillikləri uğrunda mübarizələrindən qısa məlumat verir, həm də bu mövzuda olan Azərbaycan bəstəkarlarının da əsərlərinin adlarını yada salır.



*Musiqi dinləyək*

**Qara Qarayevin “İldırımlı yollarla” baletindən
“Gitaralı qızların rəqsi”**

*Notla oxuyaq*

**Gitaralı qızların rəqsi**

Andantino

*Yeni mahnı öyrənək*

**SÜLH MƏŞƏLİ**

*Musiqisi Elnarə Dadaşovanın,
sözləri Rafiq Yusifoğlunundur.*

**I**

Bir arzu düşündürür
Cənubu, Şərqi, Qərbi.
Sülhün qadir addımı
Tapdasın gərək hərbi.

***Nəqərat:***
Yandır sülh məşəlini,
Məhv elə hərbi, hərbi.

**II**

Arzulara dayaqdır
Ellərin qadir səsi.
Dünyanın başı üstə
Ucalsın sülh nəğməsi.

***Nəqərat:***
Yandır sülh məşəlini,
Məhv elə hərbi, hərbi.

Mahnı marş tempindədir.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. “İldırımlı yollarla” baletinin yaradıcıları kimdir?***
***2. “İldırımlı yollarla” baleti hansı yazıçının eyniadlı əsəri əsasında yazılmışdır?***
***3. Vətənpərvərlik ruhunda yazılmış daha hansı mahnıları tanıyırsınız?***
***4. “Uşaqlar sülh istəyir” mövzusunda öz sülh arzularınız haqqında danışın.***

25

Bu mövzu ətrafında informasiya mübadiləsi aparılır və müzakirə təşkil olunur.

Belə nəticəyə gəlinir ki, dünya bəstəkarlarının, o cümlədən Azərbaycan bəstəkarlarının yaradıcılığında azadlıq uğrunda mübarizə mövzusu həmişə ön cərgədə durmuşdur.

## YARADICI TƏTBİQETMƏ

**3**

Bəstəkar Elnarə Dadaşovanın Rafiq Yusifoğlunun sözlərinə yazdığı “Sülh məşəli” mahnısı öyrədilir. Şagirdlər müəyyənləşdirirlər ki, marş tempində olan bu ikisəsli mahnıda tersiya və seksta intervallarına rast gəlmək olur.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “İldırımlı yollarla” baletinin müəllifi kimdir?***

a. A.Məlikov ☐   b. F.Əmirov ☐   c. Q.Qarayev ☐

***2) “Sülh məşəli” mahnısının bəstəkarı kimdir?***

a. E.Dadaşova ☐   b. O.Rəcəbov ☐   c. T.Quliyev ☐

# 10. MUSİQİDƏ GƏRGİNLİK

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şərh edir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə olunur.**

**1**

S.Raxmaninovun fortepiano və simfonik orkestr üçün yazılmış "2 №-li konsert"inin I hissəsindən giriş səsləndirilir.

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz musiqi parçasında ona gərginlik gətirən nədir?"*** – verilə bilər. Şagirdlər müxtəlif məzmunlu cavablar verirlər. Müəllim verilən sualı aydınlaşdırmaq üçün köməkçi suallarla şagirdlərə müraciət edir:

– Uşaqlar, fortepianoda səslənən musiqi güclü (bərkdən), yoxsa zəif (astadan) səslənir?

– Bu musiqi akkordlardan, yoxsa təksəsli melodiyadan ibarətdir?

Dinlənilən cavablar ümumiləşdirilir, müəllimin köməyi ilə belə bir fikrə gəlinir ki, bəstəkar musiqidə gərginlik yaratmaq üçün akkordlardan istifadə etmişdir.

**2**

S.Raxmaninovun "Oxuma, gözəl" (sözləri A.S.Puşkinindir) romansının melodiyasından bir parça ifa olunur və onun Şərq musiqi intonasiyalarına yaxınlığı aydınlaşdırılır. Bundan sonra Azərbaycan bəstəkarı A.Rzayevanın A.S.Puşkinin sözlərinə yazdığı eyniadlı "Oxuma, gözəl" romansı dinlənilir. Bu



10. MUSİQİDƏ GƏRGİNLİK

*Musiqi dinləyək*

**S.Raxmaninovun "2№-li konserti"nin I hissəsindən giriş**

Rus bəstəkarı Sergey Raxmaninovun əsərləri bütün dünya xalqları tərəfindən sevilərək dinlənilir. Fortepiano alətinin virtuoz ifaçısı olan bəstəkar bu alət üçün müxtəlif janrlı əsərlər – konsertlər, romanslar, mahnılar, eyni zamanda "Aleko" adlı birpərdəli opera yazmışdır.

*Sergey Raxmaninov*

*Bunu da bilin*

***S.Raxmaninovun fortepiano və simfonik orkestr üçün 4 konserti var. Bəstəkar öz yaradıcılığında heç vaxt inqilabi mövzulara müraciət etməmişdir. Onun "2№-li fortepiano konserti"nin dərin dramatizmi, musiqisindəki gərginlik, çoxsaylı akkordları əsərə inqilabi ruh verir.***

Sergey Raxmaninov dahi rus şairi Aleksandr Puşkinin sözlərinə çoxlu sayda romanslar yazmışdır. Onun "Oxuma, gözəl" romansı Şərq musiqisi intonasiyalarına əsaslanır. Lirik mövzuda olmasına baxmayaraq, bu romansın melodiyasında bir gərginlik, narahatlıq hiss olunur.

Azərbaycan bəstəkarı Ağabacı Rzayeva da A.Puşkinin "Oxuma, gözəl" şeirinə Azərbaycan dilində eyniadlı romans yazmış və onun ilk ifaçısı məşhur müğənni, Xalq artisti Bülbül olmuşdur

*Aleksandr Puşkin*

*Notla oxuyaq*

**"Oxuma, gözəl" romansından bir parça**

*Musiqisi Sergey Raxmaninovun, sözləri Aleksandr Puşkinindir.*

Moderato

26

romans S.Raxmaninovun eyniadlı romansı ilə müqayisə edilir, oxşar və fərqli cəhətlər müəyyənləşdirilir.

## DİFERENSİAL TƏLİM

S.Raxmaninovun və A.Rzayevanın "Oxuma, gözəl" romanslarının oxşar və fərqli cəhətləri ilə əlaqədar təqdimat edir və onların melodiyalarından parçaları notla oxuyur.

Romans yazan Azərbaycan bəstəkarlarının adlarını söyləyir.

Azərbaycan professional və xalq musiqi janrlarında gərginlik yaratmaq üçün istifadə edilən vasitələr haqqında fikir mübadiləsi aparılır və müzakirə təşkil edilir.

*Musiqi dinləyək*

**OXUMA, GÖZƏL**

*Musiqisi Sergey Raxmaninovun,*
*sözləri Aleksandr Puşkinindir.*

*Yeni mahnı öyrənək*

**YAXŞI YOL**

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Süleyman Rüstəmindir.*



***Süleyman Rüstəm***

**I**
*(Solo)*
Dörd qardaşıq, qurban olaq ana yurda dördümüz,
Qüdrətlidir ellərimiz, yox ürəkdə dərdimiz,
Qoymaz tapdansın Vətəni qoçağımız, mərdimiz.

***Nəqərat:***
*(Xor)*
Düşmənlərə vermə aman, get, qardaşım, yaxşı yol!
Yurdlarını elə viran, get, qardaşım, yaxşı yol!

**II**
*(Solo)*
Qədrini bil, toxunmasın sənə bir yad gülləsi,
Sən lazımsan bu ellərə, ey Vətənin haqq səsi,
Var səsinlə qəlbən oxu qalibiyyət nəğməsi.

***Nəqərat:***
*(Xor)*

**III**
*(Solo)*
Poladdan bir səngər kimi sinəni gər hücumda,
Düşmənləri yuvasından et dərbədər hücumda,
Azdır, yenə sən min düşmən qırsan əgər hücumda.
***Nəqərat:***

Ü.Hacıbəylinin marş xarakterli “Yaxşı yol” mahnısı II Dünya müharibəsində vuruşan azərbaycanlı əsgərlərimizə həsr olunub.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Sergey Raxmaninovun hansı musiqi əsərlərini tanıyırsınız?***
***2. Sergey Raxmaninovun “Oxuma, gözəl” romansı hansı rus şairinin sözlərinə bəstələnmişdir?***
***3. A.Puşkinin “Oxuma, gözəl” şeirinə hansı Azərbaycan bəstəkarı musiqi bəstələyib?***
***4. Ü.Hacıbəylinin “Yaxşı yol” mahnısında gənclərə nə tövsiyə olunur və bu onların mübarizə ruhunu necə qaldırır? Bu haqda danışın.***

**27**

Belə nəticəyə gəlinir ki, bəstəkarlar musiqidə gərginlik yaratmaq üçün akkordlardan, dissonans intervallardan, ritmdən və s. istifadə edirlər.

## YARADICI TƏTBİQETMƏ

**3**

Üzeyir Hacıbəylinin şair Süleyman Rüstəmin sözlərinə bəstələdiyi “Yaxşı yol” marş xarakterli, həm də müəyyən gərginlik hiss olunan mahnısı solo və xor şəklində öyrənilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Yaxşı yol” mahnısının bəstəkarı kimdir?***

a. E.Sabitoğlu ☐ b. A.Zeynallı ☐ c. Ü.Hacıbəyli ☐

***2) “Yaxşı yol” aşağıdakı janrlardan hansına aiddir?***

a. Mahnı ☐ b. Rəqs ☐ c. Mahnı-marş ☐

# 11. MUSİQİDƏ MİLLİ QƏHRƏMAN OBRAZI

**MƏQSƏD: 1. Azərbaycan bəstəkarlarının yaradıcılığında "milli qəhrəman" obrazı ilə əlaqədar fikir söyləyir; 2. "Hümayun" Azərbaycan klassik muğamının insanın emosional hisslərinə təsirini izah edir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**



11. MUSİQİDƏ MİLLİ QƏHRƏMAN OBRAZI

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayev Ermənistan–Azərbaycan müharibəsinin 1992-ci ilə qədər olan dövrünün əsl salnaməsini yaratmış tanınmış jurnalist, cəsarətli reportyor və alovlu vətənpərvər idi. Nəinki Azərbaycan xalqı, eləcə də bütün dünya Çingiz Mustafayevi Xocalıda çəkdiyi kadrlara görə qürurla xatırlayır. Xocalıdakı dəhşətli kadrları acı hıçqırıqları ilə müşayiət edən Çingiz heç bir insanlıq qanunlarına sığmayan qətliamı olduğu kimi, bütün vəhşiliyi ilə nəsillər üçün qoruyub saxlaya bildi. İgid telejurnalist çəkiliş zamanı aldığı qəlpə yarasından dünyasını dəyişdi.

*Çingiz Mustafayev*

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli fərmanı ilə Çingiz Mustafayev Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

*Xocalı hadisələri*

*Bunu da bilin*

***Bəstəkar Oqtay Rəcəbovun şair-publisist Aqşin Babayevlə birlikdə Çingiz Mustafayevin xatirəsinə həsr etdiyi 8 hissəli simfoniya-rekviyem əsəri 2011-ci ildə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında simfonik orkestr, solistlər, xor və qiraətçi tərəfindən səsləndirilib.***

*Musiqi dinləyək*

**"Çingiz" simfoniya-rekviyem əsərindən bir hissə.**
**" ü"**

"Çingiz" simfoniya-rekviyem əsərinin "Ümumxalq hüznü" hissəsi "Hümayun" klassik Azərbaycan muğamı intonasiyalarına əsaslanan melodiya ilə bağlanır, sonra xor sözsüz yeni bir musiqi melodiyasını ifa edir. Sonda yenə "Hümayun" muğamı intonasiyaları olan melodiya ingilis nəfiri və simfonik orkestr tərəfindən səslənir.

*İngilis nəfiri*

28

**1**

Bəstəkar O.Rəcəbovun Çingiz Mustafayevə həsr olunmuş "Çingiz" 8 hissəli simfoniya-rekviyemindən "Ümumxalq hüznü" adlanan hissə dinlənilir.

Tədqiqat sualı kimi ***"Musiqidə hansı ifadə vasitələrinin köməyi ilə milli qəhrəman obrazı yaradılır?"*** – verilə bilər.

Dinlənilən hissənin əvvəlində və sonunda səslənən klassik muğama diqqət yetirilir. "Ümumxalq hüznü" hissəsinin əvvəlindən bir parça notla ifa edilir. Bunu ifa etmək üçün şagirdlər 2 qrupa bölünürlər. II qrupa aid məktəblilər kontrapunkt kimi I oktavanın "re" səsini 4 xanə boyu ifa edirlər.

I qrup məktəblilər isə "Hümayun" muğamından olan bu parçanı notsuz "lya" hecası ilə ifa edirlər.

Şagirdlərə suallar verilir:

– Uşaqlar, ifa etdiyiniz melodiya şəndir, yoxsa qəmli?

– Uşaqlar, siz oxuduğunuz musiqi birsəsli, yoxsa ikisəsli səsləndi?

Məktəblilər müxtəlif cavablar verirlər.

**2**

Məktəblilər re minor qammasının səs sırasını notla oxuyur, ikisəsli şəklində oxuduqları "Hümayun"un melodiyası ilə müqayisə edirlər və beləliklə, dinlənilən, həm də ifa olunan muğam melodiyasının tonallığı müəyyənləşdirilir.

## DİFERENSİAL TƏLİM

Simfoniya-rekviyem haqqında müzakirələrdə iştirak edərək fikir söyləyir. Muğam parçasından melodiyanı oxuyur. İkisəsli ifada iştirak edir.

1. Tanıdığı bəstəkarların adlarını söyləyir;
2. Minor qammasının ifasında iştirak edir.

Azərbaycan professional musiqisində milli qəhrəmanlara həsr olunmuş irihəcmli əsərlərin olması ilə əlaqədar fikir mübadiləsi aparılır və müzakirə təşkil olunur.

*Notla oxuyaq*

**“Ümumxalq hüznü” hissəsinin əvvəlindən bir parça**




Bu əsərin tonallığının səs sırasını oxuyaq (re minor qamması).




Qammanın I, III və V səsləri **sabit səslərdir**.

*Yeni mahnı öyrənək*

**İGİD ƏSGƏR, MÖHKƏM DAYAN**

*Sözləri və musiqisi Şahin Musaoğlunundur.*

**I**

Çox sınadı bizi zaman,
Neçə şəhid getdi qurban.
Sinəsiylə sipər olan
İgid əsgər, möhkəm dayan!

***Nəqərat:***
Ya azad ol, ya candan keç,
İki yoldan birini seç.
Azadlığın şərbətin iç,
İgid əsgər, möhkəm dayan!

**II**

Salam Vətən, salam ana,
Çətin gündə bizi sına.
Qanla cavab verək qana,
İgid əsgər, möhkəm dayan!

***Nəqərat:***
Ya azad ol, ya candan keç,
İki yoldan birini seç.
Azadlığın şərbətin iç,
İgid əsgər, möhkəm dayan!

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Milli Qəhrəman Çingiz Mustafayev haqqında nə bilirsiniz?***
***2. YouTube üzərindən Şəmistan Əlizamanlının ifasında “İgid əsgər, möhkəm dayan” mahnısını dinləyin. Mahnıda Vətənə sevgi hissləri hansı sözlərlə verilmişdir? Bu haqda danışın.***
***Axtarış üçün açar sözlər: Şəmistan Əlizamanlı, vətənpərvərlik mahnısı, “İgid əsgər, möhkəm dayan”.***

**29**

Belə nəticəyə gəlinir ki, xalq musiqimizdə olduğu kimi, professional Azərbaycan musiqisində də milli qəhrəman obrazına həsr olunmuş irihəcmli əsərlər vardır.

## YARADICI TƏTBİQETMƏ

**3**

Bəstəsi və sözləri Şahin Musaoğluna aid olan “İgid əsgər, möhkəm dayan” mahnısı öyrədilir. Mahnının mövzusu şərh edilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Çingiz” simfoniya-rekviyeminin musiqisini kim yazmışdır?***

a. R.Mustafayev ☐ b. R.Mirişli ☐ c. O.Rəcəbov ☐

***2) “Çingiz” simfoniya-rekviyem musiqi əsərinin “Ümumxalq hüznü” hissəsi hansı muğamın intonasiyalarına əsaslanır?***

a. Hümayun ☐ b. Segah ☐ c. Çahargah ☐

# 12. KLASSİK AZƏRBAYCAN MUĞAMI – “SEGAH”

**MƏQSƏD: 1. Muğamlara dair bilik və bacarıqlar nümayiş etdirir; 2. Muğamın emosional hisslərə təsirini izah edir; 3. Fərdi və kollektiv tərkibində oxuyur.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

“Segah” muğamından bir hissə dinlənilir.

Tədqiqat sualı kimi ***“Muğamı ifa edərkən xanəndələr hansı poeziya janrından istifadə edirlər?”*** – verilə bilər. Tədqiqatın aparılması üçün şagirdlərə iş vərəqləri paylanılır.

Müəllim muğamlar və əsasən, “Segah” muğamı və onun tərkib hissələri haqqında məlumat verir. Eyni zamanda müəllim qeyd edir ki, vokal-instrumental muğamlar olduğu kimi, həm də poeziya nümunəsi qəzəldən istifadə olunmayan instrumental muğamlar da mövcuddur. Muğamda istifadə olunan poeziya nümunələri – bayatılar, qoşmalar, qəzəllər haqqında soruşulur.

Şagirdlər müxtəlif cavablar verirlər və müəllimin köməyi ilə istifadə olunan bu poetik janrın “Qəzəl” olduğu müəyyənləşdirilir.

**12. KLASSİK AZƏRBAYCAN MUĞAMI – “SEGAH”**

***Musiqi dinləyək***

**“Segah” muğamı**

“Segah” yeddi əsas muğamdan üçüncüsüdür. Segah sözü fars dilində “se” – üç, “gah” – mövqe, məkan sözlərinin birləşməsindən yaranıb. Azərbaycanda “Segah”ın “Segah”, “Zabul segah”, “Orta segah”, “Mirzə Hüseyn segahı”, “Xaric segah” və s. kimi növləri var.



***Elşən Hacızadə***
***“Muğam üçlüyü”***

Bəxtiyar Vahabzadə “Muğam” poemasında bütün muğamlarla yanaşı, “Segah” muğamı haqqında da yazıb:

*Ey “Zabul” segahım, “Orta” segahım,*
*Mənim öz amanım, mənim öz ahım.*
*Sən mənə kimsədən pay verilmədin,*
*Sən özgə çeşmədən gətirilmədin.*
*Mənim dağlarımdır sənin qaynağın,*
*Qoşqarın,*
*Kəpəzin,*
*Ulu Şahdağın*
*Bağrından süzülüb sən durulmusan,*
*Məndə yuvalanıb, mənim olmusan.*

“Segah” muğamı insanda sevgi, məhəbbət hissləri oyada bilir.

**30**

**2**

“Segah” muğamından bir hissə dinlənilir, eyni zamanda “Segah” ladının səs sırası qamma şəklində ifa olunur.

## DİFERENSİAL TƏLİM

Azərbaycan muğamlarını, vokal-instrumental və instrumental muğamları fərqləndirir, onlar haqqında fərdi fikir söyləyir, məşhur xanəndələr və instrumental muğam ifaçıları ilə əlaqədar şifahi təqdimat edir.

1. Xanəndələr və ifaçıları şəklindən tanıyır;
2. Tanıdığı muğam ifaçılarının adlarını söyləyir.

“Segah” muğamının müxtəlif variantlarının olması ilə əlaqədar fikir mübadiləsi aparılır və bu mövzuda müzakirə təşkil olunur.


*Musiqi dinləyək*

**“Mirzəyi” rəqsi**

Azərbaycan xalq rəqsi “Mirzəyi” “Segah” muğamından bəhrələnmişdir.

*Notla oxuyaq*

**“Segah” ladının səs sırası**

*Mahnını yada salaq, notla və sözləri ilə oxuyaq*

**SARIBÜLBÜL**

*(Azərbaycan xalq mahnısı)*

Moderato

Da Capo al Fine

| I | II |
|---|---|
| Vətən bağı al-əlvandır, | Geyib yaşıl donun çöllər, |
| Yox içində xarı, bülbül. | Həvəsinlə açır güllər. |
| Ömür sürməli dövrandır, | Töküb şirin-şirin dillər, |
| Səsin gəlsin barı, bülbül. | Gəl oyadaq yarı, bülbül. |

“Sarıbülbül” Azərbaycan xalq mahnısı 3/4 xanə ölçüsünə malikdir, tələsmədən və “Segah” muğamı intonasiyaları üstündə səslənir.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. “Segah” sözü hansı sözlərin birləşməsindən əmələ gəlmişdir?***
***2. “Segah” muğamının hansı növləri var?***
***3. B.Vahabzadə “Muğam” poemasında “Sən mənə kimsədən pay verilmədin. Sən özgə çeşmədən gətirilmədin” misraları ilə “Segah” muğamı haqqında hansı həqiqətləri çatdırmaq istəyir? Bu haqda danışın.***

31

Belə nəticəyə gəlinir ki, “Segah” muğamı da iki cür ifa olunur – vokal-instrumental ifa tərzi; instrumental ifa tərzi ilə.

Vokal-instrumental ifa zamanı xanəndə qəzəl janrında yazılmış poeziya nümunəsindən istifadə edir.

## YARADICI TƏTBİQETMƏ

**3**

“Sarıbülbül” Azərbaycan xalq mahnısı məktəblilərə öyrədilir. Müəllimin köməyi ilə şagirdlər müəyyən edirlər ki, 3/4 xanə ölçüsünə malik olan “Sarıbülbül” xalq mahnısı “Segah” muğamı intonasiyaları üzərində səslənir.

***“Segah” muğamı ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Segah” muğamı 7 əsas klassik muğamın sayca neçəncisidir?***

a. 1 ☐ b. 5 ☐ c. 3 ☐

***2) Muğam ifaçıları hansı poeziya janrından istifadə edirlər?***

a. Qoşma ☐ b. Bayatı ☐ c. Qəzəl ☐

# 13. DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ MUSİQİ

**MƏQSƏD: 1. I yarım ildə öyrənilən vətənpərvərlik mahnılarını yada salaraq ifa edir; 2. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında bilik və bacarıqlar nümayiş etdirir.**

**Mövzunun öyrənilməsində beyin həmləsi, müzakirə, müqayisə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

Bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operasının "Uvertüra"sından bir hissə dinlənilir.

Tədqiqat sualı kimi ***"Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə azərbaycanlılar xalqa və Vətənə sevgilərini necə nümayiş etdirirlər?"*** – verilə bilər.

Tədqiqatın aparılması üçün sinif 3 qrupa bölünür. Lövhədən mədəniyyət, ədəbiyyat, incəsənət sahəsində dünyaca məşhur azərbaycanlıların şəkilləri asılır. Hər qrup onlardan biri haqqında təqdimat hazırlayır. Sonra müəllim sinfə suallarla müraciət edir:

– Dünyaşöhrətli Azərbaycan bəstəkarlarından kimləri tanıyırsınız?

– "Koroğlu" operasının "Uvertüra"sından bir hissəni dinləyərkən insanlarda hansı əhvali-ruhiyyə yaranır?

Müəllim musiqi əsərlərinin insanlarda vətənpərvərlik hissi, qələbə əzmi aşıladığından danışır, qəhrəmanlıq obrazının insanın əhvali-ruhiyyəsinə müsbət təsirindən söz açır.

Musiqidə həmrəylik mövzusu haqqında fikir söyləyir. Əsərin mövzusunun onun intonasiyaları ilə səsləşməsini Koroğlunun ariyası nümunəsində izah edir.



13. DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ MUSİQİ

**31 dekabr** Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlı tərəfindən hər il qeyd edilir. Bütün dövrlərdə dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün müstəqil Azərbaycan Respublikası milli iftixar, mənəvi dayaq yeri olmuşdur. 31 dekabrı qəlbində böyük və ülvi Azərbaycan sevgisi daşıyan dünya azərbaycanlıları Milli Həmrəylik Günü kimi bayram edir, xalqa və Vətənə sevgisini nümayiş etdirirlər.

*Notla oxuyaq*

**Azərbaycan Respublikasının Dövlət Himni**

*Musiqi dinləyək*

**Üzeyir Hacıbəylinin "Koroğlu" operasının "Uvertüra"sından bir hissə**

Bu uvertürada xalq qəhrəmanı Koroğlunun obrazı, onun xalqın azadlığı uğrunda mübarizəsi təntənəli bir musiqi ilə, ekspozisiyanın köməkçi mövzusunda isə Koroğlunun Nigara həsr etdiyi ariyanın intonasiyaları ilə səsləşir. Bu musiqi elə bir təsir gücünə malikdir ki, ona etinasız qulaq asmaq olmur.

*"Koroğlu" operasından*

32

## DİFERENSİAL TƏLİM

"Dünya Azərbaycanlıların Həmrəyliyi Günü" mövzusunda şifahi təqdimat edir.

Azərbaycanın rəmzlərinin şəklini çəkir.

“Koroğlu” operasında Koroğlu obrazı haqqında fikir mübadiləsi aparılır və bu mövzuda müzakirə təşkil olunur.



“Koroğlu” uvertürası insanlarda qələbə əzmi, mübarizə ruhu yaradır, onları birləşdirir. Böyük bir ordunun gücündən də güclü təsir qüvvəsinə malik olan “Koroğlu” uvertürası müstəqilliyimiz uğrunda mübarizə günlərində ən çox səslənən musiqi əsəri olmuşdur.

*Yeni mahnı öyrənək*

**QURBAN OLUM**

*Musiqisi Əfsər Cavanşirovun,*
*sözləri Rasim Kərimlinindir.*

**I**
Vətən, sənin torpağının
Qüdrətinə qurban olum.
Babəkinin, Koroğlunun
Qeyrətinə qurban olum!

***Nəqərat:***
Dəfinə var dənizində,
Hər dağında, hər düzündə,
Nəyin yoxdur yer üzündə?
Şöhrətinə qurban olum,
Tarix dolu, dünya dolu
Şöhrətinə qurban olum!

***Əfsər Cavanşirov***

**II**
Aşıb-daşan sellərinin,
Nəğmə qoşan dillərinin,
Nur çeşməli çöllərinin
Hikmətinə qurban olum!
***Nəqərat:***

**III**
Yaz arzulu, yaz diləkli,
Duz-çörəkli, düz çörəkli,
Mən deyərəm, dağ ürəkli
Millətimə qurban olum!
***Nəqərat:***

Mahnı 4/4 xanə ölçüsünə malikdir. Birsəsli olan bu mahnı həzin-lirik xarakterə malikdir. Mahnı xanə əvvəlində pauza ilə başlayır. Nəqərat zil səslə ifa olunur.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. 31 dekabrda xalqımız hansı bayramları qeyd edir?***
***2. “Qurban olum” mahnısında şair Vətəni necə təsvir edir?***
***3 “Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü” mövzusunda danışın. Dünya azərbaycanlılarının həmrəyliyinin Vətənin taleyində rolu necədir?***

33

Belə nəticəyə gəlinir ki, musiqi elə bir təsir gücünə malikdir ki, ona etinasız qulaq asmaq mümkün deyil.

## YARADICI TƏTBİQETMƏ

**2**

Bəstəkar Əfsər Cavanşirovun Rasim Kərimlinin sözlərinə bəstələdiyi “Qurban olum” mahnısı öyrədilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü nə vaxt qeyd olunur?***

a. 28 may ☐ b. 31 dekabr ☐ c. 9 may ☐

***2. “Qurban olum” mahnısının bəstəkarı kimdir?***

a. S.Rüstəmov ☐ b. Ə.Cavanşirov ☐ c. E.Sabitoğlu ☐

# 14. MUSİQİNİN OBYEKTİV REALLIĞI

**MƏQSƏD: 1. Musiqi əsərlərinin melodiyası, ritmi və onlarda istifadə edilmiş bədii nümunələr haqqında fikrini nümayiş etdirir; 2. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şərh edir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**14. MUSİQİNİN OBYEKTİV REALLIĞI**

*Musiqi dinləyək*

**"Koroğlu" operasının II pərdəsindən "Koroğlunun ariyası".**
**"Koroğlu" operasının II pərdəsindən "Final xoru"**



*"Koroğlunun ariyası"*

Bu iki nümunənin birincisi, yəni "Koroğlunun ariyası" qəmli, "Final xoru" isə təntənəli, mübariz əhvali-ruhiyyəlidir. Onların sözlərinin yerini dəyişsək, hər iki əsər pis səslənər, sözlərlə musiqi uyğun gəlməz. Bu o deməkdir ki, bəstəkar hər hansı şeirə musiqi yazarkən mətnin xarakterinə, metrik ölçüsünə, bəhrinə uyğun olan bir melodik obraz yaradır. Yəni mətndəki metrik ölçülər, xarakter, yaradılacaq obraz musiqinin metrik ölçülərinə, xarakterinə, təsvir olunan obraza, yaxud obrazlara uyğun gəlməlidir. Əks halda mətndəki reallıqla musiqidəki reallıq uyğunluq təşkil etməz. Həqiqi olmayan sənət əsəri isə heç vaxt gözəl ola bilməz.



*"Koroğlu" operasından*



*"Koroğlu" operasından*

*Notla oxuyaq*

**"Koroğlu" operasının II pərdəsi.**
**"Koroğlunun ariyası"ndan bir parça**




36

**1**

Dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəylinin "Koroğlu" operasından fərqli xarakterlərə malik II pərdədən "Koroğlunun ariyası" və "Final xoru" səsləndirilir.

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz bu iki musiqi nümunəsi xaraktercə bir-birindən necə fərqlənir?"*** – verilə bilər.

Bundan sonra aşağıdakı köməkçi suallarla məktəblilərə müraciət olunur: – "Koroğlunun ariyası" haqqında nə deyə bilərsiniz?"

– "Final xoru" haqqında nə deyə bilərsiniz?"

**2**

Müəllim bu iki əsərin məzmununun onun mətninin məzmununa uyğunluğu haqqında məlumat verir.

## DİFERENSİAL TƏLİM

Musiqinin melodiyasının xarakteri ilə onda istifadə olunan mətnin xarakteri arasındakı oxşar cəhətlər haqqında fikir söyləyir. Dinlədiyi musiqi nümunələrindən kiçik melodik frazalar oxuyur.

1. Mövzuya uyğun şəkil çəkir;
2. Opera yazan Azərbaycan bəstəkarlarının adlarını söyləyir.

Dinlənilən musiqi nümunələrinin melodiyası və mətni arasındakı xarakter oxşarlığı ətrafında fikir mübadiləsi aparılır və mövzuya uyğun müzakirə təşkil olunur.



Göründüyü kimi, melodiyanın aramlı tempi ona bir qədər qəmli xarakter verir.

Koroğlu mərd, cəsarətli, hər addımda düşməni məğlub etməyi bacaran bir qəhrəmandır. Lakin o da bütün insanlar kimi bəzən hisslərinin əsiri olur, Nigardan ayrı düşdüyü üçün kədərlənir və bu səbəbdən də oxuduğu ariya da kədərli, qəmli səslənir. Bəstəkar bu operada xor-rəqs səhnələri, cəngi xarakterli musiqi yaratmışdır.

*Yeni mahnı öyrənək*

**BAKI HAQQINDA MAHNI**

*Musiqisi Vasif Adıgözəlovun, sözləri Rəsul Rzanındır.*

Xəzərinin sinəsi
Gah zil, gah da bəm olur.
Yarpaqların, güllərin
Niyə hərdən nəm olur?
Səndən ayrı düşəndə
Könlüm dolu qəm olur.

***Nəqərat:***
Qucağında Xəzərin
Yatıb dincələn Bakı.
Qarı, çiskin yağışı
Əyri, köndələn Bakı.

Hələ neçə küçədə
Güllər dəstələnməyib.
Hələ neçə nəğmənin
Xalı bəstələnməyib.
Yüz il ömür sürəydim,
Bir gün xəstələnməyib.

***Nəqərat:***
Yazaydım, yaradaydım
Şah nəğməni mən, Bakı.
Oxuyaydım hər yanda
Onu ürəkdən, Bakı.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Musiqinin mətni və melodiyası arasında hansı əlaqə var?***
***2. “Koroğlu” operasından dinlədiyiniz iki musiqi nümunəsinin oxşar və fərqli cəhətlərini sadalayın.***
***3. “Koroğlunun ariyası”na qəmli xarakter verən nədir? Niyə bəstəkar bu xalq qəhrəmanının obrazını bəzən kədərli notlarla yaradır? Bu haqda danışın.***

**37**

Belə bir nəticəyə gəlinir ki, “Koroğlunun ariyası”nın mətni kədərli olduğu üçün ona yazılmış musiqi də qəmli və kədərlidir. “Final xoru”nda isə həm mətndə, həm də musiqidə qalib gəlmiş xalqın obrazı bu əsərə mübarizlik ruhu verir.

## YARADICI TƏTBİQETMƏ

**3**

Bəstəkar Vasif Adıgözəlovun Rəsul Rzanın sözlərinə bəstələdiyi “Bakı haqqında mahnı” öyrədilir. Mahnının yazıldığı tonallıq aydınlaşdırılır.

***Musiqinin obyektiv reallığı mövzusu ilə tanışlıq iki cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Koroğlu” operasını kim yazmışdır?***

a. M.Maqomayev ☐ b. A.Zeynallı ☐ c. Ü.Hacıbəyli ☐

***2) V.Adıgözəlovun “Bakı haqqında mahnı”sının xarakteri necədir?***

a. Qəmli ☐ b. Oynaq, şux ☐ c. Vals ☐

# 15. MUSİQİDƏ YUMORESKA

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şərh edir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

Alman bəstəkarı İ.S.Baxın “2 №-li süita”sından “Yumoreska” adlanan hissə səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***“Əsərin adı ilə onun ifa tərzində oxşarlıq vardırmı?”*** – verilə bilər. Melodiyadakı cəld və oynaq hərəkət, kvarta, kvinta, seksta interval sıçrayışlarının musiqiyə zarafat xarakteri verdiyini müəllimin köməyi ilə şagirdlər müəyyənləşdirirlər.

Müəllim bu əsər və onu ifa edən musiqi kollektivinin tərkibi haqqında qısa məlumat verir. Məktəblilər əvvəlki illərdə simli alətlər orkestri və fleyta nəfəs aləti haqqında biliklərə malik olduqlarından müəllimin bu haqda yeni şərhi həmin biliklərin yada düşməsinə səbəb ola bilər. İ.S.Baxın yaradıcılığı, əsasən, polifonik olduğundan, bu əsərin homofonik olduğu, yəni fleyta alətinin əsas aparıcı, simli alətlər orkestrinin isə müşayiətçi olduğu aydınlaşdırılır.

**3**

Bəstəkarların musiqidə müəyyən xarakterlər yaratmaq üçün musiqi ifadə vasitələrindən istifadə etdikləri məktəblilərin yadına salınır.

15. MUSİQİDƏ YUMORESKA



*Simli alətlər orkestri*

Dahi alman bəstəkarı İohann Sebastyan Baxın əsərlərini insanlara göstərdiyi təsirə görə “Ən gözəl musiqi əsərləri” adlandırmışlar. Bu gözəllik nədən ibarətdir? Belə gözəlliklərdən biri onun əsərlərinin ifadəli intonasiyaya malik olması və bu intonasiyanın asanlıqla yadda qalmasıdır. İ.S.Baxın musiqisinin əsas cəhətlərindən biri də onun əsərlərində musiqinin polifonik, yəni çoxsəsli olmasıdır. İ.S.Baxın əsərləri insana müsbət təsir edir və onda yüksək əhvali-ruhiyyə yaradır. Belə əsərlərdən biri də onun “2 №-li süita”sından “Yumoreska”dır. Bəstəkar bu əsəri simli orkestr və fleyta üçün yazmışdır.

*Musiqi dinləyək*

**İ.S.Baxın “2 №-li süita”sından “Yumoreska”**



*Skripka* *Alt* *Violonçel* *Kontrabas*



*Fleyta*

Azərbaycan bəstəkarlarından Əşrəf Abbasov, Zakir Bağırov, Musa Mirzəyev və digərləri “Yumoreska” adlı fortepiano pyesi yazıblar. Bu əsərlər homofonikdir.

38

## DİFERENSİAL TƏLİM

Məktəbli dinlədiyi musiqi əsərinin ifaçı kollektivi haqqında fikir söyləyir. Musiqi ifadə vasitələrinin imkanları haqqında danışır.

1. Musiqinin məzmununa uyğun şəkil çəkir;
2. Musiqinin ritmini əl çalmaqla tutur.

Musiqidə müxtəlif emosional xarakter yaratmaq üçün musiqi ifadə vasitələrinin rolu haqqında informasiya mübadiləsi aparılır və bu mövzuda müzakirə təşkil olunur.


**Bunu da bilin**

***Simli alətlər orkestrinin tərkibində bu Avropa musiqi alətləri var: skripkalar, altlar, violonçellər və kontrabaslar.***

*Notla oxuyaq*

**Musa Mirzəyev. "Yumoreska" fortepiano pyesindən melodiya**

Allegretto

*Yeni mahnı öyrənək*

**OXUTMURAM, ƏL ÇƏKİN!**

*Musiqisi Zakir Bağırovun,*
*sözləri Mirzə Ələkbər Sabirindir.*

***Əzim Əzimzadə.***
***"Oxutmuram, əl çəkin"***

Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!
Bəs ki uşaqdır hələ, yaxşı-yaman sanmayır,
Elmin əbəs olduğun anlamayır, qanmayır,
Sair uşaqlar kimi hər sözə aldanmayır.
Eyləyir ömrün hədər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. İ.S.Baxın "Yumoreska" adlanan əsəri bəstəkarın hansı süitasındandır?***
***2. Azərbaycan bəstəkarlarından kimlərin "Yumoreska" adlı yumoristik əsərləri var?***
***3. "Oxutmuram, əl çəkin!" mahnısını təhlil edin. Əsərdə tənqid edilən nədir? Bu haqda danışın.***

**39**

M.Mirzəyevin "Yumoreska" fortepiano əsəri dinlənilir və notla ifa edilir. İ.S.Baxın əsəri ilə müqayisə olunur. Belə nəticəyə gəlinir ki, musiqidə müəyyən emosional obrazların yaradılması üçün bəstəkarlar musiqi ifadə vasitələrinin imkanlarından istifadə edirlər.

## YARADICI TƏTBİQETMƏ

**4**

Bəstəkar Zakir Bağırovun Mirzə Ələkbər Sabirin sözlərinə yazdığı zarafat xarakterli "Oxutmuram, əl çəkin!" mahnısı öyrədilir. Bu mahnı 6/8 ölçüsünə, oynaq xarakterə malikdir.

***"Musiqidə yumoreska" mövzusu ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) İ.S.Baxın "Yumoreska" əsərinin xarakteri necədir?***

a. Oynaq ☐ b. Kədərli ☐ c. Təntənəli ☐

***2) "Oxutmuram, əl çəkin!" mahnısının bəstəkarı kimdir?***

a. S.Ələsgərov ☐ b. R.Mustafayev ☐ c. Z.Bağırov ☐

# 16. 20 YANVAR VƏ MUSİQİ

**MƏQSƏD: 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Azərbaycan bəstəkarlarının xaraktercə eyni olan əsərlərini fərqləndirir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**



16. 20 YANVAR VƏ MUSİQİ

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu erməni hərbçilərinin iştirakı ilə Bakı şəhərinə hücum etdi. Tanklarla şəhərə daxil olan qoşun hissələri doğma Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış yüzlərlə günahsız Azərbaycan vətəndaşının həyatına son qoydu. Şəhidlər arasında məktəblilər, tələbələr, qocalar, qadınlar var idi. Öz xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları Bakının Dağüstü parkında dəfn olundular və o gündən bu müqəddəs məkan Şəhidlər xiyabanı adlandırıldı.

20 Yanvar günü Şəhidlər xiyabanında Bəxtiyar Vahabzadənin "Şəhidlər" şeiri "Hümayun" muğamının tərənələri altında səsləndirilir:

Bir qəfil gülləyə qurban gedərkən
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb köləliyi ürəyimizdə,
Cəsarət mülkünü tikdi şəhidlər.

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı el qeyrəti çəkdi şəhidlər.

*Bəxtiyar Vahabzadə*

*Musiqi dinləyək*

**Azər Dadaşov. Solistlər, xor və simfonik orkestr üçün 9 saylı simfoniya. "20 Yanvar"**

*Azər Dadaşov*

40

**1**

Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" şeiri kamançanın müşayiəti ilə "Hümayun" muğamının tərənələri altında dinlənilir.

Bundan sonra müəllim 20 yanvar 1990-cı ildə Bakıda baş vermiş faciə barəsində məlumat verir.

Tədqiqat sualı kimi ***"Şəhidlər" şeiri "Hümayun" muğamının intonasiyaları altında hansı xarakterə malik olur?"*** – verilə bilər.

Şagirdlər dinlənilən şeirin və musiqinin xarakterlərinin faciəvi, kədərli olduğunu qeyd edirlər.

Bundan sonra dinlənilən musiqinin melodiyasının major, yaxud minor ladında yazıldığı soruşulur.

## DİFERENSİAL TƏLİM

Melodiyanın kədərli olması üçün istifadə edilən musiqi ifadə vasitələri haqqında fikir söyləyir. Mahnının melodiyasından musiqi frazalarını oxuyur.

1. Mahnının ritmini ayaq tappıltısı ilə tutur;
2. İfaçının adını söyləyir.

**2**

Müəllimlə şagirdlər aydınlaşdırırlar ki, hər bir musiqi əsərinin xarakteri, məzmunu olduğu kimi, "Şəhidlər" şeirinin də kədərli məzmunu və ona uyğun "Hümayun" muğamının kədərli melodiyası vardır. Bu obrazı yaratmaq üçün yavaş tempdən, minor ladından istifadə edilir.

“20 Yanvar və musiqi” mövzusu ətrafında fikir mübadiləsi aparılır və müzakirə təşkil olunur.

20 Yanvar bəşər tarixinə sovet hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi qanlı cinayət günü kimi yazıldı. Respublikada 20 Yanvar günü Ümumxalq Hüzn Günü elan edildi. O vaxtdan hər ilin bu günü qeyri-iş günü olur və Azərbaycan vətəndaşları Şəhidlər xiyabanına şəhid məzarlarını ziyarət etməyə gəlir. Ziyarətçiləri 20 Yanvar faciəsini bütün dəhşəti ilə beyinlərə həkk edən qəmli, mübarizəyə səsləyən musiqi nümunələri müşayiət edir. Onlardan biri də məşhur qoboy ifaçısı, Xalq artisti Kamil Cəlilovun ifa etdiyi “Zəminxarə” muğamıdır. Bu muğam insanda çox kədərli hisslər yaradır.



*Kamil Cəlilov*

*Musiqi dinləyək*

**“Şur” muğamının “Zəminxarə” guşəsi**

*Yeni mahnı öyrənək*

**SƏNİ ADIM QORUSUN**

***(“Ağ atlı oğlan” bədii filmindən)***

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Ramiz Rövşənindir.*

**I**

Ağlayanım tapılsa,
Nə var ölməkdən gözəl?!
Nə var şəhid qanına
Batan köynəkdən gözəl?!

***Nəqərat:***
Gəl ağlama sən belə,
Göz yaşların qurusun.
Mən öldüm, innən belə
Səni dərdim qorusun.

**II**

Başın üstə quş kimi
Ruhum uçub dolanar.
Bir də sevib-sevilsən,
Adımı ver balana.

***Nəqərat:***
Gəl ağlama sən belə,
Göz yaşların qurusun.
Mən öldüm, innən belə
Səni dərdim qorusun.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Nə üçün 20 Yanvara həsr olunmuş şeirlər kamança və qoboy alətində, “Hümayun” və “Zəminxarə” muğamlarının müşayiəti ilə ifa olunur?***
***2. Azər Dadaşovun “20 Yanvar” simfoniyasının səslənməsində hansı kollektivlər iştirak edir?***
***3. “20 Yanvarda dünyasını dəyişən məktəblilər: Larisa və İlqar” mövzusunda danışın.***

**41**

Nəticədə şagirdlər belə bir fikrə gəlirlər ki, bəstəkar və şairlərimiz xalqımızın şən, bayram günləri ilə bərabər, həm də kədərli günləri üçün də müxtəlif janrlı əsərlər yaratmışlar.

## YARADICI TƏTBİQETMƏ

**3**

Oqtay Rəcəbovun şair Ramiz Rövşənin sözlərinə yazdığı “Səni adım qorusun” mahnısı öyrədilir.

Müəllimin köməyi ilə şagirdlər mahnının melodiyasını, xarakterini müəyyənləşdirirlər.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Şəhidlər” şeiri hansı muğamın müşayiəti ilə dinlənilir?***

a. “Hümayun” ☐  b. “Zəminxarə” ☐  c. “Segah” ☐

***2) “Səni adım qorusun” mahnısı kimin sözlərinə yazılıb?***

a. Ramiz Rövşən ☐  b. Rəsul Rza ☐  c. Süleyman Rüstəm ☐

# 17. MUSİQİDƏ AXŞAM ƏHVALİ-RUHİYYƏSİ

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şərh edir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, Venn diaqramı, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**


17. MUSİQİDƏ AXŞAM ƏHVALİ-RUHİYYƏSİ

Frans Şubert

"Serenada" adlanan musiqi nümunəsi İtaliya və İspaniyada axşamlar ifa edilən məhəbbət mahnılarına deyilir. Adətən, bu cür mahnıların müşayiətçisi gitara ifaçıları olur. Bu janrda klassik Avropa bəstəkarlarının bir çoxu, o cümlədən Avstriya bəstəkarı Frans Şubert də yazmışdır. Şubertin "Serenada"sı çox tez bir zamanda bütün dünyaya yayılmışdır. Sonradan bu əsər müxtəlif alətlər və fortepianonun müşayiəti ilə ifa olunmağa başladı. Xalq artisti, məşhur tarzən Ramiz Quliyev də bu əsəri tarda fortepianonun müşayiəti ilə ifa etmişdir.

*Bunu da bilin*

***Frans Şubert 600-dən artıq mahnının, 9 simfoniyanın, simfonik orkestr üçün uvertüraların, fortepiano üçün 22 sonatanın, 8 ekspromtun müəllifidir.***

Ramiz Quliyev

*Musiqi dinləyək və notla oxuyaq*

**Frans Şubert. "Serenada"**

Andante

F.Şubertin "Serenada"sı 3/4 xanə ölçüsünə, aramlı tempə, gözəl və yaddaqalan lirik melodiyaya malikdir. Adətən, mahnını zil kişi səsi olan tenorlar ifa edirlər.

Bəzi Azərbaycan bəstəkarlarının da axşam mövzusunda məşhur mahnıları var. Bunlardan biri də Xalq artisti, məşhur bəstəkarımız Tofiq Quliyevin "Görüş" filminə bəstələdiyi "Axşam mahnısı"dır. Filmdə bu mahnını Xalq artisti Şövkət Ələkbərova ifa edir.

42

**1**

Əvvəlcə Avstriya bəstəkarı Frans Şubertin "Serenada" əsəri vokal və simfonik orkestrin müşayiəti ilə səsləndirilir. Bundan sonra müəllim əsərin klassik Avropa bəstəkarı Frans Şubertə məxsus olduğunu söyləyir, həm də onun haqqında qısa məlumat verir.

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz "Serenada" əsərinin xarakteri necədir?"*** – verilə bilər.

Məktəblilərin bu suala verdikləri müxtəlif cavablardan sonra müəllim də öz fikrini söyləyir.

**2**

Sonra məşhur Azərbaycan tarzəni, xalq artisti Ramiz Quliyevin ifasında bu əsər səsləndirilir. Müəllim bu iki ifa arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirmək üçün Venn diaqramından istifadə edə bilər. Bunun üçün sinif 2 qrupa bölünür və bu iki ifanın oxşar və fərqli cəhətləri diaqramda yazılır.

**3**

Bu proseslərdən sonra müəllim "Serenada"dan bir parçanı məktəblilərə notla oxutdurur.

## DİFERENSİAL TƏLİM

Axşam mövzusunda "Serenada" əsəri haqqında öz fikrini söyləyir. "Serenada"dan bir parçanı sərbəst olaraq notla və notsuz oxuyur.

1. "Serenada"nın hər bir xanəsinin güclü hissəsində ayaq tappıltısı ilə ritm tutur;
2. Mövzuya uyğun şəkil çəkir.

Azərbaycan bəstəkarı Tofiq Quliyevin “Axşam” mahnısı səsləndirilir və əvvəlki dinlənilmiş “Serenada” ilə oxşar və fərqli cəhətləri ətrafında informasiya mübadiləsi aparılır, həm də müzakirə təşkil olunur.



*Tofiq Quliyev*



*Şövkət Ələkbərova*



*Görüş filmindən*

Azərbaycanın Xalq artisti Şövkət Ələkbərova “Görüş” filmindən “Axşam mahnısı”nı xorun və simfonik orkestrin müşayiəti ilə də oxumuşdur. İndi isə həmin melodiyanı tarın ifasında dinləyək.

*Musiqi dinləyək*

**Tofiq Quliyev. “Axşam mahnısı”**

*Yeni mahnı öyrənək*

**AY NƏĞMƏSİ**

*Musiqisi Ağabacı Rzayevanın,*
*sözləri Hikmət Ziyanındır.*

**I**

Göylərdə Ay göründü,
Hər yan gündüzə döndü.
İşıqlandı meşə, dağ,
Aya nəğmə oxuyaq.

**II**

Bir də gördün gəlmişik,
Demə yolun uzaqdır.
Elçi də göndərmişik
Yerdən sənə nə vaxtdır.

***Nəqərat:***

Ey gözəl Ay, qəşəng Ay,
Günləri say, durma, say!
Bir gün qanad açarıq,
Biz qoynuna uçarıq!

Mahnı vals tempində, 3/4 xanə ölçüsündədir.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Serenada nədir?***
***2. F.Şubert haqqında nə bilirsiniz?***
***3. “Görüş” filmindən “Axşam mahnısı”nı dinləyin. Bu mahnını serenada adlandırmaq olarmı? Mahnının melodiyası gecənin ahəngi ilə necə səsləşir? Bu haqda danışın.***

43

Belə nəticəyə gəlinir ki, musiqidə təbiət hadisələri, o cümlədən axşam əhvali-ruhiyyəsi həm Avropa, həm də Azərbaycan bəstəkarlarının yaradıcılığında özünə yer tapmışdır.

## YARADICI TƏTBİQETMƏ

**4**

Bəstəkar Ağabacı Rzayevanın şair Hikmət Ziyanın sözlərinə yazdığı “Ay nəğməsi” mahnısı öyrədilir. Şagirdlər müəllimin köməyi ilə bu mahnının da dərsin əvvəlində dinlənilən musiqi nümunələri kimi 3/4 xanə ölçüsünə malik olduğunu müəyyənləşdirirlər.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Serenada” mahnısını kim bəstələmişdir?***

a. L.V.Bethoven ☐ b. V.A.Motsart ☐ c. F.Şubert ☐

***2) A.Rzayevanın “Ay nağməsi” mahnısının sözləri kimə məxsusdur?***

a. S.Vurğun ☐ b. M.Ə.Sabir ☐ c. H.Ziya ☐

# 18. MUSİQİDƏ TƏBİƏT TƏSVİRİ

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Azərbaycan bəstəkarlarının xaraktercə eyni olan əsərlərini fərqləndirir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Böyük rus bəstəkarı N.Rimski-Korsakovun "Qar qız" operasından "Qar qızın ariyası" dinlənilir.

Tədqiqat sualı kimi ***"Qar qızın ariyası"nın xarakteri necədir?"*** – sualı qoyula bilər. Suala belə cavablar ola bilər:

– Qar qız qardan düzəldildiyi üçün isti havada əriyə biləcəyindən qorxur.

– Tonqal üzərindən Qar qız tullansa, əriyə bilər.

Bundan sonra müəllim yaz fəslinin gəlməsi ilə təbiətdə baş verən təbii hadisələr haqqında məlumat verir. Eyni zamanda N.Rimski-Korsakovun "Qar qız" operası, Qar qızın qəmli ariyasının səbəbləri haqqında, Şərq aləmində və bir sıra slavyan xalqlarında baharın gəlməsi ilə əlaqədar odun üstündən tullanmaq adəti haqqında məlumat verir.

**2**

Bundan sonra müəllim bəstəkar Tofiq Bakıxanovun oynaq xarakterli "Gözəlliklər məskəni" adlı mahnısını səsləndirir və "Qar qızın ariyası" ilə bu mahnının xarakterindəki fərq aydınlaşdırılır. Məktəblilər bu mahnıdan bir parçanı notla oxuyurlar və əl çalmaqla ritmini tuturlar.

**18. MUSİQİDƏ TƏBİƏT TƏSVİRİ**

Azərbaycan bəstəkarı, Xalq artisti Tofiq Bakıxanov təbiətin gözəlliyinə "Gözəlliklər məskəni" adlı mahnı həsr edib. Bu mahnıdan bir parçanı əvvəlcə notla oxuyaq, sonra isə mahnını Xalq artisti və mahnının ilk ifaçısı Zeynəb Xanlarovanın ifasında dinləyək.

***Notla oxuyaq və musiqi dinləyək***

**GÖZƏLLİKLƏR MƏSKƏNİ**






*Nikolay Rimski-Korsakov*

Təbiət mövzusu şairlərin, bəstəkarların, rəssamların yaradıcılığında həmişə mühüm yer tutub. Təbiət — bizi əhatə edən olduqca heyranedici və dəyişən aləmdir. Hər bir ölkənin vətəndaşlarının yaşayış tərzi, maddi rifah halı təbiətlə, təbii sərvətlərin bolluğu və müxtəlifliyi ilə birbaşa əlaqəlidir. Təbiət bəşər övladının evidir. Bu evi qorumaq, onu zənginləşdirmək insanların müqəddəs borcu, şərəf işidir. Təbiəti qorumaq ümumdövlət və ümumxalq vəzifəsidir. Böyük rus bəstəkarı N.Rimski-Korsakovun "Qar qız" operası da təbiət mövzusunda yazılmış əsərlərdən biridir.



*"Qar qız" operasından*

44

## DİFERENSİAL TƏLİM

1. Dinlədiyi musiqi nümunələri ilə əlaqədar öz fikrini söyləyir.
2. "Gözəlliklər məskəni" mahnısından bir parçanı notla təmiz oxuyur.

↓

1. Mahnının ritmini əl çalmaqla tutur;
2. Mövzuya uyğun şəkil çəkir.

Dinlənilmiş musiqi nümunələri ətrafında və mövzu ilə əlaqədar informasiya mübadiləsi aparılır və müzakirə təşkil olunur.

*Musiqi dinləyək*

**N.Rimski-Korsakovun**
**“Qar qız” operasından “Qar qızın ariyası”**

Bildiyimiz kimi, tonqal üstündən tullanmaq bizim Novruz şənliklərinin əsas atributlarından biridir. Eyni hadisənin təsvirini rus bəstəkarı N.Rimski-Korsakov da vermişdir. Onun “Qar qız” operasında gənclər meşədə tonqal qalayıb odun üstündən tullanırlar. Lakin Qar qız bunu edə bilmir, ona görə ki, o, qardan yaranıb və əgər tonqalın üzərindən tullanarsa, əriyib suya çevrilə bilər. Elə bu səbəbdən onun ariyası qəmlidir.

*Yeni mahnı öyrənək*

**TƏBİƏT MAHNISI**

*Musiqisi Musa Mirzəyevin,*
*sözləri Gəray Fəzlinindir.*

**I**

Dostlar, salamlayaq açan gündüzü,
Doğma yurdumuzun çıxaq seyrinə.
Birgə qulaq asaq səhər dan üzü
Çayın nəğməsinə, çölün sehrinə.

**II**

Uzaqda zirvələr verib baş-başa,
Hər bulud örpəyi ağ kəlağayıdır.
Bu Vətən baharla yaranıb qoşa,
Anası Günəşdir, atası Aydır.

**III**

Biz bilsək qədrini doğma diyarın,
O da ildən-ilə laləzar olar.
Ana təbiətlə dost olanların
Könlündə həmişə ilk bahar olar.



***Davud Kazımov***
***“Göy göl”***

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. N.Rimski-Korsakovun təbiət mövzusunda olan operasının adı nədir?***
***2. “Gözəlliklər məskəni” mahnısının ilk ifaçısı kim olmuşdur?***
***3. N.Rimski-Korsakovun “Qar qız” operasında göstərilmiş hansı adətlər bizim Novruz adətlərimiz ilə eynidir? Bu haqda danışın.***

45

Nəticə olaraq belə bir fikir söylənilir ki, Azərbaycan sənətkarlarının yaradıcılığında da təbiəti təsvir edən əsərlər vardır.

## YARADICI TƏTBİQETMƏ

**3**

Bəstəkar Musa Mirzəyevin şair Gəray Fəzlinin sözlərinə yazdığı “Təbiət mahnısı” öyrədilir. Onun tonallığı, xanə ölçüsü, xarakteri ətrafında fikir mübadiləsi aparılır.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Qar qız” operasını kim yazmışdır?***

a. M.İ.Qlinka ☐ b. D.Şostakoviç ☐ c. N.Rimski-Korsakov ☐

***2) “Təbiət mahnısı”nın bəstəkarı kimdir?***

a. O.Rəcəbov ☐ b. M.Mirzəyev ☐ c. R.Şəfəq ☐

# 19. MUSİQİDƏ REAL VƏ QEYRİ-REAL OBRAZLAR

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şərh edir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

"Ruslan və Lyudmila" operasından "Çernomorun marşı" səsləndirilir. Dahi rus bəstəkarı M.İ.Qlinka haqqında və onun yazdığı əsərlərlə əlaqədar qısa anlayışlar verdikdən sonra müəllim A.S.Puşkinin poeması əsasında onun yazdığı "Ruslan və Lyudmila" operasındakı real və qeyri-real obrazlar haqqında məlumatlar verir.

**2**

Marşla əlaqədar tədqiqat sualı kimi ***"Çernomorun marşı"nda olan əsas melodiya nə ilə fərqlənir?"*** – verilə bilər. Sualın cavabını almadan həmin marşın melodiyasının bir parçasını notla oxumaq təklif olunur. Bundan sonra şagirdlər "Çernomorun marşı"nda olan melodiyanın fərqli cəhətlərini sadalayırlar.

19. MUSİQİDƏ REAL VƏ QEYRİ-REAL OBRAZLAR



*Mixail Qlinka* *"Ruslan və Lyudmila" film-operasından*

Mixail Qlinka rus milli opera sənətinin yaradıcısıdır. O, "İvan Susanin", "Ruslan və Lyudmila" adlı operaların, simfonik orkestr üçün "Kamarinskaya", "Vals-fantaziya", "Araqon xotası" və s. kimi əsərlərin, mahnı və romansların müəllifidir. Üzeyir Hacıbəyli Azərbaycan professional musiqisinin yaradıcısı olduğu kimi, Mixail Qlinka da rus musiqisinin atası hesab edilir. Bəstəkar "Ruslan və Lyudmila" operasını dahi rus şairi Aleksandr Sergeyeviç Puşkinin eyniadlı poeması əsasında yazmışdır. Operada real obrazlarla bərabər, qeyri-real obrazlar da vardır. Əsərin baş qəhrəmanları real obrazlara, Çernomor və cəngavər baş obrazı isə qeyri-real obrazlara aiddir.

Əsərin qısa məzmunu belədir: Kiyev knyazı Svetozar öz qızı Lyudmilanı cəsarətli cəngavər Ruslana ərə verir. Birdən göy guruldayır, şimşək çaxır, hər yer qaranlığa bürünür. Hər şey bitdikdən sonra yenə səhnə işıqlanır, lakin Lyudmila görünmür. Onu cadugər Çernomor oğurlayıb öz məskəninə aparmışdır. Balaca və uzunsaqqallı Çernomor Lyudmilanın xoşuna gəlmək istəyir. O, bahalı geyimlər geyinib öz nökərləri ilə birlikdə Lyudmilanın yanına gedir. Bu səhnəni bəstəkar çox qəribə bir musiqi ilə təsvir edir.

*Musiqi dinləyək*

**M.Qlinkanın "Ruslan və Lyudmila" operasından "Çernomorun marşı"**

Heç nə Lyudmilanı sevindirmir və o gözləyir ki, Ruslan gəlib onu xilas edəcək. Həqiqətən də, belə olur və Ruslan böyük maneələrdən keçərək Lyudmilanı Çernomorun əlindən xilas edir.

46

## DİFERENSİAL TƏLİM

1. M.Qlinka və onun yaradıcılığı haqqında öz fikrini söyləyir.
2. "Çernomorun marşı"ndakı kiçik melodiya parçasını notla oxuyur.

↓

1. Çernomor obrazının şəklini çəkir;
2. "Çernomorun marşı" səslənəndə ayaqla və əl çalmaqla ritm tutur.

M.Qlinkanın “Ruslan və Lyudmila” operasında iştirak edən real və qeyri-real obrazlarla əlaqədar informasiya mübadiləsi aparılır və bu mövzuya uyğun müzakirə təşkil olunur. Eyni zamanda ötən illərdə öyrənilmiş “Ruslan və Lyudmila” operasından “İran qızlarının xoru” notla ifa olunur.


*Notla oxuyaq*

**“Çernomorun marşı”ndan bir parça**

Marş tempində

Bəstəkar operasında “İran qızlarının xoru” üçün “Qalanın dibində bir quş olaydım” Azərbaycan xalq mahnısının melodiyasından istifadə etmişdir.

*Musiqi dinləyək və onun melodiyasını notla oxuyaq*

**İRAN QIZLARININ XORU**

Andantino.

pp

*Yeni mahnı öyrənək*

**ANA LAYLASI**

*Musiqisi Oqtay Zülfüqarovun,*
*sözləri Rəfiq Zəkanındır.*

**I**

Şəfqəti nur verib gözlərimizə,
Könül dünyasıdır ana laylası.
Elə bil qarışıb sözlərimizə,
Dilin aynasıdır ana laylası.

***Nəqərat:***
Ana, ana, ana laylası. (2)

**II**

Əzəldən “ana”dır əzəl kəlməmiz,
Ay kimi aydındır, göy kimi təmiz.
Müqəddəs şeirimiz, ulu nəğməmiz
Ana laylasıdır, ana laylası.
***Nəqərat:***

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. M.Qlinkanın “Ruslan və Lyudmila” operasında real və qeyri-real obrazlar hansılardır?***
***2. “Ruslan və Lyudmila” operasında hansı Azərbaycan xalq mahnısından istifadə olunmuşdur?***
***3. YouTube üzərindən Rəşid Behbudovun ifasında “Qalanın dibində bir quş olaydım” mahnısını dinləyin. Necə düşünürsünüz, nə üçün M.Qlinka “İran qızlarının xoru”nda məhz bu xalq mahnısından istifadə edib? Bu haqda danışın.***

**47**

Belə nəticəyə gəlinir ki, klassik bəstəkarların yaradıcılığında real obrazlarla bərabər, fantastik hesab olunan qeyri-real obrazlar da öz musiqi həllini tapmışdır.

## YARADICI TƏTBİQETMƏ

**3**

Bəstəkar Oqtay Zülfüqarovun şair Rəfiq Zəkanın sözlərinə yazdığı “Ana laylası” mahnısı öyrədilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Ruslan və Lyudmila” operasındakı “İran qızlarının xoru”nun melodiyası hansı xalqa məxsusdur?***

a. Rus ☐ b. Ləzgi ☐ c. Azərbaycan ☐

***2) “Ana laylası” mahnısının bəstəkarı kimdir?***

a. O.Rəcəbov ☐ b. O.Zülfüqarov ☐ c. S.Rüstəmov ☐

# 20. FRANSIZ BƏSTƏKARININ YARADICILIĞINDA XOCALI MÖVZUSU

**MƏQSƏD: 1. Dünya musiqi mədəniyyətinin görkəmli numayəndəsi olan fransız bəstəkarı Pyer Tiloyun yaradıcılığında olan "Xocalı 613" adlı 4 hissəli simfonik əsəri ilə məktəbliləri tanış etmək.**

**Bu mövzunun mənimsənilməsilə əlaqədar beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Xocalı soyqırımı haqqında məlumat verildikdən sonra fransız bəstəkarı Pyer Tiloyun "Xocalı 613" simfonik əsərində istifadə olunmuş "Laçın" və "Küçələrə su səpmişəm" Azərbaycan xalq mahnıları səsləndirilir, eyni zamanda bu haqda şagirdlərə məlumat verilir.

**2**

Tədqiqat sualı kimi ***"Xocalı 613" simfonik poemasında müəllif nə üçün məhz Azərbaycan xalq mahnılarından istifadə etmişdir?"*** Suala təxminən belə cavab verilə bilər:

– "Xocalı 613" simfonik poemasında məhz Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı cinayətindən bəhs edildiyi üçün xalqın əzabını vurğulamaq üçün bəstəkar Azərbaycan xalq mahnılarına müraciət etmiş və bununla da əsərin ideyasını daha da nəzərəçarpan etməyi bacarmışdır.

**3**

Bundan sonra qeyd olunan əsərdə istifadə olunmuş "Laçın" və "Küçələrə su səpmişəm" Azərbaycan xalq mahnılarını notla ifa etmək təklif olunur.

**20. FRANSIZ BƏSTƏKARININ YARADICILIĞINDA XOCALI MÖVZUSU**



1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və keçmiş SSRİ-nin 366-cı motoatıcı alayı Xocalı şəhərinə hücuma keçdi. Bu terror aktı azərbaycanlılara qarşı törədilmiş soyqırımı kimi tarixə düşdü.

Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla 613 Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsindən 76-sı uşaq olmaqla 487 nəfər yaralandı. 1275 nəfər əsir götürüldü. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.



Xocalı faciəsinə fransız bəstəkarı Pyer Tiloy da öz etirazını bildirərək simfonik orkestr, solo skripka və balaban üçün "Xocalı 613" adlı 4 hissəli musiqi pyesi yazmışdır. Əsərin I hissəsində bəstəkar "Küçələrə su səpmişəm", II hissəsində "Laçın" xalq mahnılarının, III hissəsində isə yallılarımızın intonasiyalarından böyük ustalıqla istifadə etmişdir. Bu əsər ilk dəfə 21 fevral 2013-cü ildə Parisdə "Müqəddəs Roş" kilsəsində ifa olunub. Konsert proqramı dirijor və bəstəkar Loran Petijeraрın rəhbərliyi ilə, Londonun "Orion" orkestrinin iştirakı ilə baş tutmuşdur. Əsərdə balaban partiyasını Şirzad Fətəliyev, skripka partiyasını isə Nyu-Yorkun Culyard məktəbinin ilk azərbaycanlı məzunu Səbinə Rakçeeva ifa etmişdir.

*Musiqi dinləyək*



*Pyer Tiloy*

**"Xocalı 613" musiqi pyesindən I və II hissələr**

2015-ci il iyunun 5-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Lamoureux" orkestrinin bədii rəhbəri Pyer Tiloyun "Xocalı 613" musiqi pyesinin təqdimatı olmuşdur. Əsər Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri tərəfindən ifa edilib. Sonradan bu əsər Avropanın bir sıra ölkələrində də ifa olunmuşdur.

**48**

## DİFERENSİAL TƏLİM

Fransız bəstəkarı Pyer Tiloy haqqında öz fikrini söyləyir. "Laçın" Azərbaycan xalq mahnısından kiçik melodiya parçasını oxuyur.

"Laçın" Azərbaycan xalq mahnısının ritmini əl çalmaqla tutur.

Pyer Tiloyun “Xocalı 613” simfonik orkestr üçün yazılmış əsərində hansı Azərbaycan musiqi alətindən və solo kimi hansı Avropa musiqi alətindən istifadə edildiyi müəyyənləşdirilir, dirijorun adı yada salınır.

*Yeni mahnı öyrənək*

**LAÇIN**

*Azərbaycan xalq mahnısı*

| I | II |
|---|---|
| Araz axar lil ilə, | Bağçamızın barı gül, |
| Dəstə-dəstə gül ilə. | Yarı qönçə, yarı gül. |
| Mən yarımı sevirəm | Gec açıldın, tez soldun, |
| Şirin-şirin dil ilə. | Olmayaydın, barı gül. |

***Nəqərat:***

Ay Laçın, can Laçın!
Mən sənə qurban, Laçın!

*Notla oxuyaq*

**LAÇIN**

*Azərbaycan xalq mahnısı*




**SUAL VƏ TAPŞIRIQLAR:**

*1. “Xocalı 613” əsəri hansı ölkə bəstəkarına məxsusdur?*
*2. “Xocalı 613” əsərində hansı Azərbaycan xalq mahnılarından və xalq musiqisindən istifadə edilmişdir?*
*3. YouTube üzərindən Rəşid Behbudovun ifasında “Küçələrə su səpmişəm” xalq mahnısını dinləyin. Mahnı və Pyer Tiloyun “Xocalı 613” əsəri arasındakı əlaqəni tapın. Axtarış üçün açar sözlər: Rəşid Behbudov, xalq mahnısı “Küçələrə su səpmişəm”.*

49

Belə nəticəyə gəlinir ki, fransız bəstəkarı “Xocalı 613” əsərində Azərbaycan xalq mahnılarından istifadə etməklə bərabər, eyni zamanda balaban Azərbaycan xalq çalğı alətindən və solo kimi Avropa skripka alətindən də istifadə etmişdir.

## YARADICI TƏTBİQETMƏ

**4**

“Laçın” Azərbaycan xalq mahnısı sözlərilə məktəblilərə öyrədilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) Pyer Tiloyun “Xocalı 613” simfonik əsərində hansı Azərbaycan xalq mahnısı istifadə olunub?***

a. Sarı gəlin ☐ b. Laçın ☐ c. Yallı ☐

***2) Pyer Tiloyun “Xocalı 613” adlı simfonik əsəri hansı orkestr üçün yazılıb?***

a. xalq musiqi alətləri ☐ b. simfonik ☐ c. simli ☐

# 21. MÜXTƏLİF DÖVRLƏRDƏ MAHNILARIMIZDA QADIN OBRAZLARI

**MƏQSƏD: 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Xalq mahnıları və mahnı-rəqs işləmələrinin poeziya ilə əlaqəsini izah edir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Bəstəkar F.Əmirovun “Sevil” operasının II pərdəsindən “Sevilin etiraz ariyası” dinlənilir. Bu epizodda Sevil etiraz olaraq öz çadrasını əri Balaşın üzərinə atır. Müəllim bu musiqi epizodunun xarakteri ilə əlaqədar belə bir tədqiqat sualı qoya bilər:

***– Uşaqlar, “Sevilin etiraz ariyası”nın xarakteri necədir?***

Məktəblilər müxtəlif cür cavablar verirlər.

Müəllim məşhur Azərbaycan heykəltaraşları F.Əbdürrəhmanov və A.Hüseynovun Bakı şəhərinin mərkəzində qoyulmuş “Azad qadın” heykəlinin təsvirini şagirdlərə göstərir. Bununla əlaqədar dinlənilən musiqi ilə heykəlin təsvirindəki obrazlar arasındakı oxşarlıq aydınlaşdırılır.

**2**

Bundan sonra müəllim Azərbaycanın müxtəlif dövrlərində Koroğlu, Nəbi kimi xalq qəhrəmanlarının həyat yoldaşları, Nigar və Həcər kimi xanım obrazlarından başlayaraq bu gün bütün dünyada tanınmış, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya qədər olan inkişaf dövründə qadınların vəziyyətindən danışır.

**21. MÜXTƏLİF DÖVRLƏRDƏ MAHNILARIMIZDA QADIN OBRAZLARI**



*“Koroğlu” operasından*



*“Qaçaq Nəbi” filmindən*

Bütün dövrlərdə Azərbaycan qadını zərif olduğu qədər də ağıllı, qətiyyətli, sədaqətli, bacarıqlı və əməksevər olub. Azərbaycan qadını laylasıyla nəsillərin qanına, canına cəsarət, vətənpərvərlik, səmimiyyət hopdurub. İgid oğullar böyüdüb, onlarla çiyin-çiyinə döyüşə, yaşaya və mübarizə apara biləcək qızlar tərbiyə edib. Yurdumuzun şanlı tarixini vərəqləsək, hər səhifəsində qarşımızda bir təkrarsız qadın surəti canlanar: adına möhtəşəm türbə ucaldılan Möminə Xatun, Sara (Saray) Xatun, Tuti Bikə, Xan qızı Natəvan, xalq dastanlarının əfsanəvi qəhrəmanı Koroğlunun Nigarı, Qaçaq Nəbinin Həcəri və digərləri.

Fikrət Əmirovun Cəfər Cabbarlının eyniadlı pyesi əsasında yazdığı “Sevil” operası bir qadının yeni həyat uğrunda mübarizəsini əks etdirən ilk lirik-psixoloji opera oldu. Elə həmin il əsər Mirzə Fətəli Axundov adına Akademik Opera və Balet Teatrında tamaşaya qoyuldu. Sonralar bu əsər Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Kinostudiyasında ekranlaşdırıldı.

*Musiqi dinləyək*

**“Sevil” operasının II pərdəsindən**
**“Sevilin etiraz ariyası”**

Əldə etdiyi azadlıq nəticəsində Azərbaycan qadını iqtisadiyyatda, səhiyyədə, pedaqogikada, incəsənətdə çox böyük uğurlar qazandı. Şair, bəstəkar və rəssamlarımız əmək qəhrəmanlarının, məşhur qadın alimlərin, həkimlərin, siyasətçilərin obrazlarını öz əsərlərində yaratmağa başladılar.

50

Bundan sonra isə “Qaçaq Nəbi” Azərbaycan xalq mahnısı yada salınaraq məktəblilər tərəfindən ifa olunur.

## DİFERENSİAL TƏLİM

Mövzu ilə əlaqədar dinlənilmiş və ifa olunmuş musiqi nümunələri haqqında sərbəst fikir söyləyir. Dinlədiyi və oxuduğu musiqi nümunələrindən bir parça oxuyur.

1. Mövzu ilə əlaqədar şəkil çəkir;
2. Musiqi nümunələrinə ritm tutur.

Müəllimin köməyi ilə şagirdlər mövzu ilə əlaqədar informasiya mübadiləsində iştirak edirlər.

**Bunu da bilin**

***XX əsrin əvvəllərində çadrasını ataraq öz azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan Azərbaycan qadınının səsi artıq XX əsrin sonu — XXI əsrin əvvəllərində UNESCO və ISESCO-nun ali tribunalarından gəlir. O bu gün cəmiyyətin həyatında mühüm rol oynayır. Məhz UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı və Birinci vitse- prezidenti Mehriban Əliyevanın timsalında bu gün müasir qadının cəmiyyətdə rolunu müəyyənləşdirmək olar.***



***Mehriban Əliyeva***

*Mahnını yada salaq və oxuyaq*

**QAÇAQ NƏBİ**

"Qaçaq Nəbi" Azərbaycan xalq mahnısından Qaçaq Nəbinin həyat yoldaşı və silahdaşı Həcər xanıma həsr olunmuş bəndi melodiyası ilə birlikdə oxuyaq.

*Yeni mahnı öyrənək*

**AZƏRBAYCAN ULDUZU**

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Əjdər Ağayevindir.*

**I**

Sən elinin mərd qızı,
Zəkalı övladısan.
Azərbaycan ulduzu –
Şərəfisən, adısan.

***Nəqərat:***
Adın kimi özün də
Mehribansan, mehriban.
Sevirsən uşaqları,
Dilində daim can, can.

**II**

Sevir səni xalqımız,
Ellər sənə can deyir.
Yaşa, var ol, qur-yarat,
Bizim Mehriban, – deyir.

***Nəqərat:***
Tikdirdiyin hər məktəb
Müdriklik əməlidir.
Sağlığında qurduğun
Əbədi heykəlindir.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Hansı Azərbaycan qadınının obrazını musiqi əsərlərində görmək istərdiniz?***
***2. "Sevil" operasında qadın azadlığı uğrunda mübarizə aparan kimdir?***
***3. "Musiqidə qadın obrazları" mövzusunda araşdırma aparın.***

51

Belə nəticəyə gəlinir ki, çox qədim zamanlardan incəsənət xadimləri qadınlara incəsənət əsərləri həsr etmişdir. Bu əsərlər əsrlər boyu Azərbaycan qadınının ən gözəl cəhətlərini tərənnüm etdirə bilmişdir.

## YARADICI TƏTBİQETMƏ

**3**

Oqtay Rəcəbovun şair Əjdər Ağayevin sözlərinə yazdığı "Azərbaycan ulduzu" mahnısı əvvəlcə frazalarla, sonradan bütövlükdə öyrədilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) "Sevil" operasını kim yazmışdır?***

a. C.Cahangirov ☐ b. Q.Qarayev ☐ c. F.Əmirov ☐

***2) "Azərbaycan ulduzu" mahnısının xarakteri necədir?***

a. Qəmli ☐ b. Oynaq ☐ c. Təntənəli ☐

# 22. NOVRUZ BAYRAMI VƏ MUSİQİ

**MƏQSƏD: 1. Azərbaycan musiqi mədəniyyətinin nadir incilərindən olan Novruz bayramına həsr olunmuş musiqi nümunələri arasında oxşarlığı izah edir; 2. Novruza həsr olunmuş mahnıların xarakterinə uyğun rəqsi hərəkətlər edir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Müəllim Novruz bayramı və onun yaranması, uzun minilliklər boyu inkişafı, Novruz bayramının əsas əlamətləri haqqında qısa məlumat verir.

Bundan sonra bəstəkar Oqtay Kazıminin şair Ramiz Heydərin sözlərinə yazdığı "Bayram olsun" mahnısı səsləndirilir. Mahnı səslənən müddətdə şagirdlər əl və bədən hərəkətləri ilə mahnının xarakterini təsvir etməyə çalışırlar.

Tədqiqat sualı kimi ***"Uşaqlar, bu mahnının xarakteri necədir və mahnının sözlərində Novruzla əlaqədar hansı əlamətlər vardır?"*** – verilə bilər. Şagirdlər mahnının şən xarakteri və Novruz şirniyyatları haqqında öz cavablarını verirlər.

**22. NOVRUZ BAYRAMI VƏ MUSİQİ**



Novruz xalqımızın çox sevimli milli bayramıdır. Bəzi qədim inanclara görə kainat dörd ünsürdən – su, od, külək və torpaqdan yaranıb. Xalqımız bu ünsürlərin hər birini simvolizə edən Novruz öncəsi dörd çərşənbəni böyük sevinclə qarşılayır:

**Su çərşənbəsi** – Günəşin hərarətindən buzlar əriyir, çaylara tökülür. Torpaq isinməyə başlayır. Qızlar bulaq başına çıxır, gətirdiyi sudan həyət-bacaya çiləyirlər.

**Od çərşənbəsi** – bahara doğru torpaq isindikdə bar vermək, məhsul bitirmək üçün hazırlanır. Tonqallar qalanır, alov torpağı isidir.

**Yel çərşənbəsi** – yel əsib oyanmış torpağı oxşayır, yaza həsrət budaqlarda tumurcuqlar yumrulanır.

**Torpaq çərşənbəsi** – su ilə islanmış, günəşlə isinmiş, küləklə canlanmış torpaq əkinə hazırdır. İlk yaz əkini torpaq çərşənbəsi günü başlanır.

Bu çərşənbələrdən sonra el Novruzu qarşılayır. Hər yanda bayram şənlikləri keçirilir, xonçalar bəzədilir. Bayram gecəsi hər bir evdə plov bişirilir. Bütün Novruz hazırlıqları bəstəkar Oqtay Kazıminin "Bayram olsun" mahnısında öz əksini tapır.

***Musiqi dinləyək***

**Bayram olsun**

*Musiqisi Oqtay Kazıminin,*
*sözləri Ramiz Heydərindir.*

"Bayram olsun" mahnısı 6/8 metrik ölçüyə malik olub, xaraktercə oynaq, şəndir. "Bayatı-Şiraz" Azərbaycan klassik muğamı intonasiyalarında səslənən bu mahnı, həm də rəqs xarakterli olduğu üçün onun təranələri altında rəqs edilir. Ona görə "Bayram olsun" mahnısını mahnı-rəqs adlandırmaq olar.

**52**

**2**

Şagirdlər üç qrupa bölünür və onlara Mehriban Əhmədovanın "Bayram mahnısı"nın xüsusiyyətləri yazılmış iş vərəqləri paylanılır. I qrup mahnının bayram mövzusunda olması ilə, II qrup mahnının melodiyasının asan yadda qalması ilə, III qrup isə mahnının xarakterinin şən-oynaq olması ilə əlaqədar öz fikirlərini söyləyərək mahnının hansı janra aid olduğunu müəyyənləşdirir.

## DİFERENSİAL TƏLİM

Mahnının xarakteri, xanə ölçüsü, janrı haqda fikir söyləyir.

Mahnının melodiyasından bir parça ifa edir.

↓

1. Mahnının ritmini əl çalmaqla tutur;
2. Novruzla əlaqədar şəkil çəkir.

Bundan sonra Mehriban Əhmədovanın “Bayram mahnısı”ndan bir parça notla ifa edilir. Dinlənilmiş və notla ifa olunmuş hər iki mahnı arasında ritmik, melodik xanə ölçüləri haqqında oxşar cəhətlər müəyyənləşdirilir, bu barədə fikir mübadiləsi edilir, həm də müzakirə aparılır.


*Notla oxuyaq*

**Mehriban Əhmədova.**
**“Bayram mahnısı”ndan bir parça**

*Sözləri Fikrət Qocanındır.*

Allegretto

Bu gün şən bay-ra-mı-dır el-lə-rin, La-lə-lər, bay-ra-ğı-dır çöl-lə-rin. Çöl-lər-dən gül yı-ğa-lım, dost-la-rım, Ça-la-ğın, oy-na-ya-ğın, dost-la-rım.

*Yeni mahnı öyrənək*

**NOVRUZ GƏLİB**

*Musiqisi Cavanşir Quliyevin,*
*sözləri Ramiz Rövşənindir.*

**I**
Novruz gəlib, yaz gəlib,
Bir əlində saz gəlib.
Bir əlində xonçası,
Açıb gülün qönçəsi.

***Nəqərat:***
Bülbülə avaz gəlib, (2)
Novruz gəlib, yaz gəlib. (2)

**II**
Kosa, sən də gəlsənə,
Gəlib salam versənə.
O torbanı ver görək,
Yumurtalar rəngbərəng.

***Nəqərat:***
Hər biri can dərmanı, (2)
Ver dolduraq torbanı. (2)

**III**
Novruza bax, yaza bax,
O əriyən buza bax.
Sellər axır şırhaşır,
Çöllər olub yamyaşıl.

***Nəqərat:***
Ot bitir, yemlik bitir, (2)
Keçəl başa tük bitir. (2)

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. “Bayram olsun” mahnısı haqqında nə bilirsiniz?***
***2. Xalqımız Novruz çərşənbələrini necə bayram edir?***
***3. Novruzun qəhrəmanları “Keçəl, Kosa və Bahar qız” haqqında danışın.***

53

Belə nəticəyə gəlinir ki, Novruz xalqımızın milli bayramıdır və o, mahnılarda, musiqi əsərlərində öz əksini tapmışdır.

## YARADICI TƏTBİQETMƏ

**3**

Bəstəkar Cavanşir Quliyevin şair Ramiz Rövşənin sözlərinə yazdığı “Novruz gəlib” mahnısı əvvəlcə frazalarla, sonradan bütövlükdə şagirdlərə öyrədilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) Novruz bayramına həsr olunmuş mahnıların xarakteri necədir?***

a. Qəmli ☐ b. Təntənəli ☐ c. Rəqsvari ☐

***2) C.Quliyevin “Novruz gəlib” mahnısı hansı rəqsə yaxındır?***

a. Yallı ☐ b. Cəngi ☐

# 23. “ŞÜŞTƏR” MUĞAMI

**MƏQSƏD: 1. “Şüştər” muğamı haqqında biliklərini nümayiş etdirir; 2. “Şüştər” muğamına əsaslanan bəstəkar musiqisi haqqında fikir söyləyir; 3. “Şüştər” muğamına əsaslanan zərbi-muğamları fərqləndirir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Kamança musiqi alətinin ifasında “Şüştər” muğamının “Mayeyi-Şüştər” şöbəsi səsləndirilir. Dinlənilən muğam parçasından kiçik bir hissə notla ifa olunur. Daha sonra “Şüştər” muğam parçasına oxşar olan bəstəkar F.Əmirovun “Sevil” operasının II pərdəsindən “Sevilin ariyası” dinlənilir.

**2**

Müəllim şagirdlərə aşağıdakı tədqiqat sualı ilə müraciət edə bilər:

***– Uşaqlar, “Şüştər” muğamında dinlədiyiniz “Mayeyi-Şüştər” şöbəsinin melodiyası və “Sevilin ariyası” arasında oxşarlıq vardırmı?***

Məktəblilər müxtəlif cavablar verirlər:

– Muğamdakı ilk musiqi frazaları “Sevilin ariyası”ndakı ilk frazalara oxşayır.

– Bəstəkar F.Əmirov əsərində “Şüştər” muğamından istifadə etmişdir.

Beləliklə, aydın olur ki, bəstəkarlarımız da öz yaradıcılıqlarında xalq musiqimizə, xüsusən də muğamlarımıza istinad edirlər.

23. ŞÜŞTƏR MUĞAMI



*Arif Babayev*



*Mirnazim Əsədullayev*



*Alim Qasımov*

“Şüştər” əsas Azərbaycan muğam dəsgahlarına aiddir. “Şüştər” bir muğam növü olmaqla, eyni zamanda dünya, kainat mənasını verir. Üzeyir Hacıbəyli “Şüştər” haqqında yazır: “Bədii-ruhi təsir cəhətdən bu muğam dinləyicidə dərin kədər hissi oyadır”. Bu muğamda xalqımızın keşməkeşlərlə dolu həyatı bir anlığa göz önünə gəlir. Onu da əlavə edək ki, “Şüştər”i dinlədikdə insan xəyala dalır, düşünür. Bu muğamın bəzi bölmələri insanda ruh yüksəkliyi də yaradır.

“Şüştər” məqam-lad kimi də Azərbaycanda təşəkkül tapmış yeddi əsas məqam-laddan biridir. Bir çox xalq mahnı və rəqsləri, həmçinin təsnif və rənglər, eləcə də “Ovşarı”, “Heydəri” kimi zərbi-muğamlar məhz “Şüştər” ladına əsaslanır. Hazırda xanəndələr və sazəndələr tərəfindən ifa olunan “Şüştər” daha da cilalanmış və müstəqil muğam dəsgahına çevrilmişdir.

“Şüştər”in ifası bəmdən deyil, səsin orta diapazonundan başlayır və sonra birbaşa zilə keçir. “Şüştər”in ən gözəl ifaçısı mərhum muğam ustadı Seyid Şuşinski olub.

Arif Babayev, Canəli Əkbərov, Alim Qasımov kimi xanəndələrimiz bu muğamı özünəməxsus temperament və incəliklə oxuyurlar. “Şüştər” muğamının instrumental şəkildə konsert ifası da dəb halını almışdır. Bu muğamın kamança və balaban musiqi alətlərində ifası daha geniş yayılmışdır. Bu musiqi alətlərində “Şüştər” olduqca təravətli, yumşaq səslənir, qəlbləri riqqətə gətirir.

*“Şüştər” ladının səs sırasını notla oxuyaq*



*Musiqi dinləyək*

**“Şüştər” muğamından “Mayeyi-Şüştər”**

*Kamançada ifa edir Mirnazim Əsədullayev*

**56**

## DİFERENSİAL TƏLİM

Muğam və F.Əmirovun yaradıcılığında onun yeri haqqında fikir söyləyir.

“Şüştər” muğamından melodik frazanı notla oxuyur.

Tanıdığı muğamların adlarını söyləyir.

"Şüştər" muğamından bir parça dinlənildikdən sonra bu oxşarlıq ətrafında fikir mübadiləsi aparılır və bu mövzuda müzakirə təşkil olunur.

*Bunu da bilin*

***Bəstəkarlarımız çox zaman xalq musiqi nümunələrindən, o cümlədən muğamlarımızdan öz əsərlərində istifadə edirlər. Məsələn, Üzeyir Hacıbəyli "Arşın mal alan" operettasının dördüncü pərdəsindəki "Gülçöhrənin ariyası (naləsində)"nda məhz "Şüştər" muğamından istifadə edib.***

*Musiqi dinləyək*

**Üzeyir Hacıbəyli. "Arşın mal alan".**
**IV pərdə. "Gülçöhrənin ariyası (naləsi)"**



***Leyla Bədirbəyli Gülçöhrə rolunda***

*Yeni mahnı öyrənək*

**ANA KÜR**

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Teymur Elçinindir.*

**I**

Təpələrdən, dərələrdən axan Kür,
Dalğa-dalğa baş qaldırıb baxan Kür,
Sinəsinə ulduzları taxan Kür.

***Nəqərat:***
Söhbətin şirin olur,
Suların sərin olur.
Ürəyimə tökülür,
Ana Kür, ana Kür.

**II**

Gürcüstanı qucaqlayan qolumsan,
Qardaş elə gur işıqlı yolumsan,
Sədaqətlə, məhəbbətlə dolmusan.
***Nəqərat:***

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. "Şüştər" muğamı haqqında nə bilirsiniz?***
***2. Kim öz operettasında "Şüştər" muğamının intonasiyasından istifadə edib?***
***3. YouTube üzərindən "Dəli Kür" filmindən Gülağa Məmmədovun ifasında Cahangir Cahangirovun "Ana Kür" mahnısını dinləyin və Tofiq Quliyevin "Ana Kür" mahnısı ilə müqayisə edin. Axtarış üçün açar sözlər: Gülağa Məmmədov, "Ana Kür".***

**57**

Belə nəticəyə gəlinir ki, Azərbaycanın həm xalq, həm də professional musiqisi bilavasitə muğamlarımıza əsaslanır.

## YARADICI TƏTBİQETMƏ

**3**

Bəstəkar Tofiq Quliyevin şair Teymur Elçinin sözlərinə yazdığı "Ana Kür" mahnısı öyrədilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) "Şüştər" muğamı hansı musiqi alətində daha gözəl səslənir?***

a. Tar ☐ b. Kamança ☐ c. Tütək ☐

***2) Müasir dövrdə "Şüştər" muğamının ən mahir ifaçısı kimdir?***

a. Arif Babayev ☐ b. Canəli Əkbərov ☐ c. Alim Qasımov ☐

# 24. AZƏRBAYCAN MUĞAMLARI VƏ XOR

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Azərbaycan muğamlarına dair bilik və bacarıqlarını nümayiş etdirir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

N.Əliverdibəyovun müşayiətsiz xor (a kapella) kollektivi üçün yazılmış "Bayatı-Şiraz" əsərindən bir parça səsləndirilir.

Bundan sonra müəllim "a kapella" haqqında məlumat verir. Dinlənilən əsərin müəllifi Nazim Əliverdibəyovun bu əsəri və onun ifa tərzi haqqında məlumat verən müəllim sonradan bəstəkarın adı çəkilən əsərinin orqan musiqi aləti üçün olan variantından da bir parça səsləndirir.

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz bu iki musiqi nümunəsi haqqında nə deyə bilərsiniz?"*** – verilə bilər.

**2**

Müəllim sinfi 2 qrupa bölərək Venn diaqramı çəkilmiş iş vərəqlərini şagirdlərə paylayır. I qrupa iki əsərdəki oxşar cəhətləri, II qrupa isə fərqli cəhətləri təyin etmək tapşırığı verir. Tapşırığın nəticəsindən məlum olur ki, hər iki dinlənilən əsərin melodiyası və ona olan müşayiət eynidir, lakin ifa tərzləri müxtəlifdir.

**3**

Sonra alman bəstəkarı İ.S.Baxın "Orqan üçün re minor Tokkata və Fuqa" əsərinin "Tokkata" hissəsindən bir parça səsləndirilir və N.Əliverdibəyovun "Bayatı-Şiraz" (a kapella) əsərindən bir parça notla ifa olunur.

**24. AZƏRBAYCAN MUĞAMLARI VƏ XOR**

*Musiqi dinləyək*

**Nazim Əliverdibəyov.**
**"Bayatı-Şiraz" (a kapella üçün)**
**"Bayatı-Şiraz" (orqan aləti üçün)**



*Nazim Əliverdibəyov*

Klassik muğamlar Azərbaycan xalq üçlüyü, xalq çalğı alətləri ansamblının müşayiəti ilə xanəndə tərəfindən ifa olunmaqla bərabər, həm də solo instrumental şəkildə (ayrı-ayrı Azərbaycan xalq çalğı alətlərinin ifasında) ifa olunur.

Bunlardan əlavə, muğamlarımızın xor kollektivi (a kapella) tərəfindən ifa variantları da mövcuddur. Bu əsərləri respublikamızda ilk dəfə yaradan istedadlı bəstəkar Nazim Əliverdibəyov ("Bayatı-Şiraz") və bəstəkar Oqtay Rəcəbov ("Segah") olmuşlar. Nazim Əliverdibəyov, eyni zamanda "Bayatı-Şiraz" muğamını orqan aləti üçün də işləmişdir.



*A kapella*

***Bunu da bilin***

***Dahi alman bəstəkarı İ.S.Baxın "Orqan üçün re minor Tokkata və Fuqa" əsərində də Azərbaycan klassik muğamı olan "Bayatı-Şiraz"ın intonasiyaları duyulur.***

*Musiqi dinləyək*

**İ.S.Bax. "Orqan üçün re minor Tokkata və Fuqa" əsərindən bir parça**

58

## DİFERENSİAL TƏLİM

N.Əliverdibəyovun və İ.S.Baxın təqdim olunmuş əsərləri haqqında fikir mübadiləsi edir. Təqdim olunmuş əsərlərdən musiqi frazalarını notla oxuyur.

1. Əsərlərdəki ritmik parçalara əl çalmaqla ritm tutur;
2. Bəstəkarların adlarını söyləyir.

Dinlənilmiş musiqi əsərlərinin “Bayatı-Şiraz” muğamı ilə olan əlaqələri haqqında fikir mübadiləsi aparılır və mövzuya uyğun müzakirə təşkil olunur.


*Notla oxuyaq*

**Nazim Əliverdibəyov.**
**“Bayatı-Şiraz” (a kapella) əsərindən melodiya**



***Bunu da bilin***

***Vokal musiqisi təksəsli olmaqla bərabər, həm də iki, daha çox səsli şəklində ifa oluna bilər. Səslər öz əlamətlərinə görə müxtəlif olur. Uşaq xorunda yüksək zil səslər diskant, qadın xorunda soprano, kişi xorunda isə tenor adlanır.***

***Aşağı bəm səslər uşaq və qadın xorunda alt, kişi xorunda isə bariton, bas adlanır. Əgər xor kollektivi müşayiətsiz oxuyursa, ona “a kapella” deyilir.***

*Yeni mahnı öyrənək*

**BAHAR NƏĞMƏSİ**

*Musiqisi və sözləri Üzeyir Hacıbəylinindir.*

I
Qanad çal çəmənlərdə, süz, bahar!
Ellərə gəl, incilər düz, bahar!
Bülbül öpüb gülləri, dost desin,
Gül qızartsın busədən üz, bahar.

II
Gəz, dolan gülüstanı yel kimi,
Danışdır könülləri tel kimi.
Sevinc ver, sevinc gətir hər elə,
Sevinsin aləm bu şən el kimi.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Muğam əsasında yazılmış ilk xor əsərləri hansı bəstəkarlara məxsusdur?***
***2. İ.S.Baxın hansı əsərində “Bayatı-Şiraz” muğamının intonasiyaları duyulur?***
***3. A kapella nədir?***
***4. Qadın, kişi və uşaq xorunda zil və bəm səslər necə adlanır? Bu haqda danışın.***

**59**

Nəticə olaraq məktəblilər belə bir fikrə gəlirlər ki, Azərbaycan bəstəkarları bir çox muğamlar kimi “Bayatı-Şiraz” muğamından da xor üçün olan əsərlərində istifadə etmişlər.

## YARADICI TƏTBİQETMƏ

**4**

Musiqisi və sözləri Üzeyir Hacıbəyliyə məxsus olan “Bahar nəğməsi” mahnısı öyrədilir. Onun xarakteri, xanə ölçüsü, tonallığı müəyyənləşdirilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) N.Əliverdibəyovun “Bayatı-Şiraz” a kapella əsərinin xarakteri necədir?***

a. Şən ☐  b. Lirik ☐  c. Qəmli ☐

***2) İ.S.Baxın “Orqan üçün re minor Tokkata və Fuqa” əsərində hansı Azərbaycan klassik muğamının intonasiyaları duyulur?***

a. Segah ☐  b. Çahargah ☐  c. Bayatı-Şiraz ☐

# 25. AZƏRBAYCAN MUĞAMLARI VƏ SİMFONİK ORKESTR

**MƏQSƏD: 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında bilikləri izah edir; 2. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şərh edir.**

**Bu mövzunu aydınlaşdırmaq üçün müəllimlərə Venn diaqramı, beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**



25. AZƏRBAYCAN MUĞAMLARI VƏ SİMFONİK ORKESTR

*Fikrət Əmirov* *Niyazi* *Süleyman Ələsgərov*

Azərbaycan klassik muğamlarının bir qismi simfonik orkestrin ifasında da səslənir ki, buna simfonik muğamlar deyilir. Simfonik muğam janrının ilk yaradıcısı böyük Azərbaycan bəstəkarı Fikrət Əmirov olmuşdur. Böyük bəstəkar “Kürd-Ovşarı” və “Şur” simfonik muğamlarına görə “Dövlət mükafatı”na layiq görülmüşdür

*Simfonik orkestr*

60

**1**

Müəllim dünya musiqi mədəniyyəti tarixində simfonik muğam janrının böyük bəstəkar F.Əmirova məxsus olması haqda məlumat verir. “Kürd-Ovşarı” və “Şur” simfonik muğamlarını bəstəkar F.Əmirov yaratdıqdan sonra Niyazi, S.Ələsgərov kimi Azərbaycan bəstəkarları da “Rast” və “Bayatı-Şiraz” simfonik muğamlarını yaradır. Bu haqda məlumat verildikdən sonra şagirdlər “Kürd-Ovşarı” simfonik muğamının “Kürdü” şöbəsini dinləyirlər, daha sonra isə həmin şöbənin melodiyasından bir parçanı notla oxuyurlar. Sonra “Kürdü” şöbəsi tar musiqi alətinin ifasında səslənir.

Tədqiqat sualı kimi “***Dinlədiyiniz “Kürdü” şöbəsinin 2 cür ifası arasında oxşar və fərqli cəhətlər vardırmı?”*** – verilə bilər.

Belə nəticəyə gəlinir ki, Azərbaycan bəstəkarları dünya musiqi mədəniyyətinə simfonik muğam adlanan yeni musiqi janrı hədiyyə etmişdir.

## DİFERENSİAL TƏLİM

Simfonik muğam haqqında öz fikrini söyləyir.

Simfonik muğamdan melodiyanı notla oxuyur.

1. Muğam melodiyasının ritmini tutur;
2. Simfonik muğam yazan bəstəkarların adlarını söyləyir.

**2**

Tədqiqatın aparılması üçün sinfi iki qrupa bölməklə Venn diaqramı çəkilmiş iş vərəqləri şagirdlərə paylanılır. I qrupa dinlənilən musiqi nümunələrində oxşar, II qrupa isə fərqli cəhətləri Venn diaqramında yazmaq tapşırılır və cavablar aydınlaşdırılır, həm də lövhədəki cavablarla müqayisə olunur.

“Şur” simfonik muğamının girişindən bir melodiya parçası ikisəsli şəklində notla ifa olunur və xanə ölçüsünə uyğun dirijorluq edilir.

Dinlənilən və notla ifa olunan musiqi nümunələri ətrafında informasiya mübadiləsi aparılır və bu mövzuda müzakirə təşkil olunur.

Sonralar böyük dirijor və bəstəkar, maestro Niyazi “Rast”, ondan bir qədər sonra isə Xalq artisti, bəstəkar Süleyman Ələsgərov “Bayatı-Şiraz” simfonik muğamlarını araya-ərsəyə gətirdilər. XX əsrin sonları, XXI əsrin əvvəllərində bəstəkar Tofiq Bakıxanovun “Nəva”, “Hümayun”, “Dügah”, Vasif Adıgözəlovun “Segah” simfonik muğamları da işıq üzü gördü.

Şərq musiqisi Qərb simfonik orkestrinin ifasında çox ecazkar səslənir. Məhz bu baxımdan bu simfonik muğamlar çoxlu sayda Avropa ölkələrində və ABŞ-da dəfələrlə səslənərək dinləyiciləri heyran etdi.

*Musiqi dinləyək*

**Fikrət Əmirov. “Kürd-Ovşarı” simfonik muğamından bir parça**

*Notla oxuyaq*

**“Kürdü” şöbəsinin melodiyası**




**“Şur” simfonik muğamının girişindən bir parça**






“Şur” simfonik muğamında Azərbaycanın zəngin təbiəti musiqi dili vasitəsilə çox gözəl təsvir olunur.



**Bunu da bilin**

***Ən iri diapazona malik olan orkestr simfonik orkestrdir və onun tərkibində dörd qrup musiqi aləti olur:***
***1) Simli musiqi alətlər qrupu: skripkalar, altlar, violonçellər, kontrabaslar;***
***2) Ağac nəfəs alətləri qrupu: fleyta, qoboy, klarnet, faqot;***
***3) Mis nəfəs alətləri qrupu: valtoma, truba, trombon və tuba;***
***4) Zərb musiqi alətləri qrupu: litavralar, cürbəcür barabanlar, ksilofon, çelesta, vibrafon və s.***

*Yeni mahnı öyrənək*

**ŞƏNLİK MAHNISI**

*Musiqisi Musa Mirzəyevin,*
*sözləri Hikmət Ziyanındır.*

**I**
Gəlin, gəlin, uşaqlar,
Şənlik edək biz yenə.
Şirin nəğmə oxuyaq
Bu sevimli Vətənə.

***Nəqərat:***
Görün necə bəxtiyar,
Gözəl günlərimiz var. (2)

**II**
Qarmon səsi çağırır
Bu gün bizi şənliyə.
Təzə mahnı oxuyaq,
Olsun sizə hədiyyə!

***Nəqərat:***
Görün necə bəxtiyar,
Gözəl günlərimiz var. (2)

**III**
Süfrəmizdə qoy olsun
Təbiətin neməti.
Min illərlə yaşasın
Azərbaycan milləti.

***Nəqərat:***
Görün necə bəxtiyar,
Gözəl günlərimiz var. (2)

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Hansı simfonik muğamları tanıyırsınız?***
***2. İlk simfonik muğamlar və onu yaradan bəstəkar haqqında nə bilirsiniz?***
***3. Simfonik orkestr haqqında nə bilirsiniz?***
***4. Dinlədiyiniz simfonik muğamlar haqqında danışın.***



## YARADICI TƏTBİQETMƏ

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində; 2. Şagirdlər fərdi şəkildə.

**3**

Bəstəkar Musa Mirzəyevin şair Hikmət Ziyanın sözlərinə yazdığı “Şənlik mahnısı” öyrədilir.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) Simfonik muğam janrı hansı ölkəyə məxsusdur?***

a. Rusiya ☐ b. Türkiyə ☐ c. Azərbaycan ☐

***2) “Şur” və “Kürd-Ovşarı” simfonik muğamlarını kim yaratmışdır?***

a. Niyazi ☐ b. S.Ələsgərov ☐ c. F.Əmirov ☐

# 26. MUĞAMLAR VƏ MİLLİ AZƏRBAYCAN OPERASI

**MƏQSƏD: 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Azərbaycan bəstəkarlarının xaraktercə eyni olan əsərlərini fərqləndirir.**

**Bu mövzunun öyrənilməsində şaxələndirmə, beyin həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə məsləhət görülür.**


26. MUĞAMLAR VƏ MİLLİ AZƏRBAYCAN OPERASI

**Muğam-opera** – muğamla işlənmiş səhnə əsəridir. Bu janrın dünyada ilk yaradıcısı Üzeyir Hacıbəylidir. O, Azərbaycan muğamlarından bəhrələnərək 6 muğam operası yaratmışdır. Üzeyir Hacıbəylinin muğam operaları aşağıdakı sxemdə öz əksini belə tapmışdır.



1908-ci ilin 25 yanvar günü Azərbaycan professional musiqi mədəniyyəti tarixinə qızıl hərflərlə yazılmışdır. Məhz bu gün dahi bəstəkarımız Üzeyir Hacıbəylinin Məhəmməd Füzulinin poeması əsasında yazdığı “Leyli və Məcnun” operası Bakıda milyonçu Hacı Zeynalabdin Tağıyevin teatrında tamaşaya qoyuldu. Bununla da Azərbaycanda və bütün Şərqdə opera sənətinin bünövrəsi qoyuldu.

*Məhəmməd Füzuli* — *Üzeyir Hacıbəyli* — *Əbdürrəhim bəy Haqverdiyev*

63

**1**

Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operasının I pərdəsindən Qeyslə atasının muğam ilə ifalarından bir parça dinlənilir.

Bundan sonra müəllim şaxələndirmə üsulu ilə yaradılmış plakatlarda Ü.Hacıbəylinin muğam operalarının adları olan sxemlə və muğam operası yaratmış digər Azərbaycan bəstəkarları haqdakı sxemlə məktəbliləri tanış edir.

Tədqiqat sualı kimi ***“İlk muğam operasını kim yaratmışdır?”*** – verilə bilər. Bu suala şaxələndirmə sxeminin köməyi ilə cavab tapıla bilər.

Belə nəticəyə gəlinir ki, opera kimi bir mürəkkəb musiqi janrını dinləyicilərə sevdirmək üçün bəstəkar Ü.Hacıbəyli və digərləri muğamlardan istifadə etmişlər.

**2**

Tədqiqatın aparılması üçün şagirdlərə üzərində şaxələndirmə sxemləri əksini tapmış iş vərəqləri verilir və bu sxemlərə görə 2 qrupa bölünmüş şagirdlər uyğun olaraq bəstəkarın və operanın adını təyin edirlər. Müəllim şagirdlərin cavablarını lövhədə asılmış şaxələndirmə sxemləri ilə müqayisə edir.

Ş.Axundovanın “Gəlin qayası” muğam operasından “Gülbaharın mahnısı” notla ifa olunur.

## DİFERENSİAL TƏLİM

Muğam operaları haqqında sərbəst fikir söyləyir. Notla muğam operasından musiqi frazalarını oxuyur.

1. Muğam operaları yaratmış bəstəkarların adlarını söyləyir;
2. Mövzuya uyğun şəkil çəkir.

Operada muğamdan istifadə olunması ətrafında informasiya mübadiləsi aparılır və bu mövzuda müzakirə təşkil olunur.



Hüseyn Ərəblinski



Hüseynqulu Sarabski

O gündən bu günədək 100 ildən artıqdır ki, bu opera səhnədədir. Operanın ilk tamaşasının dirijoru tanınmış dramaturq və yazıçı Əbdürrəhim bəy Haqverdiyev, rejissoru Hüseyn Ərəblinski, Məcnun rolunun ifaçısı aktyor Hüseynqulu Sarabski, Leyli rolunu oynayan gənc çayçı oğlan Əbdürrəhim Fərəcov idi.

Üzeyir Hacıbəyli özü isə orkestrdə skripka çalırdı. Bəstəkar operada muğamlardan geniş istifadə etdiyi üçün opera muğam-opera adlanır. Operada muğamlarla yanaşı, mərsiyələrdən, xalq rəqslərindən də istifadə edilmişdir.

*Musiqi dinləyək*

**Ü.Hacıbəyli. “Leyli və Məcnun” operasının I pərdəsindən Qeyslə (Məcnunla) atasının muğam üstündə ifalarından bir parça**

***Bunu da bilin***

***Bu operadan sonra bəstəkar Müslüm Maqomayev özünün “Şah İsmayıl” operasında Üzeyir Hacıbəylinin ənənələrini davam etdirərək muğamlardan istifadə etdi.***

***Zülfüqar Hacıbəyovun “Aşıq Qərib”, Cahangir Cahangirovun “Xanəndənin taleyi”, Şəfiqə Axundovanın “Gəlin qayası” operalarında da muğamlardan geniş istifadə olunmuşdur.***

***O zaman səhnədə qadın aktrisalar olmadığından qadın rollarını kişilər ifa edirdi. “Leyli və Məcnun”un sonrakı tamaşalarında Leyli rolunu Əhməd Ağdamski oynayırdı.***



*Hüseynqulu Sarabski Məcnun rolunda*

64

*Mahnını notla və sözləri ilə oxuyaq*

**Ş.Axundova. “Gəlin qayası” operasından “Gülbaharın mahnısı”**




*Mahnını yada salaq və oxuyaq*

**VƏTƏNİMSƏN**

*Musiqisi Ramiz Mirişlinin, sözləri Fikrət Qocanındır.*

**I**

Dağ gülləri min rəng çalır xalı kimi,
Bənövşələr gözəllərin xalı kimi.
Nəğmələr də dodaqların balı kimi
Şirinləyir dodaqları səhər-axşam.

***Nəqərat:***
Ana torpaq, ana diyar, sən mənimsən,
Ömrüm, günüm, ruhum, canım, Vətənimsən.

**II**

Göllərində öz şəklini ceyran öpər,
Örpək kimi dumanları dağlar örtər.
Dağlarının ağ saçından zaman ötər,
Abşeronun Xəzər üstə yanan bir şam.
***Nəqərat:***



**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Muğam-operada muğamlarla yanaşı, daha hansı ədəbi və musiqi janrlarından istifadə edilir?***
***2. İlk muğam-opera nə vaxt və kim tərəfindən yazılmışdır?***
***3. “Vətənimsən” mahnısında Vətənin tərənnümü haqqında danışın.***

65

## YARADICI TƏTBİQETMƏ

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində; 2. Şagirdlər fərdi şəkildə.

**3**

Bəstəkar Ramiz Mirişlinin şair Fikrət Qocanın sözlərinə yazdığı “Vətənimsən” mahnısı əvvəlcə misralarla, sonradan bütövlükdə öyrədilir. Şagirdlər mahnının xarakteri, xanə ölçüsü və yazıldığı tonallıqla əlaqədar öz fikirlərini söyləyirlər.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) İlk operanı Azərbaycanda kim yaratmışdır?***

a. M.Maqomayev ☐ b. C.Hacıbəyov ☐ c. Ü.Hacıbəyli ☐

***2) Azərbaycanda ilk opera yazan qadın bəstəkar kimdir?***

a. A.Rzayeva ☐ b. Ş.Axundova ☐ c. R.Qasımova ☐

# 27. AZƏRBAYCAN XALQ RƏQSLƏRİ VƏ BALET

**MƏQSƏD: 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Azərbaycan bəstəkarlarının xalq mahnı və rəqslərinin fortepiano üçün işləmələrinə münasibət bildirir.**

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə, müzakirə, Venn diaqramı kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**



27. AZƏRBAYCAN XALQ RƏQSLƏRİ VƏ BALET

XVIII əsrin əvvəllərində İtaliya, Fransa və s. kimi ölkələrdə sərbəst janra çevrilən balet latıncadan "ballo", yəni "rəqs edirəm" sözündən götürülən səhnə əsəridir. Musiqinin balet janrında çox böyük rolu vardır. Belə ki, baletdə musiqi rəqs və pantomimanı müşayiət etməklə bərabər, eyni zamanda əsərin dramatik məzmununu özündə əks etdirir. Azərbaycan baletinin yaranma tarixi Xalq artisti, bəstəkar Əfrasiyab Bədəlbəylinin adı ilə bağlıdır. Bəstəkar "Qız qalası" baleti ilə Azərbaycanda bu janrın əsasını qoydu.

*Əfrasiyab Bədəlbəyli*

"Qız qalası" baletində bəstəkar xalq mahnılarımızdan, muğam təsniflərindən, həm də Azərbaycan xalq rəqslərindən geniş istifadə etmişdir. Məsələn, mahnı-rəqs janrında olan "Ay bəri bax", sırf Azərbaycan xalq rəqsi olan "Şalaxo", "Tərəkəmə", "Kikican" kimi musiqi nümunələri simfonik orkestrin ifasında "Qız qalası" baletinə xüsusi gözəllik verir.

Bəstəkarın Məmməd Səid Ordubadinin librettosu əsasında yazdığı "Nizami", özünün librettosu əsasında "Söyüdlər ağlamaz" operaları, Nəsiminin qəzəlləri əsasında "Xoreoqrafik freskalar" və s. əsərləri dinləyicilərin böyük rəğbətini qazanmışdır.



*Musiqi dinləyək*

**"Tərəkəmə" Azərbaycan xalq rəqsindən bir parça**



66

**1**

Xalq çalğı alətlərindən birinin ifasında "Tərəkəmə" Azərbaycan xalq rəqsi səsləndirilir. Bundan sonra Ə.Bədəlbəylinin "Qız qalası" baletindən "Tərəkəmə" rəqsi səsləndirilir və baletdən həmin səhnəyə şagirdlər eyni zamanda tamaşa edirlər.

Tədqiqat sualı kimi ***"Uşaqlar, dinlədiyiniz bu iki musiqi nümunəsi ilə əlaqədar nə deyə bilərsiniz?"*** – verilə bilər.

**2**

Müəllim Venn diaqramı çəkilmiş iş vərəqlərini sinfi iki qrupa bölməklə paylayır.

I qrupa bu musiqi nümunələri arasındakı oxşarlığı, II qrupa isə fərqli cəhətləri araşdırmaq tapşırılır.

Müəllimin köməyi ilə melodiyanın oxşar olması və ifa tərzinin müxtəlifliyi aydınlaşdırılır.

## DİFERENSİAL TƏLİM

Azərbaycan xalq rəqslərinin balet janrında istifadəsinə dair fikir söyləyir.

Dinlədiyi rəqsin melodiyasını oxuyur.

1. Dinlədiyi rəqslərin ritmini əl çalmaqla tutur;
2. Rəqslərin adlarını söyləyir.

“Qız qalası” baletindən “Şalaxo” rəqsindən bir parçanı dinlədikdən sonra mövzu ilə əlaqədar fikir mübadiləsi aparılır və müzakirə təşkil edilir.

Hər iki musiqinin melodiyası eyni olsa da, ifa tərzləri müxtəlifdir. Əgər tək bir musiqi alətinin ifasında “Tərəkəmə” və “Şalaxo” rəqsləri, sadəcə, bir və ya bir neçə rəqqasın rəqsini müşayiət edirsə, simfonik orkestrin ifasında səslənən bu rəqsdə xüsusi təravət, incəlik, dolğun səslənmə duyulur.

***Bunu da bilin***

***Qara Qarayevin “Yeddi gözəl” və “İldırımlı yollarla”, Fikrət Əmirovun “1001 gecə”, Arif Məlikovun “Məhəbbət əfsanəsi” əsərləri dünya baleti sənətinin qızıl fonduna daxil edilmişdir.***

*Musiqi dinləyək*

**Ə.Bədəlbəyli. “Qız qalası” baleti.**
**“Şalaxo” rəqsindən bir parça**

*Yeni mahnı öyrənək*

**AY BƏRİ BAX**
*(Azərbaycan xalq mahnısı)*

**I**
Pəncərədən daş gəlir,
Ay bəri bax, bəri bax.
Xumar gözdən yaş gəlir,
Ay bəri bax, bəri bax.

**II**
Səni mənə versələr,
Ay bəri bax, bəri bax.
Hamıya da xoş gələr,
Ay bəri bax, bəri bax.

***Nəqərat:***
Bəri bax... ay bəri bax,
Bəri bax... ay bəri bax,
Bəri bax, ay bəri bax, bəri bax...

**III**
Pəncərənin milləri,
Ay bəri bax, bəri bax.
Açıb qızıl gülləri,
Ay bəri bax, bəri bax.

**IV**
Oğlanı yoldan eylər,
Ay bəri bax, bəri bax.
Qızın şirin dilləri,
Ay bəri bax, bəri bax...

***Nəqərat:***

“Ay bəri bax” xalq mahnısından Əfrasiyab Bədəlbəyli “Qız qalası” baletində istifadə etmişdir. “Ay bəri bax” mahnı-rəqs janrındadır.

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Balet nədir?***
***2. “Qız qalası” baleti haqqında nə bilirsiniz?***
***3. “Mahnılar və onların irihəcmli musiqi əsərlərində rolu” haqqında danışın.***

67

Belə bir nəticəyə gəlinir ki, balet kimi ciddi və mürəkkəb janra dinləyicilərin marağını artırmaq üçün bəstəkarlar hamıya məlum olan xalq rəqslərindən istifadə etmişlər.

## YARADICI TƏTBİQETMƏ

**3**

“Ay bəri bax” Azərbaycan xalq mahnısı öyrədilir. Mahnının məzmunu şərh edilir.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) Azərbaycanda ilk balet janrını yaradan bəstəkar kimdir?***

a. Q.Qarayev ☐ b. A.Məlikov ☐ c. Ə.Bədəlbəyli ☐

***2) “Ay bəri bax” mahnısının xarakteri necədir?***

a. Qəmli ☐ b. Şən, oynaq ☐ c. Kədərli ☐

# 28. AZƏRBAYCAN XALQ MUSİQİSİ VƏ OPERETTA

**MƏQSƏD: 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Xalq mahnıları və mahnı-rəqs işləmələrinin poeziya ilə əlaqəsini izah edir.**

**Bu mövzunun öyrənilməsində bilik həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Ü.Hacıbəylinin "O olmasın, bu olsun" (Məşədi İbad) musiqili komediyasından Məşədi İbad və Gülnazla Sənəmin triosu dinlənilir.

**2**

Tədqiqat sualı kimi ***"Əvvəlki dərs illərində bu operettada hansı Azərbaycan xalq rəqslərindən istifadə olunduğunu yada salın və rəqslərin adlarını söyləyin"*** – verilə bilər.

Müəllim vokal trio barəsində məlumat verir. Bundan sonra "Hüsnü bağında" adlı Cənubi Azərbaycanda geniş yayılmış xalq mahnısı notla və sözləri ilə ifa olunur. Şagirdlərin diqqətinə çatdırılır ki, bu əsərdəki "Hamamın içində" adlı mahnı da Cənubi Azərbaycan aşıqlarının yaradıcılığına məxsusdur və dahi Ü.Hacıbəyli onun melodiyasından yaratdığı operettada istifadə etmişdir. Bu mahnılar respublikamızda "Hüsnü bağında" və "Abşeron rəqsi" adı ilə geniş yayılmışdır.

Bunun üçün müəllim "O olmasın, bu olsun" operettasından "Məşədi İbadın mahnısı"nı və "Məşədi İbadla Rüstəm bəyin dueti"ni səsləndirir. Şagirdlərə iki musiqi parçası arasındakı oxşar və fərqli cəhətləri yazmaq tapşırılır. Cavablar hazır olduqdan sonra müəllimin lövhədə yazdığı cavabla müqayisə edilir.

28. AZƏRBAYCAN XALQ MUSİQİSİ VƏ OPERETTA

**Operetta** komediya məzmunlu, simfonik orkestrin müşayiəti ilə musiqili-rəqs səhnələrindən və danışıq epizodlarından ibarət səhnə əsəridir. XIX əsrin ortalarında Fransada yaranan və sərbəst janr kimi məşhurlaşan bu musiqili səhnə əsərləri əvvəlcə bütün Avropaya, daha sonra Rusiyaya və Amerika Birləşmiş Ştatlarına yayılır.



***"Arşın mal alan" filmindən***



***"O olmasın, bu olsun" filmindən***

Azərbaycanda bu janrın yaranması dahi bəstəkarımız Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Onun "Arşın mal alan" operettası bütün dünyada məşhur bir əsərə çevrildi. Bu operetta sonralar bir sıra xarici ölkələrdə tamaşaya qoyularaq dünya şöhrəti qazandı və respublikamızda bu əsər iki dəfə film şəklində çəkildi. Bəstəkarın yaratdığı "O olmasın, bu olsun" və "Ər və arvad" operettaları da xalq tərəfindən sevilir.

***Bunu da bilin***

***Əsərin dinləyicilər tərəfindən tez qavranılması üçün Üzeyir Hacıbəyli "O olmasın, bu olsun" operettasında xalq mahnılarından və rəqslərindən məharətlə istifadə etmişdir. Məsələn, Məşədi İbadın Gülnaz və qulluqçu Sənəmlə oxuduğu trioda "Hüsnü bağında" adlı xalq mahnısının həm melodiyasından, həm də sözlərindən istifadə etmişdir. Operettadakı hamam səhnəsində səslənən "Hamamın içində" adlı kişi xoru tərəfindən oxunan mahnının musiqisi də Cənubi Azərbaycan aşıqlarına aiddir.***

**68**

Belə nəticəyə gəlinir ki, xalqın yaratdığı folklor musiqisindən professional bəstəkar yaradıcılığında istifadə olunması bu əsərlərin daha maraqlı və cəlbedici olmasına səbəb olur.

## DİFERENSİAL TƏLİM

Folklor musiqisindən professional musiqidə istifadə haqqında fikir söyləyir.

Xalq melodiyalarını notla oxuyur.

1. Xalq musiqi nümunələrinin ritmini tutur;
2. Xalq mahnı və rəqslərinin adlarını söyləyir.

Folklor nümunələrindən operetta janrında istifadə ətrafında informasiya mübadiləsi aparılır və müzakirə təşkil olunur.

*Musiqi dinləyək*

**Ü.Hacıbəyli. "O olmasın, bu olsun".**
**Məşədi İbad və Gülnazla Sənəmin triosu**

***Bunu da bilin***

***Trio üç musiqiçinin birlikdə ifası deməkdir. Dinlənilən trio – vokal triosu adlanır. Bu musiqi nümunəsinin bəndini Məşədi İbad, nəqəratını isə ikisəsli kimi Gülnazla Sənəm ifa edir.***



*Notla oxuyaq*

**HÜSNÜ BAĞINDA**
*(Azərbaycan xalq mahnısı)*




Bəstəkar "Məşədi İbad"ın mahnısı və "Məşədi İbadla Rüstəm bəyin dueti"ndə "Darçını" və "Uzundərə" Azərbaycan xalq rəqslərindən istifadə etmişdir.

***Musiqi dinləyək və "Darçını" rəqsi ilə müqayisə edək.***

**Ü.Hacıbəyli. "O olmasın, bu olsun".**
**Məşədi İbadla Rüstəm bəyin dueti**

***Bunu da bilin***

***Duet iki musiqiçinin birgə ifasıdır. "Məşədi İbadla Rüstəm bəyin dueti" vokal duet adlanır.***

**69**

*Yeni mahnı öyrənək*

**UŞAQLAR SEVİNSİN HƏMİŞƏ**

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Məmməd İsmayılovundur.*

**I**
Bu dünya hamıya beşikdir,
Bu dünya hamıya anadır.
Uşaqlar dünyanın sabahı,
Uşaqlar sabaha can atır.

***Nəqərat:***
Arzular gül açıb güllənsin,
Torpaqlar sevinsin həmişə.
Günəşə dil açıb dillənsin,
Uşaqlar sevinsin həmişə.

**II**
Sülh olsun, yer üzü gül olsun,
Uşaqlar böyüsün firavan.
Günəşin nuruyla yuyulsun
Bu yerlər, bu göylər, bu cahan.

***Nəqərat:***

**III**
Böyüklər, bəs kimdən sorulsun,
Cavabı suallı uşaqlar.
Beləcə böyüyüb boy atsın
Atalı-analı uşaqlar.



**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Operetta nədir?***
***2. Ü.Hacıbəyli "O olmasın, bu olsun" operettasında "Məşədi İbadın Gülnaz və qulluqçu Sənəmlə triosu"nda hansı xalq mahnısından istifadə etmişdir?***
***3. "Məşədi İbadla Rüstəm bəyin dueti" hansı janra aiddir?***
***4. Duet nədir? Hansı mahnını duet şəklində oxumaq istəyərdiniz və kiminlə?***

**70**

## YARADICI TƏTBİQETMƏ

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***

1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

**3**

Bəstəkar Oqtay Rəcəbovun şair M.İsmayılovun sözlərinə yazdığı "Uşaqlar sevinsin həmişə" mahnısı öyrədilir. Mahnının musiqisi haqqında fikir mübadiləsi aparılır.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) "O olmasın, bu olsun" operettasının müəllifi kimdir?***

a. M.Maqomayev ☐ b. S.Ələsgərov ☐ c. Ü.Hacıbəyli ☐

***2) "Məşədi İbadın mahnısı"nda hansı rəqsdən istifadə edilmişdir?***

a. İnnabı ☐ b. Uzundərə ☐ c. Darçını ☐

# 29. 28 MAY – RESPUBLİKA GÜNÜ VƏ MUSİQİ

**MƏQSƏD: 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir; 2. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şərh edir.**

**Bu mövzunun öyrənilməsində bilik həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**29. 28 MAY – RESPUBLİKA GÜNÜ VƏ MUSİQİ**






Vətənimizin tarixi günləri və bayramları sırasında çox böyük əhəmiyyət kəsb edən 28 may Azərbaycan Demokratik Respublikasının yaranma günüdür. 1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi ilə Azərbaycanda Demokratik Respublikanın yaradıldığını bildirdi. Məhəmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan Demokratik Respublikanı tanıyan ilk ölkə Türkiyə dövləti oldu. Azərbaycan Demokratik Respublikası hüquqi və dünyəvi dövlət nümunəsi oldu. Cənubi Qafqazda müstəqillik əldə etmiş zəngin yeraltı və yerüstü sərvətləri olan bu ölkəni sevməyənlər müstəqilliyimizə qarşı çıxdılar. 1920-ci il aprel ayının 28-də Azərbaycan Respublikası yenidən rus ordusu tərəfindən işğal olundu. 70 il sürən əsarətdən sonra 1991-ci il oktyabr ayının 18-də Vətənimiz yenidən öz müstəqilliyini qazandı. Hər il mayın 28-də ölkəmizdə Respublika Günü böyük bir təntənə ilə qeyd olunur. Azərbaycan bəstəkarları da Respublika Günü münasibətilə çoxsaylı mahnı, kantata, oratoriya, opera və simfonik əsərlər yazıb. Bu əsərlərdən biri də Xalq artisti, bəstəkar Oqtay Zülfüqarovun "Şənlən, mənim xalqım" uvertürasıdır.

***Musiqi dinləyək***

**Şənlən, mənim xalqım**

*Musiqisi Oqtay Zülfüqarovundur.*

Oqtay Zülfüqarovun bu əsərini Üzeyir Hacıbəylinin "Koroğlu" operasının uvertürası ilə müqayisə etmək olar. Belə ki musiqinin xarakteri, milliliyi, dramaturgiyası və quruluşu cəhətdən bu iki əsər bir-birinə çox yaxındır.

71

**1**

Respublika Günü haqqında tarixi məlumatlar verilir. Müəllim Azərbaycanın XX əsrdə iki dəfə müstəqillik əldə etdiyi haqqında məlumatları şagirdlərin diqqətinə çatdırır.

**2**

Oqtay Zülfüqarovun "Şənlən, mənim xalqım" uvertürası və Ü.Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra" dinlənilir.

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz bu iki əsər arasında oxşar və fərqli cəhətlər hansılardır?"*** – verilə bilər. Bu əsərlərin adları yazılmış iş vərəqləri şagirdlərə paylanır və sinif iki qrupa bölünür. I qrup oxşar, II qrup isə fərqli cəhətləri müəyyənləşdirir və cavablar lövhədə göstərilən düzgün cavablarla müqayisə olunur.

## DİFERENSİAL TƏLİM

Dinlənilən iki musiqi nümunəsi haqqında öz fikrini bildirir.

Dinlənilən musiqi nümunələrindən melodiya oxuyur.

1. Bəstəkarların adlarını söyləyir;
2. Melodiyaya ritm tutur.

“Şənlən, mənim xalqım” uvertürasından bir parça notla ifa edildikdən sonra musiqi nümunələri ətrafında informasiya mübadiləsi aparılır və müzakirə təşkil olunur.



*Notla oxuyaq*

**Ü.Hacıbəyli. “Milli marş” mahnısından bir parça**

**Marş tempində**

*Yeni mahnı öyrənək*

**AZƏRBAYCAN**

*Musiqisi Emin Sabitoğlunun,*
*sözləri Sədaqət Əhmədovanındır.*

Od ürəkli, od nəfəsli diyarım,
Ocağına can qurban, Azərbaycan!
Əzilsən də, əyilməyən vüqarımsan,
Bu çağına canım qurban, Azərbaycan!

Savaşlardan alnıaçıq çıxan zaman
Tarixlərə bağışladın neçə qurban,
Hər qonşuda bir parçası əsir qalan
Torpağına canım qurban, Azərbaycan!

Hər uğurun gələcəyə bir yol açır,
Hər dost elə xoş niyyətin işıq saçır.
Hər millətə, hər məzhəbə isti, açıq
Qucağına canım qurban, Azərbaycan!

Neçə gizli sərvət yatır qucağında,
Neçə ölkə od aparır ocağından.
Azadlığın al rəmzi var bayrağında,
Bayrağına canım qurban, Azərbaycan!

**SUAL VƏ TAPŞIRIQLAR:**

***1. Müstəqillik günü haqqında nə bilirsiniz?***
***2. “Azərbaycan” mahnısında Sədaqət Əhmədova və Emin Sabitoğlu hansı sözlərlə və hansı musiqi ifadə vasitələri ilə Vətən obrazını yaradıblar?***

72

Belə nəticəyə gəlinir ki, Azərbaycan bəstəkarları müstəqilliyimizə həsr olunmuş simfonik əsərlər yaratmışlar. Bu əsərlərdə xalqın mübarizəsi musiqi dili, ifadə vasitələri ilə təsvir olunur.

## YARADICI TƏTBİQETMƏ

**3**

Bəstəkar Emin Sabitoğlunun Sədaqət Əhmədovanın sözlərinə yazdığı “Azərbaycan” mahnısı öyrədilir. Mahnının xanə ölçüsünə uyğun dirijorluq hərəkətləri həyata keçirilir. Mahnının quruluşu haqqında fikir mübadiləsi aparılır.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində;
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

Düzgün cavab qarşısında (+) işarəsi qoyun

***1) “Şənlən, mənim xalqım” uvertürasının müəllifi kimdir?***

a. Ü.Hacıbəyli ☐ b. O.Zülfüqarov ☐ c. O.Kazımov ☐

***2) “Azərbaycan” mahnısının bəstəkarı kimdir?***

a. E.Sabitoğlu ☐ b. O.Rəcəbov ☐ c. S.Ələsgərov ☐

## F.ƏMİROV. "SEVİL" OPERASINDAN "SEVİLİN ARİYASI"NDAN BİR PARÇA




## Q.QARAYEV. "YEDDİ GÖZƏL" BALETİNDƏN "VALS"DAN BİR PARÇA



## P.İ.ÇAYKOVSKİ. “6-cı SİMFONİYA”NIN I HİSSƏSİNİN KÖMƏKÇİ MÖVZUSUNDAN BİR PARÇA




## “HEYRATI” AZƏRBAYCAN ZƏRBİ-MUĞAMINDAN BİR PARÇA



## F.ŞOPEN. "Mİ MİNOR VALSI"NDAN BİR PARÇA




## Q.QARAYEV. "FİKİRLİ" FORTEPİANO PYESİ



## Ü.HACIBƏYLİ. "LEYLİ VƏ MƏCNUN" OPERASINDAN "NOFƏLİN ARİYASI"NDAN BİR PARÇA

*Marş tempində*




## "MƏNSURİYYƏ". "ÇAHARGAH" MUĞAMININ SON ŞÖBƏSİNDƏN BİR PARÇA



# NİYAZİNİN "RAST" SİMFONİK MUĞAMINDAN
# İKİNCİ HİSSƏ



## İ.S.BAX. "FUQA"
## "ORQAN ÜÇÜN RE MİNOR TOKKATA VƏ FUQA"
## ƏSƏRİNDƏN BİR PARÇA



## İ.S.BAX. “LYA MİNOR PRELÜDÜ”NDƏN BİR PARÇA




## L.V.BETHOVEN. “SOL MAJOR MENUETİ”NDƏN BİR PARÇA



## Q.QARAYEV. "İLDIRIMLI YOLLARLA" BALETİNDƏN "GİTARALI QIZLARIN RƏQSİ"NDƏN BİR PARÇA




## S.RAXMANİNOV. "2№-Lİ KONSERT"İN GİRİŞİ



## “OXUMA, GÖZƏL” ROMANSINDAN BİR PARÇA

*Musiqisi Sergey Raxmaninovun,*
*sözləri Aleksandr Puşkinindir.*



## “OXUMA, GÖZƏL” ROMANSINDAN BİR PARÇA

*Musiqisi Ağabacı Rzayevanın,*
*sözləri Aleksandr Puşkinindir.*



## O.RƏCƏBOV. "ÇİNGİZ" SİMFONİYA-REKVİYEM ƏSƏRİNİN VII HİSSƏSİ. "ÜMUMXALQ HÜZNÜ"NDƏN GİRİŞ




## "SEGAH" MUĞAMINDAN BİR PARÇA



## Ü.HACIBƏYLİ. "KOROĞLU" OPERASININ "UVERTÜRASI"NDAN BİR HİSSƏ




## Ü.HACIBƏYLİ. "KOROĞLU" OPERASININ II PƏRDƏSİNDƏN "KOROĞLUNUN ARİYASI"NIN MELODİYASINDAN BİR PARÇA



## Ü.HACIBƏYLİ. "KOROĞLU" OPERASININ II PƏRDƏSİNDƏN "FİNAL XORU"




## İ.S.BAX. "2№-Lİ SÜİTA"DAN "YUMORESKA"



## MUSA MİRZƏYEVİN "YUMORESKA" FORTEPİANO PYESİ




## "HÜMAYUN" MUĞAMINDAN BİR PARÇA



## “ŞUR” MUĞAMININ “ZƏMİNXARƏ” GUŞƏSİNDƏN BİR PARÇA




## TOFİQ QULİYEV. “AXŞAM MAHNISI”



## N.RİMSKİ-KORSAKOV. “QAR QIZ” OPERASINDAN “QAR QIZIN ARİYASI”NDAN BİR PARÇA




## GÖZƏLLİKLƏR MƏSKƏNİ

*Musiqisi T.Bakıxanovun,*
*sözləri T.Mütəllibovundur.*




## M.S.QLİNKA. “RUSLAN VƏ LYUDMİLA” OPERASINDAN “ÇERNOMORUN MARŞI”



**M.QLİNKA. "RUSLAN VƏ LYUDMİLA" OPERASINDAN "İRAN QIZLARININ XORU"NDAN BİR PARÇA**




**F.ƏMİROV. "SEVİL" OPERASININ II PƏRDƏSİNDƏN "SEVİLİN ETİRAZ ARİYASI"NDAN BİR PARÇA**






## BAYRAM OLSUN

*Musiqisi Oqtay Kazıminin,*
*sözləri Ramiz Heydərindir.*




Qoy se - vin - sin ə - li - nin zəh - mə - ti - nə,
Qəh - rə - man - lıq şə - ni - nə nəğ - mə qo - şan,
Zəh-mə - tə min al - qış.
Nəqərat
Qoy ka- man, tar ol - sun.
A - ləm hey - ran o - lub,
Bi - zim bu bü - sa - ta.
Sev - gi, ə - mək o - lub,
Zi - nət bu hə - ya - ta
Qoy var ol - sun ya - ra - dan əl - lər.
1.
Se-vin- sin bəx - ti - yar el - lər.
2.
lər.
Toy ol - sun, bay - ram ol - sun,
Hə - yat fi - ra - van ol - sun.

## “ŞÜŞTƏR” MUĞAMINDAN “MAYEYİ-ŞÜŞTƏR”



## "BAYATI-ŞİRAZ" (A KAPELLA ÜÇÜN)

*Musiqisi Nazim Əliverdibəyovundur.*




## "BAYATI-ŞİRAZ" (ORQAN ALƏTİ ÜÇÜN)

*Musiqisi Nazim Əliverdibəyovundur.*



## İ.S.BAX. “ORQAN ÜÇÜN RE MİNOR TOKKATA VƏ FUQA” ƏSƏRİNDƏN BİR PARÇA




## F.ƏMİROV. “KÜRD-OVŞARI” SİMFONİK MUĞAMINDAN BİR PARÇA



## Ü.HACIBƏYLİ. “LEYLİ VƏ MƏCNUN” OPERASININ I PƏRDƏSİNDƏN QEYSLƏ (MƏCNUNLA) ATASININ MUĞAM ÜSTÜNDƏ İFALARINDAN BİR PARÇA



## Ə.BƏDƏLBƏYLİ. "QIZ QALASI" BALETİNDƏ İSTİFADƏ EDİLMİŞ "ŞALAXO" RƏQSİNDƏN BİR PARÇA




## Ü.HACIBƏYLİ. "O OLMASIN, BU OLSUN" OPERETTASINDAN "MƏŞƏDİ İBAD VƏ GÜLNAZLA SƏNƏMİN TRİOSU"

*Moderato*



## Ü.HACIBƏYLİ. "O OLMASIN, BU OLSUN" OPERETTASINDAN "MƏŞƏDİ İBADLA RÜSTƏM BƏYİN DUETİ"




## "DARÇINI"

*(Azərbaycan xalq rəqsi)*




## O.ZÜLFÜQAROV. "ŞƏNLƏN, MƏNİM XALQIM" SİMFONİK UVERTÜRASINDAN BİR PARÇA



## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. **A.Əsədullayev.** İnstrumental muğam. “Adiloğlu” nəşriyyatı, Bakı, 2009.
2. **F.Bədəlbəyli, O.Rəcəbov və başqaları.** Azərbaycan bəstəkarlarının yaradıcılığı. I cild. “Mütərcim” nəşriyyatı, Bakı, 2011.
3. **O.Rəcəbov.** Uşaqlar və mahnılar. “İşıq” nəşriyyatı, Bakı, 1985.
4. **O.Rəcəbov.** Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası. “Mütərcim” nəşriyyatı, Bakı, 2010.
5. **O.Rəcəbov, N.Kazımov və başqaları.** Azərbaycan xalq musiqisi və musiqi müəllimi hazırlığı. “Mütərcim” nəşriyyatı, Bakı, 2012.
6. **O.Rəcəbov, S.Ağayeva, O.İmanova.** Elementar musiqi nəzəriyyəsi. “Çıraq” nəşriyyatı, Bakı, 2007.
7. **O.Rəcəbov, U.Miriyeva.** Musiqi və mənəvi tərbiyə. “Maarif” nəşriyyatı, Bakı, 1995.
8. **O.Zülfüqarov, V.Xəlilov.** “Musiqi-6”. “Pedaqogika” nəşriyyatı, Bakı, 2006.
9. **R.Zöhrabov.** Bəstəkarların portreti. “Gənclik” nəşriyyatı, Bakı, 1997.
10. Uşaq mahnıları antologiyası – I, II, III cild. “Rafiq Xan-Sayadoğlu” nəşriyyatı, Bakı, 2005.
11. Ümumi təhsilin fənn standartları (I–XI siniflər). “Mütərcim” nəşriyyatı, Bakı, 2012.
12. **Z.Veysova.** Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. UNICEF, 2007.

BURAXILIŞ MƏLUMATI

**MUSİQİ 6**

*Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün*
*Musiqi fənni üzrə dərsliyin (qrif nömrəsi 2021-051)*
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Oqtay Məmmədağa oğlu Rəcəbov** |
| | **Nazim Kazım oğlu Kazımov** |
| | **Lalə Şirməmməd qızı Hüseynova** |
| Redaktor | **Sevinc Nuruqızı** |
| Bədii və texniki redaktor | **Abdulla Ələkbərov** |
| Dizaynerlər | **Səbinə Məmmədova, Firuzə İbrahimova** |
| Korrektor | **Ülkər Tağıyeva** |


Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 5,8. Fiziki çap vərəqi 6,0.
Formatı 70x100 $^{1}/_{16}$. Kəsimdən sonra ölçüsü: 165x240.
Səhifə sayı 96. Şriftin adı və ölçüsü: jurnal qarnituru: 11–12 pt.
Ofset kağızı. Ofset çapı.
Sifariş . Tirajı . Pulsuz. Bakı – 2021.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: ......2021**

Çap məhsulunu nəşr edən:
**“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 121$^{a}$ (149))

Çap məhsulunu istehsal edən:

PULSUZ